Xalqın qəzeti!

# Xalq qəzeti

№ 138 (30254) 6 iyul 2023-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

## Günün sözü

### Prezident İlham Əliyev:

**BMT Təhlükəsizlik Şurasında Qoşulmama Hərəkatına bir daimi yer verilməlidir. Zənnimizcə, Qoşulmama Hərəkatına, İslam Əməkdaşlıq Təşkilatına və Afrika İttifaqına sədrlik edən ölkələr BMT Təhlükəsizlik Şurasında veto hüququ ilə rotasiya əsasında yer almalıdırlar.**

# Qoşulmama Hərəkatının nəbzi Bakıda döyünür

## Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşü




**İyulun 5-də Bakı Konqres Mərkəzində Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun "Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli" mövzusunda nazirlər görüşü keçirilib.**

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşünün iştirakçılarını salamlayaraq tədbiri açıq elan etdi.

Əvvəlcə Qoşulmama Hərəkatına üzv ölkələrin 2019-cu ildən bu günədək həyatını itirən rəhbərlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Nazir Ceyhun Bayramov dedi ki, Kampala Sammitinə hazırlıq çərçivəsində nazirlərin bu görüşü 2019-cu ildə Bakıda Qoşulmama Hərəkatının Zirvə toplantısından sonra əldə edilən nailiyyətləri nəzərdən keçirməyə imkan yaradacaq. Həmçinin müxtəlif çağırışlara birgə yanaşmamızı və baxışımızı ifadə etmək imkanımız olacaq.

Sonra nazir Ceyhun Bayramov çıxış üçün sözü Azərbaycan Respublikasının Prezidenti, Qoşulmama Hərəkatının sədri İlham Əliyevə verdi.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

(ardı 2-ci səhifədə)

# BMT Baş katibi: Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyini yüksək qiymətləndirirəm



**Azərbaycan bəşəri dəyərlərə daim hörmət və ehtiramla yanaşıb, bütün xalqların inkişafına, dövlətlərin qarşılıqlı əməkdaşlığının təşviqinə, milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına öz töhfələrini verməyə çalışıb və buna nail olub. Doğrudur, biz bu siyasəti ulu öndər Heydər Əliyevin ölkədə siyasi hakimiyyətə qayıdışından sonra daim diqqət mərkəzində saxlamışıq. Ancaq Azərbaycanın Qoşulmama Hərəkatının sədri seçilməsindən sonra bu istiqamətli fəaliyyətimizə daha geniş meydan açılmışdır.**

Dünən Bakıda açılış mərasimi keçirilən Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşünün iştirakçılarına müraciət ünvanlayan BMT Baş katibi Antoniu Quttereş də rəsmi Bakının bu istiqamətli fəaliyyətini yüksək qiymətləndirmişdir. Təbrik məktubunda qeyd edilir ki, Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi dövründə dünyanın üzləşdiyi çağırışların müzakirəsinə və həllinə töhfələr verib. Baş katib əlavə edib ki, Qoşulmama Hərəkatına uğurlu sədrlik etdiyinə görə Prezident İlham Əliyevə təşəkkür edir, təşkilatın prinsip və normalarının yerinə yetirilməsində ölkənin rolunu və fəaliyyətini yüksək qiymətləndirirəm. O, həmçinin Qoşulmama Hərəkatı çərçivəsində Azərbaycanın koronavirus pandemiyası ilə mübarizəyə verdiyi töhfəni xüsusilə qeyd edib.

(ardı 4-cü səhifədə)

# Paşinyanın "Konstitusiya günü" avantürası



**Ermənistan baş naziri Nikol Paşinyan yenə səfehləyib. Əslində, Nikolun belə hərəkətlərinə nəinki biz, eləcə də bütün dünya öyrəncəlidir. Bu mənada onun ölkənin konstitusiya günü münasibəti ilə xalqa dünənki müraciətində, ilk baxışdan, fövqəladə nə isə yoxdur. Amma...**

Nikol bu müraciətində ölkəsinin xarici təhlükəsizlik sahəsindəki problemlərindən danışıb və bildirib ki, Ermənistan mövcud istiqamətdə çox ciddi çağırışlarla üz-üzədir. Əlbəttə, Paşinyan doğru deyir. Hazırda elə bir dövrdür ki, ölkənin taleyi həll olunmaqdadır. Amma belə görünür, Ermənistanda bunu baş nazirdən başqa kimsə anlamır və ya anlamaq istəmir. Erməni siyasi dairələrinin təmsilçiləri elə bəyanatlar verir, elə fikirlər səsləndirirlər ki, guya, indiki duruma qarşı çıxmaq üçün gücləri var. Nikol da belələrinin hay-küyünə uyur. Əslində, onun konstitusiya günü münasibətilə xalqa müraciətindəki ayrı-ayrı məqamlar da gəldiyimiz qənaətin təsdiqidir.

(ardı 4-cü səhifədə)

## Qərbi Azərbaycan: Zəngəzur xəyanəti

Səhifə ⇨ 9



## Qarabağ və Şərqi Zəngəzurda məskunlaşmaya hərtərəfli dəstək

Səhifə ⇨ 7



## Nazirlər İsveçdə Quranın yandırılmasını qətiyyətlə pisləyiblər

Səhifə ⇨ 6



## Azərbaycan – Qoşulmama Hərəkatı: İlham Əliyev liderliyi və beynəlxalq ədalət

**Qətiyyətlə demək olar ki, Azərbaycanın Qoşulmama Hərəkatına (QH) sədrliyi bu qurumun dünya miqyasında tanınması baxımından müstəsna mərhələni təşkil etdi. Ölkəmizin mövcud müstəvidə gördüyü işlər, irəli sürdüyü təşəbbüslər QH-nin beynəlxalq nüfuzunun yüksəlməsi reallığını doğurdu. Təşkilatın üzvlərinin 2019-cu ildə Azərbaycanın sədrliyinin üç il uzadılması ilə bağlı qərarı da bundan qaynaqladı. Deməli, yüksək etimadı layiqincə doğrultduq və nəticədə QH-yə sədrliyimiz daha bir il də uzadıldı.**



Belə kiçik girişdən sonra sual yaranır: Azərbaycan Qoşulmama Hərəkatına nə verdi? Heç şübhəsiz, cavab axtararkən, gözlərimiz önünə, ilk növbədə, ölkəmizin ötən müddətdə beynəlxalq-siyasi arenada keçdiyi yol gələcəkdir. Respublikamızın dünya dövlətləri sırasındakı yerinin və rolunun güclənməsi ilə bağlı dinamikanın ayrı-ayrı epizodik məqamlarını da nəzərdən keçirmiş olacağıq. Bütün bunların memarı isə bir şəxsdir - Prezident İlham Əliyev. Dövlətimizin başçısı QH-yə rəhbərliyi ilə özünün dünya səviyyəli lider obrazını dolğunlaşdırdı və qurumu, eyni zamanda, bəşəri ədalətin mütləq və oturuşmuş tribunasına çevirməyi bacardı.

Bəli, tam əminliklə deyə bilərik ki, Azərbaycan Prezidentinin fəaliyyəti nəticəsində QH dünyada BMT Baş Assambleyasından sonra ən böyük beynəlxalq təsisata çevrildi. Bu, eyni zamanda əlahiddə statusdur. Nəzərə alaq ki, bir təşkilatın təmsilçi sayına görə çoxluğu deyil, həmin təmsilçiliyin nə dərəcədə faydalılığı əsasdır. Yəni, faydalılıq haqqında söz açdığımız yüksək statusun qarantıdır. Bunu da qətiyyətlə bildirək: dövlətimizin başçısı gördüyü işlərlə QH-ni yalnız kəmiyyət deyil, habelə keyfiyyət baxımından da ucalara daşıdı.

(ardı 6-cı səhifədə)

## İdmanda meydan güclülərindir

Səhifə ⇨ 10



## İxracatda qeyri-neft məhsullarının çəkisi artır

Səhifə ⇨ 7

# Qoşulmama Hərəkatının nəbzi Bakıda döyünür



(əvvəli 1-ci səhifədə)

## Prezident İlham Əliyevin çıxışı

-Hörmətli nazirlər.
Xanımlar və cənablar.
Əziz qonaqlar.

Mən sizin hamınızı Bakıda Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündə salamlayıram.

Qoşulmama Hərəkatı ölkələrinin yekdil qərarı ilə Azərbaycan 2019-2022-ci illər üçün sədrliyi öz üzərinə götürdü və yenidən yekdil qərarla sədrliyimiz daha bir il uzadıldı.

Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi dövründə "Bandunq prinsipləri" əsasında ədaləti, beynəlxalq hüququ və üzv ölkələrin qanuni maraqlarını qətiyyətlə qorudu.

Beynəlxalq ictimaiyyət COVID-19 pandemiyası ilə necə mübarizə aparacağı barədə çaşqın vəziyyətdə olarkən, misli görünməmiş bu çağırışla mübarizədə qlobal səyləri birləşdirən Qoşulmama Hərəkatı oldu.

2020-ci ilin mayında Azərbaycanın təşəbbüsü ilə təşkil edilmiş Qoşulmama Hərəkatının liderlər səviyyəsində onlayn sammiti 2020-ci ilin dekabrında BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi ilə nəticələndi. Bundan əlavə, Qoşulmama Hərəkatının bəzi zəngin ölkələr tərəfindən yürüdülən "peyvənd millətçiliyi"nə güclü etirazı və bunun ardınca bütün ölkələr üçün peyvəndlərə ədalətli və universal çıxışla bağlı BMT qətnamələrinin qəbul edilməsi Qoşulmama Hərəkatının koronavirusla mübarizədə liderliyinə dəlalət edir.

Hərəkatın institusional inkişafı, xüsusən də müvafiq olaraq 2021-ci və 2022-ci illərdə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin və Qoşulmama Hərəkatı Gənclər Təşkilatının yaradılması Azərbaycanın sədrliyinin növbəti nailiyyətidir. Biz hazırda Qoşulmama Hərəkatının qadınlar platformasının yaradılması üzərində işləyirik. İnstitusional davamlılığa doğru atılan bu addımlarla biz növbəti sədrlərə mütləq uğurlu bir miras qoyacağıq.

Beynəlxalq ictimaiyyətin məsuliyyətli və fəal üzvü olaraq biz, həmçinin postpandemiya dövrü haqqında düşünməli olduq. Beləliklə, Azərbaycan bu ilin mart ayında Bakıda Qoşulmama Hərəkatının pandemiyadan sonrakı bərpaya həsr olunmuş növbəti sammitini uğurla təşkil etdi. Biz burada qlobal əhəmiyyətə malik məsələləri müzakirə etdik və pandemiyadan sonrakı dövrdə daha yaxşı bərpa üzrə fikirlərimizi bölüşdük.

Ehtiyacı olan ölkələrə yardım göstərmək Azərbaycanın sədrliyinin digər prioriteti idi. Azərbaycan əksəriyyəti Qoşulmama Hərəkatına üzv olan 80-dən çox ölkəyə ya ikitərəfli qaydada, ya da Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə COVID-19 ilə bağlı maliyyə və humanitar dəstək göstərib. Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları məbləğində könüllü töhfə verib. Biz, həmçinin beş ölkəni peyvəndlə təmin etmişik.

Yuxarıda qeyd etdiyim mart sammitində mən, həmçinin Afrika və inkişaf etməkdə olan kiçik ada dövlətlərinə postpandemiya dövründə bərpanı dəstəkləmək üçün iki qlobal çağırış elan etdim. Azərbaycan ilk donor kimi hər iki çağırış üçün bir milyon ABŞ dolları ayırdı.

Xanımlar və cənablar, multilateralizmin əsl müdafiəçisi və BMT-dən sonra ikinci böyük təsisat kimi Qoşulmama Hərəkatı yenidən formalaşan dünya nizamında öz yerini tapmalıdır. Biz "Bandunq prinsipləri" ətrafında qətiyyətlə dayanmalı, suverenliyin və ərazi bütövlüyünün pozulması, ölkələrin daxili işlərinə müdaxilə hallarına qarşı öz səsimizi ucaltmalıyıq. Hərəkatımızın dünya məsələlərində daha ön mövqedə olması mühüm əhəmiyyət kəsb edir.

Multilateralizm bizim güclü vasitəmizdir. Hazırda beynəlxalq təşkilatlar, xüsusilə BMT bəşəriyyətin gözləntilərinə cavab vermir. BMT-də ciddi islahatların aparılması qaçılmazdır. BMT Təhlükəsizlik Şurası keçmişin qalığıdır və hazırkı reallıqları əks etdirmir. Biz Təhlükəsizlik Şurasında daha çox ölkənin təmsil olunması və coğrafi baxımdan daha ədalətli olması üçün onun tərkibinin genişləndirilməsinin tərəfdarıyıq. Şadam ki, bu gün bu ideya ilə bağlı dünyada artan konsensus vardır.

Əvvəllər qeyd etdiyim kimi, BMT Təhlükəsizlik Şurasında Qoşulmama Hərəkatına bir daimi yer verilməlidir. Zənnimizcə, Qoşulmama Hərəkatına, İslam Əməkdaşlıq Təşkilatına və Afrika İttifaqına sədrlik edən ölkələr BMT Təhlükəsizlik Şurasında veto hüququ ilə rotasiya əsasında yer almalıdırlar.

Azərbaycan neokolonializm meyillərinin artmasından olduqca narahatdır. Dekolonizasiya prosesi nəticəsində yaranmış Qoşulmama Hərəkatı keçmişin bu utancverici mirasına qarşı qətiyyətlə mübarizə aparmalı və onun tamamilə aradan qaldırılmasına öz töhfəsini verməlidir.

Neokolonializmi hələ də davam etdirən ölkələrdən biri Fransadır. Fransanın Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır. Fransa Qəmər adalarının Mayot adası üzərində suverenliyinə, həmçinin Yeni Kaledoniya xalqının, o cümlədən özünün digər dənizaşırı icma və ərazilərində yaşayan xalqların hüquqlarına hörmət etməlidir. Mən öz haqq işlərini və azadlıq arzularını beynəlxalq ictimaiyyətə çatdırmaq üçün Bakı nazirlər görüşü çərçivəsində tədbir keçirəcək Fransanın dənizaşırı icma və ərazilərindən olan hörmətli nümayəndələri salamlayıram.

Fransanın soyqırımlarla dolu hakimiyyəti dövründə 1,5 milyona yaxın əlcəzairli qətlə yetirilib. Hələ də Paris muzeyində əlcəzairli azadlıq döyüşçülərinin kəllə sümükləri müharibə qənimətləri kimi saxlanılır. Bu, utancverici və iyrənc hərəkətdir. Biz Fransa prezidenti Emmanuel Makrondan həmin qəhrəmanların qalıqlarını Əlcəzairə təhvil verməsini tələb edirik.

Özünü yalandan insan haqlarının və beynəlxalq hüququn müdafiəçisi kimi qələmə verən Fransa hələ də digər ölkələrin daxili işlərinə qarışır. Fransa qoşunlarının bu yaxınlarda Mali və Burkina-Fasodan çıxarılması onun Afrikadakı amansız neokolonializm siyasətinin uğursuzluğa məhkum olduğunu bir daha göstərdi. Təəssüf ki, Fransa Azərbaycanın Qarabağ bölgəsində erməni separatizmini dəstəkləyərək, geosiyasi rəqabət, xarici hərbi mövcudluq və "Orientalizm" müstəmləkəçilik siyasəti ilə Cənubi Qafqaz regionunda da eyni mənfur təcrübəni tətbiq etməyə çalışır.

Fransa XX əsrin ikinci yarısı boyunca Əlcəzairdə və özünün dənizaşırı ərazilərində - Sakit okeanda, Fransa Polineziyasında bir neçə nüvə silahı sınağı keçirmiş və bununla da qlobal səviyyədə ətraf mühitin deqradasiyasına, yerli icmalarda ciddi sağlamlıq problemlərinə səbəb olmuşdur.

Fransa öz müstəmləkə keçmişinə, qanlı müstəmləkə cinayətlərinə və soyqırımı aktlarına görə Qoşulmama Hərəkatına üzv olan Afrika, Cənub-Şərqi Asiya ölkələrindən və digər ölkələrdən üzr istəməlidir.

Bir neçə gün əvvəl Niderland kralı ölkəsinin müstəmləkə keçmişinə və qul ticarəti ilə məşğul olduğuna görə rəsmən üzr istəyib. Biz onun fransız həmkarını da həmin hərəkəti etməyə çağırırıq. Heç vaxt olmamaqdansa gec olması yaxşıdır. Əcdadları müstəmləkə siyasətinə məruz qalmış, qul kimi istifadə olunmuş, öldürülmüş, işgəncələr verilmiş və alçaldılmış insanlardan milyonlarla insanın qarşısında üzr istənilməsi yalnız Fransanın tarixi günahının etirafı olmayacaq, həm də Fransanın əlcəzairli yeniyetmənin vəhşicəsinə öldürülməsindən sonra qarşılaşdığı dərin siyasi, sosial və humanitar böhranın nəticələrinin aradan qaldırılmasına kömək edəcək.

Fransada, xüsusilə də mediada və internetdə müəyyən etnik azlıqlara qarşı davamlı və geniş şəkildə yayılmış irqçi, ayrı-seçkilik salan fikirlər, rəsmi şəxslər və parlamentin iki palatasının üzvləri tərəfindən irqi nifrət xarakterli çıxışlar getdikcə artmaqdadır. Bu yaxınlarda Əlcəzair əsilli 17 yaşlı yeniyetmənin Fransa polisi tərəfindən qətlə yetirilməsi bu ölkədə irqçiliyin və islamofobiyanın daha bir əlamətidir. Bu baxımdan biz BMT-nin polisin atəş açmasını pisləyən və Fransanı "hüquq-mühafizə orqanlarında irqçilik və ayrı-seçkiliyin dərin problemlərini ciddi şəkildə həll etməyə" çağıran bəyanatını dəstəkləyirik.

Fransa hətta Korsika dilinə qadağa qoyur və etnik azlıqlar konsepsiyasını qəbul etmir, lakin, eyni zamanda, özünü Azərbaycandakı erməni milli azlığının müdafiəçisi kimi göstərməyə çalışır. Bu, riyakarlıq və ikili standartlardan başqa bir şey deyil.

Fransa hakimiyyəti başqalarına mühazirə oxumağa cəhd etmək əvəzinə, öz ölkəsində bu cür narahatedici meyillərlə mübarizə aparmalıdır.

Əziz dostlar, iqlim dəyişikliyi, su qıtlığı, ərzaq təhlükəsizliyi, məcburi miqrasiya kimi məsələlər bizim daimi diqqətimizi tələb edir. İnkişaf etməkdə olan kiçik ada dövlətləri iqlim dəyişikliyinin təsirlərinə daha həssasdır və ekzistensial təhlükə ilə üzləşirlər. Miqrant qayıqlarının Aralıq dənizində qəzaya uğramasının dəhşətli fotoları xüsusilə narahatedicidir.

Fikrimizcə, mədəniyyətlərarası və dinlərarası dialoqun təşviqi bizim gündəliyimizdə öndə duran məsələlər olmalıdır. Biz geniş vüsət alan islamofobiya və ksenofobiya hallarından, həmçinin İslamın zorakılıq və terrorla eyniləşdirilməsi cəhdlərindən narahatıq. Danimarkada, Niderlandda, İsveçdə müqəddəs Quranın yandırılması, təhqir olunması və buna ifadə azadlığı adı altında bəraət qazandırılması tamamilə məsuliyyətsizlikdir, qəbulolunmazdır və bu, pislənilməlidir.

Xanımlar və cənablar, sədrliyimiz dövründə Azərbaycan xalqı üçün ən önəmli və yaddaqalan məqam Vətən müharibəsində bizim tarixi Qələbəmiz oldu. 2020-ci ildə Azərbaycan Ermənistanı döyüş meydanında məğlub edərək Ermənistanın 30 illik işğalına son qoydu. İşğalçı ölkə kimi Ermənistan kapitulyasiya aktını imzalamağa məcbur oldu. Bununla da Azərbaycan öz ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi dörd qətnaməsinin icrasını özü təmin etdi. Azərbaycanın bu Qələbəsi beynəlxalq hüququn və ədalətin zəfəridir.

Otuz il əvvəl Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərinin təxminən 20 faizini işğal etdi, həm Ermənistanda, həm də Azərbaycanın işğal olunmuş ərazilərində etnik təmizləmə həyata keçirdi. Bunun nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünə çevrildi. Ermənistan 1992-ci ildə Xocalı şəhərində 613 azərbaycanlını, o cümlədən 106 qadını və 63 uşağı yalnız etnik mənsubiyyətinə görə vəhşicəsinə qətlə yetirdi.

Ərazilərimiz işğaldan azad edildikdən sonra Azərbaycan indi bir sıra nəhəng çağırışlarla üz-üzədir. Keçmişdə işğal altında olmuş ərazilərdəki dağıntıların miqyasından dəhşətə gəldik. Azərbaycanın şəhər və kəndləri Ermənistan tərəfindən qəsdən dağıdılmış, talan olunmuş, bütün mədəni və dini abidələr, məscidlər təhqir olunmuş, qarət edilmişdir. Ermənistan işğal etdiyi ərazilərdə urbisid, kultursid və ekosid törətmişdir.

İşğal altında olmuş ərazilərdəki 67 məsciddən 65-i dağıdılıb, qalanlarından isə donuz və inəklər üçün tövlə kimi istifadə edilib ki, bu da bütün dünya müsəlmanlarına qarşı təhqirdir.

Altmış min hektar meşəlik məhv edilmiş, kəsilmiş və daşınmışdır, torpaqlarımız və çaylarımız çirkləndirilmiş və zəhərləndirilmişdir.

Ermənistan indi isə Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə sərhədində transsərhəd ekoloji fəlakət törətməkdə davam edir. Bununla Ermənistan 1991-ci il Transsərhəd kontekstdə Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi Konvensiyasından (Espoo Konvensiyası) irəli gələn öhdəliklərini pozmuş olur. Bu Konvensiyada ölkələrin mənfi transsərhəd təsirlərdən qaçmaq üçün bir-biri ilə məsləhətləşmələr aparmasının vacibliyi açıq şəkildə qeyd edilir.

Ermənistanın işğalının digər mənfi fəsadı minalardır. Azərbaycan hazırda dünyada minalarla ən çox çirkləndirilmiş on ölkə sırasındadır. 2020-ci ilin noyabrında Vətən müharibəsi başa çatdıqdan sonra mina partlayışı nəticəsində təxminən 300 azərbaycanlı həlak olub və ya ağır yaralanıb. İşğaldan azad edilmiş ərazilərdə baş verən hər bir mina partlayışı Ermənistanın törətdiyi hərbi cinayətlərin uzun siyahısının davamıdır. Mina problemi Ermənistan tərəfindən Azərbaycan xalqının fundamental insan hüquqlarının pozulmasıdır. 2020-ci ildə kapitulyasiyadan sonra da Ermənistan külli miqdarda mina istehsalını davam etdirirdi və onları Laçın sərhəd-gömrük buraxılış məntəqəsi yaradılana qədər Azərbaycanın Qarabağ bölgəsinə daşıyırdı.

Minalar yenidənqurma prosesini və keçmiş məcburi köçkünlərin azad edilmiş ərazilərə qayıdışını ləngidir. Bunu nəzərə alaraq, Azərbaycan humanitar minatəmizləmə üzrə xüsusi milli Dayanıqlı İnkişaf Məqsədi müəyyənləşdirib. Bundan başqa, Azərbaycan qlobal miqyasda humanitar minatəmizləmə səylərini dəstəkləyir və minatəmizləmənin 18-ci Dayanıqlı İnkişaf Məqsədi olması təklifini irəli sürmüşdür.

Əminəm ki, Qoşulmama Hərəkatının üzv dövlətləri səsimizi qlobal miqyasda eşitdirmək üçün Minaların Təsirinə Məruz Qalmış Ölkələrin Həmfikirlər Qrupunun yaradılması təklifimi dəstəkləyəcəklər.

Ermənistan, həmçinin Birinci Qarabağ müharibəsi nəticəsində işgəncələrə məruz qalan, öldürülən və kütləvi məzarlıqlarda basdırılan 4 minə yaxın itkin düşmüş azərbaycanlının taleyinin müəyyənləşdirilməsində tam şəffaflığı təmin etməli və əməkdaşlıq etməlidir.

Bütün bu çətinliklərə baxmayaraq, Azərbaycan işğaldan azad edilmiş 10 min kvadratkilometrlik ərazidə özünün maliyyə imkanları hesabına sıfırdan irimiqyaslı yenidənqurma işlərini uğurla həyata keçirir.

Münaqişə başa çatdıqdan az sonra Azərbaycan Ermənistanla bir-birinin suverenliyinin və ərazi bütövlüyünün qarşılıqlı tanınması əsasında sülh sazişi imzalamaq üçün beş əsas prinsipini təqdim edib.

Ermənistanın Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımağa məcbur olmasına baxmayaraq, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində hələ də Ermənistan silahlı qüvvələrinin qalıqları mövcuddur. Əgər Ermənistan həqiqətən də regionda çoxdan gözlənilən sülhdə maraqlıdırsa, onda onun silahlı qüvvələri Azərbaycanın Qarabağ bölgəsindən tamamilə çıxmalıdır. Bölgədəki erməni hərbi və yarımhərbi elementləri tərk-silah edilməlidir.

Ermənistan, həmçinin, təxminən, 3 il əvvəl imzaladığı kapitulyasiya aktında yer almış digər öhdəliyi olan və Azərbaycanın əsas hissəsini onun Naxçıvan Muxtar Respublikası ilə bağlayacaq Zəngəzur dəhlizinin açılmasına mane olur.

Xanımlar və cənablar, fürsətdən istifadə edərək, işğal zamanı və işğaldan sonra Azərbaycanın ədalətli mövqeyini dəstəkləməkdə göstərdikləri prinsipial mövqeyə görə Qoşulmama Hərəkatı ölkələrinə dərin minnətdarlığımı bildirmək istəyirəm. Mən xüsusilə 2020-ci və 2022-ci illərdə Qoşulmama Hərəkatı ölkələrinin BMT Təhlükəsizlik Şurasında Azərbaycan əleyhinə olan birtərəfli və qərəzli bəyanatların qəbul edilməsinin qarşısını aldıqları iki hala istinad edirəm.

Mən, həmçinin Qoşulmama Hərəkatının bütün üzv dövlətlərinə həmrəyliklərinə və Azərbaycana sədrliyini uğurla həyata keçirmək üçün göstərdikləri dəstəyə görə təşəkkür etmək istərdim.

Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Bakı nazirlər görüşünə uğurlar arzu edirəm. Əminəm ki, bu görüş səmərəli və nəticəyönümlü müzakirələrlə yadda qalacaqdır.

Təşəkkür edirəm.

***

Nazirlər görüşü işini müzakirələrlə davam etdirib.

**AZƏRTAC**

# Azərbaycan İraqla Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, OPEC+ formatı çərçivəsində uğurlu əməkdaşlıq edir

**İyulun 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İraq Respublikasının Baş nazirinin müavini, xarici işlər naziri Fuad Hüsseyni qəbul edib.**

Dövlətimizin başçısı bu ilin martında Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşü zamanı İraq Prezidenti Əbdüllətif Camal Rəşid ilə görüşünü məmnunluqla xatırladı, həmin görüş zamanı Azərbaycan-İraq əlaqələrinə dair geniş fikir mübadiləsinin aparıldığını qeyd etdi.

Fuad Hüsseyn İraqın Prezidenti Əbdüllətif Camal Rəşidin və Baş naziri Şiya əs-Sudaninin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İraqın Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.

İraqın Baş nazirinin müavini, xarici işlər naziri ölkələrimiz və xalqlarımız arasında tarixi əlaqələrin olduğunu vurğuladı.

Söhbət zamanı ölkələrimizin beynəlxalq təşkilatlarda, o cümlədən Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, OPEC+ formatı çərçivəsində uğurla əməkdaşlıq etdikləri bildirildi.

Fuad Hüsseyn İraqın Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyini daim dəstəklədiyini bildirdi, ölkəmizin Hərəkata uğurlu sədrliyi münasibətilə təbriklərini çatdırdı.



Görüşdə münasibətlərimizin müxtəlif istiqamətlərdə inkişaf perspektivləri, o cümlədən enerji və turizm sahələrində əməkdaşlıq, iqtisadi-ticari əlaqələrin genişləndirilməsi məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı. Xüsusilə turizm sahəsində əlaqələrin COVID-19-dan əvvəlki dövrdəki uğurlu dinamikaya uyğun olaraq genişləndirilməsi, İraqın və Azərbaycanın müxtəlif şəhərləri arasında birbaşa hava reyslərinin açılması, sərmayələr, kənd təsərrüfatı sahələrində əməkdaşlıq məsələləri müzakirə olundu. Həmçinin rəsmi və biznes nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin önəmi qeyd edildi.

# Türkiyə ölkəmizin Qoşulmama Hərəkatına rəhbərliyini yüksək qiymətləndirir



**İyulun 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidanı qəbul edib.**

Hakan Fidanı Türkiyənin xarici işlər naziri təyin edilməsi münasibətilə təbrik edən Prezident İlham Əliyev ona fəaliyyətində uğurlar arzuladı. Dövlətimizin başçısı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın seçkilərdən sonra Azərbaycana dövlət səfərini ölkələrimiz arasında qardaşlıq və müttəfiqlik münasibətlərinin nümunəsi kimi qiymətləndirdi.

Təbrikə görə minnətdarlığını bildirən Hakan Fidan həm də həm əvvəlki vəzifələrdə, həm də hazırda xarici işlər naziri kimi Azərbaycan ilə Türkiyə arasındakı qardaşlıq və dostluq münasibətlərinin inkişafını daim rəhbər tutduğunu qeyd etdi, Türkiyənin Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşünə dəvət olunmasına görə təşəkkürünü bildirdi.

Türkiyənin xarici işlər naziri Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi münasibətilə dövlətimizin başçısını təbrik etdi və bununla da ölkəmizin çox önəmli prosesə rəhbərlik etdiyini vurğuladı.

Dövlətimizin başçısı Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatının təsisatlanması prosesində ölkəmizin gördüyü işlər, həmçinin sədrlik prosesi barədə məlumat verdi.

Söhbət zamanı regional məsələlərə dair fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyev Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması, Cənubi Qafqazda davamlı sülhün və təhlükəsizliyin təmin olunması istiqamətində gedən proseslər barədə danışdı.

Görüşdə Azərbaycan–Türkiyə dostluq və qardaşlıq münasibətlərinin strateji müttəfiqlik zəminində, "bir millət, iki dövlət" prinsipi əsasında bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, ölkələrimizin daim bir-birinin yanında olduqları qeyd edildi.

# Prezident İlham Əliyev İranın xarici işlər nazirini qəbul edib



**İyulun 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran İslam Respublikasının xarici işlər naziri Hüseyn Əmir Abdullahiyanı qəbul edib.**

İranın xarici işlər naziri onu qəbul etdiyinə görə dövlətimizin başçısına təşəkkürünü bildirdi.

Hüseyn Əmir Abdullahiyan İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş etdi.

Qoşulmama Hərəkatına uğurlu sədrliyi münasibətilə Azərbaycanı təbrik edən İranın xarici işlər naziri ölkəmizin sədrliyi dövründə Hərəkatın davamlı və dinamik surətdə inkişaf etdiyini vurğuladı.

Hüseyn Əmir Abdullahiyan Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının nazirlər görüşünün açılış mərasimindəki çıxışında çox vacib məqamlara toxunduğunu dəyərək bu tədbirin əhəmiyyətini qeyd etdi, onun gündəliyindəki çox vacib məsələlərin müzakirə olunduğunu vurğuladı.

İranlı nazir ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin inkişafında müsbət dinamikanın olduğunu dedi, Şimal-Cənub nəqliyyat dəhlizinin inkişaf etdirilməsində Azərbaycanla İranın mühüm rol oynadığını diqqətə çatdırdı.

Azərbaycan səfirliyinə qarşı törədilmiş terror aktının İranın məhkəmə və hüquq-mühafizə orqanları tərəfindən çox ciddi şəkildə araşdırıldığını bildirən nazir Azərbaycanın Tehrandakı səfirliyinin fəaliyyətinin tezliklə bərpa olunacağına ümidvarlığını ifadə etdi.

Prezident İlham Əliyev öz növbəsində Azərbaycanın İrandakı səfirliyinə qarşı törədilən terror aktında müqəssir olan şəxslərin layiqli cəzasını alacaqlarına ümidvar olduğunu bildirdi.

Dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatında rolundan və onun təsisatlanması istiqamətində həyata keçirdiyi işlərdən danışdı.

Söhbət zamanı iqtisadi-ticari əlaqələrin son dövrlərdə artan dinamikası məmnunluqla qeyd edildi, Şimal-Cənub nəqliyyat dəhlizinin, həmçinin bu marşrutla bərabər, Şərqi Zəngəzur iqtisadi rayonu ilə Azərbaycanın Naxçıvan Muxtar Respublikası arasında kommunikasiya bağlantılarının icrasının inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

Hər iki ölkənin aidiyyəti nümayəndə heyətlərinin yaxın vaxtlarda görüşünün keçiriləcəyi müsbət hal kimi qeyd olundu.

# Özbəkistan qardaş ölkə, dost dövlətdir



**İyulun 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistan Respublikasının xarici işlər naziri Baxtiyor Saidovu qəbul edib.**

Baxtiyor Saidov Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin əziz dostu və qardaşı Prezident İlham Əliyevə salamlarını çatdırdı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Özbəkistan Prezidentinə çatdırmağı xahiş etdi.

Baxtiyor Saidov Azərbaycanın Qoşulmama Hərəkatına müvəffəqiyyətlə sədrliyi və nazirlər görüşünün uğurla keçirilməsi münasibətilə təbriklərini ifadə etdi. O, Azərbaycan Prezidentinin Özbəkistana dövlət səfəri çərçivəsində iki ölkə başçısının müəyyənləşdirdiyi tapşırıqlara uyğun olaraq fəaliyyətin davam etdirildiyini və qarşıya qoyulmuş bütün məqsədlərin diqqətdə saxlanıldığını vurğuladı.

Prezident İlham Əliyev öz növbəsində Özbəkistana dövlət səfərini məmnunluqla xatırladı. Dövlətimizin başçısı işğaldan azad olunmuş ərazilərdə Özbəkistan tərəfindən məktəb tikintisi layihəsinin xüsusi önəm daşıdığını bildirdi, Prezident Şavkat Mirziyoyevin tezliklə Azərbaycana səfərinin gözlənildiyini qeyd etdi.

Söhbət zamanı Azərbaycanın və Özbəkistanın Qoşulmama Hərəkatı, Türk Dövlətləri Təşkilatı və digər beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlıq etdikləri diqqətə çatdırıldı, ikitərəfli gündəlikdə duran məsələlərə dair fikir mübadiləsi aparıldı.

# Monteneqro ilə qarşılıqlı dəstək məmnunluq doğurur



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Monteneqronun Baş naziri və xarici işlər naziri vəzifəsini icra edən Dritan Abazoviçi qəbul edib.**

Dritan Abazoviç Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşünə dəvətə görə təşəkkürünü bildirdi və Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi münasibətilə təbriklərini çatdırdı.

Söhbət zamanı Prezident İlham Əliyevin və Baş nazir Dritan Abazoviçin bu il Davosda keçirilmiş görüşü məmnunluqla xatırlandı.

Görüşdə Monteneqronun Azərbaycan ilə enerji, turizm, investisiyalar və digər sahələrdə əməkdaşlığın inkişafında maraqlı olduğu qeyd edildi, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimizin bir-birinə dəstəyi vurğulandı.

***AZƏRTAC***

# Fələstinlə ikitərəfli əməkdaşlıq inkişaf edir



**İyulun 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fələstin Dövlətinin xarici işlər naziri Riad Əl-Malikini qəbul edib.**

Riad Əl-Maliki Azərbaycanın Fələstində diplomatik nümayəndəliyinin açılması ilə bağlı təşəkkürünü bildirdi. O, Azərbaycanın xarici işlər nazirinin Fələstinə səfərinin önəmini vurğuladı, bu addımların Azərbaycanla Fələstin arasında ikitərəfli əlaqələrin inkişafına ciddi təkan verəcəyinə əminliyini ifadə etdi.

Fələstinin xarici işlər naziri Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi münasibətilə təbriklərini çatdırdı. O, Azərbaycanın Fələstinə göstərdiyi daimi humanitar yardımın və dəstəyin Fələstin xalqı tərəfindən yüksək qiymətləndirildiyini vurğuladı.

Riad Əl-Maliki Azərbaycanı öz torpaqlarını işğaldan azad etməsi münasibətilə təbrik etdi.

Azərbaycan Prezidenti Fələstin Dövlətinin Baş naziri Mohammed Ştayyeh ilə görüşünü məmnunluqla xatırladı. Dövlətimizin başçısı bu görüş əsnasında Fələstində Azərbaycan tərəfindən məktəbin tikilməsi layihəsi barədə müraciətin olduğunu qeyd edərək, buna müsbət münasibətin bildirildiyini və tezliklə bu layihənin icra olunacağını dedi. Dövlətimizin başçısı Azərbaycanın Fələstində diplomatik nümayəndəliyinin açılmasını müsbət addım kimi dəyərləndirdi.

Söhbət zamanı beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

***AZƏRTAC***

# Baş nazirin monteneqrolu həmkarı ilə görüşü



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyulun 5-də ölkəmizdə səfərdə olan Monteneqronun Baş naziri Dritan Abazoviç ilə görüşüb.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildirilib ki, görüşdə Bakıda keçirilən Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşünün əhəmiyyəti vurğulanıb, Dritan Abazoviçin tədbirdə iştirakı yüksək qiymətləndirilib.

Ölkəmizin Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində səmərəli fəaliyyəti, o cümlədən irəli sürdüyü mühüm təşəbbüslər barədə bəhs edilib.

Azərbaycan-Monteneqro münasibətlərinin bir çox sahələrdə uğurla inkişafından məmnunluq ifadə olunub.

Eyni zamanda, ticarət-iqtisadi, investisiyaların təşviqi, energetika, turizm və digər istiqamətlərdə ikitərəfli əlaqələrin perspektivləri müzakirə edilib.

***"Xalq qəzeti"***

# DTX Akademiyasında növbəti buraxılış

**Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasında növbəti məzun buraxılışı ilə əlaqədar təntənəli tədbir keçirilib.**



DTX-nin rəisi general-polkovnik Əli Nağıyev, Xidmətin rəhbər əməkdaşları, təhlükəsizlik orqanlarının veteranları, Akademiyanın professor-müəllim heyəti və məzunların valideynləri iştirak ediblər.

Tədbirdə əvvəlcə məzunlara diplomlar təqdim olunub.

DTX-nin rəisi general-polkovnik Əli Nağıyev Akademiyanın şəxsi heyətini, məzunları və onların valideynlərini salamlayaraq, təhlükəsizlik orqanlarında çalışacaq gənc zabitləri təhsillərini müvəffəqiyyətlə başa vurmaları münasibətilə təbrik edib, əsası 1998-ci ildə Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və dahi rəhbərin adını daşıyan bu tədris ocağında qazandıqları bilik və praktiki vərdişləri gələcək xidməti fəaliyyətlərində uğurla tətbiq edəcəklərinə, Heydər Əliyevin bu orqanlarda yaratdığı peşəkarlıq irsini layiqincə davam etdirəcəklərinə, təhlükəsizliyin etibarlı təminatına öz töhfələrini verəcəklərinə ümidvar olduğunu bildirib.

General-polkovnik Əli Nağıyev hazırda Akademiyaya qəbul və namizədlərin seçiminə ciddi tələblərin qoyulduğunu və imtahanlarda yüksək keçid balları toplayaraq Akademiyaya daxil olan və fərqlənmə diplomu ilə bitirən kursantların sayının ildən-ilə artdığını qeyd edib, onların respublikada keçirilən müxtəlif bilik yarışlarında birincilik əldə etmələrinin məmnunluq doğurduğunu vurğulayıb.

Həmçinin Azərbaycan Prezidenti İlham Əliyevin Akademiyaya xüsusi diqqət və qayğısının növbəti təzahürü kimi dövlətimizin başçısının müvafiq Sərəncamı ilə Akademiyanın təhsil sisteminin müasir dövrün tələblərinə uyğunlaşdırılması və imkanlarının daha da genişləndirilməsi üçün nizamnaməsində dəyişiklik edilərək yeni bakalavr və magistr ixtisaslarının təsis edildiyi barədə məlumat verilib.

Sonra tədbirdə söz alan digər çıxışçılar da Akademiyada kursantların hərtərəfli savada və geniş dünyagörüşünə yiyələnmələri üçün yaradılan şəraitə görə Azərbaycan Prezidenti İlham Əliyevə və DTX-nin rəhbərliyinə minnətdarlıqlarını çatdırıblar.

***Qəzənfər QASIMOV, "Xalq qəzeti"***

# Qoşulmama Hərəkatının nazirlər görüşü dünya mediasında




**Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Bakıda keçirilən “Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli” mövzusunda nazirlər görüşü dünya mediasının diqqət mərkəzində olub.**

Türkiyənin “Hürriyet” qəzetində dərc olunan “Əliyev sülhün şərtlərini açıqladı: Ermənistan silahlı qüvvələrini Qarabağdan tamamilə çəkməlidir” sərlövhəli geniş məqalədə qeyd olunub ki, Prezident İlham Əliyev Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündəki çıxışında otuz il əvvəl Ermənistanın Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərinin təxminən 20 faizini işğal etdiyini, həm Ermənistanda, həm də Azərbaycanın işğal olunmuş ərazilərində etnik təmizləmə həyata keçirdiyini, bunun nəticəsində bir milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkünə çevrildiyini bildirib.

Türkiyənin Anadolu, İHA informasiya agentlikləri, “TRTWorld” telekanalı Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündəki çıxışını canlı yayımlayıb. Bundan başqa, “Yeni Akit”, “Yeni Şafak”, “Akşam”, “Haber com”, “En son haber” və digər qəzet və xəbər portalları, həmçinin “Haber Global”, “OdaTV” telekanallarının saytları dövlətimizin başçısının çıxışının əsas məqamlarını təqdim ediblər.

Pakistanın “www.urdupoint.com” portalında isə Bakı görüşündə Malayziyanın xarici işlər naziri Zambri Abd Kadirin BMT-də ciddi islahatlara çağırış etdiyi bildirilib.

Çinin “People’s Daily” və Nikaraquanın “www.el19digital.com” portallarında qeyd olunub ki, Bakı görüşündə yeni dünya nizamı ilə bağlı məsələlər müzakirə edilir, yaranmış böhrandan çıxış yolları axtarılır.

Misirin “Əxbar Əl Youm” nəşrinin dərc etdiyi “İlham Əliyev: Fransa üzr istəməlidir” sərlövhəli materialda qeyd olunub ki, Azərbaycan Prezidenti özünü yalandan insan haqlarının və beynəlxalq hüququn müdafiəçisi kimi qələmə verən Fransanın hələ də digər ölkələrin daxili işlərinə qarışdığını, təəssüf ki, Azərbaycanın Qarabağ bölgəsində erməni separatizmini dəstəkləyərək, geosiyasi rəqabət, xarici hərbi mövcudluq və “Orientalizm” müstəmləkəçilik siyasəti ilə Cənubi Qafqaz regionunda da eyni mənfur təcrübəni tətbiq etməyə çalışdığını söyləyib.

“Əl Əhəd” qəzetində qeyd edilib ki, Azərbaycanın prezidenti Fransanın soyqırımlarla dolu hakimiyyəti dövründə 1,5 milyona yaxın əlcəzairlini qətlə yetirdiyini, hələ də Paris muzeyində əlcəzairli azadlıq döyüşçülərinin kəllə sümüklərinin müharibə qənimətləri kimi saxlanıldığını bildirib, bunu utancverici və iyrənc hərəkət adlandırıb.

“Əl Marsad”, “Əl Həmra”, “Pressbee”, SANA informasiya agentliyi, “Yemen Publisher” və ərəb ölkələrinin digər qəzet və portalları da Azərbaycanın dövlət başçısının Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündəki çıxışına geniş yer ayırıblar.

Əlcəzairin “al24news.com” saytı Qoşulmama Hərəkatının sədri, Prezident İlham Əliyevin açılış sessiyasında “beynəlxalq təşkilatlar, xüsusilə də Birləşmiş Millətlər Təşkilatı artıq bəşəri ümidləri doğrultmur, ona görə də BMT qaçılmaz olaraq ciddi islahatlar aparmalıdır” fikirlərini oxucuların diqqətinə çatdırıb.

Gürcüstanın “İnterpressnews.ge” portalında dərc olunmuş materialda deyilir: “Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, münaqişə başa çatdıqdan az sonra Azərbaycan Ermənistanla bir-birinin suverenliyi və ərazi bütövlüyünün qarşılıqlı tanınmasına əsaslanan sülh müqaviləsinin imzalanmasının beş əsas prinsipini təqdim edib. Ermənistanın Qarabağı Azərbaycanın bir hissəsi kimi tanımalı olmasına baxmayaraq, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində hələ də Ermənistan silahlı qüvvələrinin qalıqları var. “netgazeti.ge” portalında yayımlanan materialda isə bildirilir ki, Ermənistan silahlı qüvvələri Qarabağı tamamilə tərk etməlidir.

Gürcüstanın İctimai Televiziyasında yayımlanan (1tv.ge) materialda Prezident İlham Əliyevin Fransada rəsmi şəxslərdən və parlamentarilərdən irqçi nifrət dilinin getdikcə daha çox eşidilməsi barədə fikirləri yer alıb. Bildirilib ki, Fransa müstəmləkəçilik keçmişinə və soyqırımı aktlarına görə üzr istəməlidir.

Kubanın “www.plenglish.com” portalında yayımlanan xəbərdə Qoşulmama Hərəkatının “yeni ədalətli dünya nizamı uğrunda mübarizəsini davam etdirən ölkələrin ən böyük hərəkatı olduğu bildirilib. “www.cubanews.acn.cu” portalı isə Hərəkatı siyasi məsləhətləşmələr və beynəlxalq gündəlikdəki digər aktual məsələlər üzrə mübadilə forumu kimi diqqətə çatdırıb.

Qoşulmama Hərəkatının Bakıda keçirilən nazirlər görüşü və tədbirdə səslləndirilən fikirlərlə bağlı materiallar, eyni zamanda, Belarusun “Belta”, “Reform.by”, “Eadaily.com” kimi eelektron media resurslarında da yayımlanıb.

Azərbaycan Prezidenti İlham Əliyevin Qoşulmama Hərəkatının nazirlər görüşündə çıxışı zamanı söylədiyi fikirləri ispandilli mətbuatın da diqqət mərkəzində olub.

“www.swissinfo.ch”, “www.msn.com”, “Deportes” kimi portallarda yayımlanan məqalələrdə Prezident İlham Əliyevin Qoşulmama Hərəkatına (QHH) üzv olan dövlətləri neokolonializmlə mübarizə aparmağa çağırdığı, Fransanı irqçilikdə, soyqırımda və başqa ölkələrin işlərinə qarışmaqda ittiham edərək, neokolonializmin müasir dəstəkçilərindən biri olduğunu bildirdiyi vurğulanıb.

İranın “ww.tasnimnews.com” və “mehrnews.com” saytlarında bu ölkənin xarici işlər naziri Hüseyn Əmir Abdullahiyanın Azərbaycan Prezidenti İlham Əliyevlə keçirdiyi görüşlər barədə məlumat verilib. Bildirilib ki, müzakirə olunan məsələlər arasında Azərbaycanın İrandakı səfirliyinə hücumda müqəssirlərin tapılması ilə bağlı görülən tədbirlər də yer alıb.

# Paşinyanın “Konstitusiya günü” avantürası

## *Ermənistan baş nazirinin anti-sülh tezisləri*



**(əvvəli 1-ci səhifədə)**

Amma əvvəlcə N.Paşinyanın nə dediklərinə diqqət yetirək. Baş nazir deyir ki, Ermənistan hökumətinin qəbul etdiyi sülh gündəliyinin alternativi yoxdur: “Sülh suverenliyimizin və təhlükəsizliyimizin ən etibarlı amilidir”. Hərçənd, o, sülh gündəliyinin həyata keçirilməsinin təkcə onlardan asılı olmadığını da vurğulayır. Yəni, baş nazirin Azərbaycanın sanki barışığa mane olduğuna dair sətiraltı eyhamını hiss edirik...

Başlıca məqamlardan biri də budur ki, N.Paşinyan ölkəsinin sülhə nail olmaq üçün bütün qanuni səyləri göstərməli olduğunu söyləyir: “Bu kontekstdə Dağlıq Qarabağ ermənilərinin hüquqlarının və təhlükəsizliklərinin təmin edilməsi və 29,8 min kvadratkilometr əraziyə malik Ermənistan Respublikasının ərazi bütövlüyünün tanınması üçün müvafiq mexanizmlərin yaradılması əsas əhəmiyyət kəsb edir”.

Hesab edək ki, 29,8 min kvadratkilometrlik ərazi Ermənistanın qanuni haqqıdır. Amma Paşinyan həmin haqqı Qarabağın erməni əhalisinin hüquq və təhlükəsizliyi müstəvisinə daşıyanda, ortaya böyük qanunsuzluq, beynəlxalq hüquqa zidd yanaşma çıxır. Nəticədə onun Azərbaycanın 86,6 min kvadratkilometr ərazidə suveren hüquqlarını tanıdığını bildirməsi əhəmiyyətini tamamilə itirir. Nəzərə alaq ki, tanınma yalnız sözdədir, sənəddə yox. Digər tərəfdən, Paşinyan ölkəmizin ərazi bütövlüyünü tanıyırsa, yaxşı əzbərləməlidir ki, həmin ərazidə “Dağlıq Qarabağ” adlı inzibati ərazi vahidi yoxdur. Azərbaycanın Qarabağ iqtisadi rayonu var ki, Ermənistanın baş nazirinin, hər ehtimala, bu adı da dilinə almaması daha konstruktiv olardı...

Bəli, Paşinyan vurğuladığımız iki məsələni – öz ərazisinin tanınmasını və Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyinin tanınmasını çulğalaşdırır. Hər ikisi üçün ortaq nöqtə olan beynəlxalq təminatı axtarır. Deyə bilmərik, Nikol söylədiklərinin təfərrüatlarını düşünüb ya yox, amma buradan bir nəticəyə də gəlmək mümkündür ki, Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyi ilə bağlı direniş olsa, vəziyyət 29,8 min kvadratkilometrlik ərazi üçün riskə çevriləcəkdir. Bu, həqiqətən də belədir. Azərbaycan Prezidenti İlham Əliyevin fikirlərini xatırlayaq: “Ermənistanın 29 min kvadratkilometr ərazidə rahat yaşaması üçün bir şərt var – bizim şərtlərimizi qəbul etməlidir, rəsmən Qarabağı Azərbaycan ərazisi kimi tanımalıdır, bizimlə sülh müqaviləsi imzalamalıdır, bizim şərtlərə əsasən, delimitasiya işlərini aparmalıdır. Ancaq o təqdirdə onlar 29 min kvadratkilometr ərazidə, – hansı ki, indi onlar ancaq bunu istəyirlər, – rahat yaşaya bilərlər. Əgər Ermənistan bizim ərazi bütövlüyümüzü tanımasa, biz də onların ərazi bütövlüyünü tanımayacağıq. Bunun nəticəsi nə olacaq, bunu Ermənistan və onun arxasında duran riyakar ölkələr yaxşı bilməlidirlər. Yaxşı bilməlidirlər ki, bizə qarşı heç bir çirkin plan həyata keçməyəcək. Bizim həm gücümüz var, həm dostlarımız var, dünyada güclü mövqelərimiz var və güclü iradəmiz var. Müharibə dövründə və müharibədən sonrakı dövrdə biz bunu nümayiş etdirmişik”.

Deməli, hazırda Ermənistan hakimiyyəti riskə getməkdədir. Əlbəttə, o, həm də hansı təhlükəli oyuna baş vurduğunu düşünməyəcək qədər iflic durumdadır. Burada bir məsələni də vurğulamağa ehtiyac var. 44 günlük müharibəyə qədər Ermənistan hakimiyyəti Qarabağı Ermənistan ərazisi sayırdısa, müharibədən sonra bu baxışda ciddi dəyişiklik baş verdi. Amma dəyişiklik ölkənin Qarabağ avantürasından daşındığı anlamına gəlməməlidir. Sadəcə olaraq, avantüra özünün məzmununu yox, formasını dəyişdi.

Məsələn, Ermənistan hökumətinin 2022-2026-cı illər üçün fəaliyyət strategiyasında Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyinin, o cümlədən, azadlıqlarının təmin edilməsinə dair müddəa yer alıb. Əslində, Paşinyan administrasiyası məhz həmin “strateji” müddəanı Azərbaycanla danışıqlar masasına daşımağa cəhd göstərir. Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyi ilə bağlı beynəlxalq təminat tezisi də məhz bundan qaynaqlanmaqdadır. Belədə ortaya iki sual çıxır: 29,8 min kvadratkilometrlik ərazidə suveren hüquqlarının tanınması ilə bağlı beynəlxalq təminat Ermənistanın nəyinə lazımdır? Bəs, sırf Qarabağın erməni əhalisinin hüquq və təhlükəsizliyinə dair beynəxalq təminat mexanizminin yaradılması nəyə xidmət edir?

***

İkinci suala cavab verək. Qarabağ erməniləri ilə əlaqədar beynəlxalq təminat o deməkdir ki, Ermənistan onları fərqləndirir. Yəni, xüsusi imtiyazlı təbəqəyə çevrilirlər. Beləliklə: - fərqləndirmə beynəlxalq sənəddə əksini tapır. Özü də hüquq və təhlükəsizlik kontekstində. Bu kontekst Azərbaycanla sülh müqaviləsində yer alırsa, deməli, ölkəmiz, faktiki olaraq, Ermənistanı həm də Qarabağ ermənilərinin hamisi kimi qəbul etmiş olur. Nəticədə, İrəvan gələcəkdə bu əhali kateqoriyası ilə bağlı öz üzərinə öhdəlik götürmüş kimi davranma şansı, rəsmi patronajlıq qazanır.

Bir halda ki, ölkənin 2022-2026-cı illər üçün strategiyasında diqqətə çatdırdığımız məqam yer alıb, deməli, sülh müqaviləsində beynəlxalq təminat məsələsinin mövcudluğu erməni ərazi iddialarını daha da qüvvətləndirəcəkdir. Müvafiq olaraq, gələcəkdə Ermənistan nəyisə bəhanə edib bildirə bilər ki, tutalım Qarabağdakı Aşotun hüquqları pozulur və s. Hətta Aşot və Aşot kimilərin özlərinin hüquqlarına hörmətsizliyin mövcudluğunu qondarıb, ölkəmizin tabeliyində yaşamaq istəmədiklərini də uca səslə dilə gətirmələri mümkündür. Onların səslərinin eşidilməsi üçün beynəlxalq təminat olacaqsa, heç şübhəsiz, həmin təminat erməni avantürizmi üçün vəsiləyə çevriləcəkdir.

Paşinyan, Ermənistan hakimiyyəti, ümumilikdə, dünya erməniliyi həmin vəsilənin axtarışındadır. Hər iki qütb düşünür ki, hələlik Azərbaycanın qarşısında duracaq güc yoxdur, üstəlik, beynəlxalq hüquq da qəsbkarlıq niyyətlərinin gerçəkləşməsinə imkan vermir. Bu səbəbdən onlar dünyanın diqqət mərkəzində olan danışıqlar prosesinə vurğuladığımız məsələni dürtmək istəyirlər. Beynəlxalq aləmin erməni təəssübünün işə düşəcəyinə ümid bəsləyirlər. Qarabağ erməniləri müstəvisində yaradılmış isterik durum da həmin ümiddən qaynaqlanmaqdadır.

***

Birinci suala cavab vermək üçün isə bir müddət əvvəl Paşinyanın ortaya atdığı və erməni cəmiyyətində geniş müzakirə doğurmuş məsələyə diqqət yetirək. Söhbət Ermənistan üçün “kadastr şəhadətnaməsi”ndən gedir. Nikol, təxminən, ay yarım öncə, ölkənin hansısa sənədinin olmadığını bildirmişdi. Necə deyərlər, sanki uşaq doğulub, ona ad qoyulub, ancaq bu, heç bir yerdə əksini tapmayıb. Yəni, uşağın atasının və anasının kimliyi bilinmir. Bu baxımdan Nikolun əndişəsini anlamaq olardı. O, elə indi də eyni məsələni gündəmə gətirir. İstəyir ki, 29,8 min kvadratkilometr ərazinin Ermənistan kimi tanınması beynəlxalq səviyyədə rəsmiləşsin. Ölkənin, necə deyərlər, “kupçası” olsun.

Maraqlıdır ki, Ermənistan üçün “kupça” və ya “doğum şəhadətnaməsi”nin alınmasının yolu, Azərbaycanla bağlanacaq sülh müqaviləsindən keçir. Bunu erməni baş nazir də gözəl anlayır. Ancaq erməniliyindən qalmır. İndiki məqamda o, həm ölkənin öz ərazisinin tanınması, həm də Qarabağ erməniləri üçün hüquq və təhlükəsizliyin təminatı üçün beynəlxalq mexanizmin tətbiqindən söz açmaqla, Ermənistanı və erməni avantürizminin davamlılığını təminat altına almağa çalışır. Yəni, nə vaxtsa Qarabağda erməni separatizmi baş qaldırmağa başlasa, Azərbaycanın əks addımları Ermənistan üçün təhlükə yaratmasın. Paşinyan bu təhlükəni görür. Beynəlxalq mexanizmdən və ya beynəlxalq təminatdan dəm vurma bunun üçündür.

Sonda onu deyək ki, Nikolun fikirləri bir daha onu göstərir ki, Ermənistan rəhbərliyi, yumşaq desək, düz yolda deyil. Nəzərə alaq ki, 44 günlük müharibədə qalib olan Azərbaycan, zəfərin ona verdiyi üstünlükləri sonadək dəyərləndirməkdə israrlıdır. Ölkəmiz mövqeyini qətiyyətlə ortaya qoymaqdadır və prinsiplərindən geri çəkilən deyil. Prinsiplərdən söz düşmüşkən, Qarabağ ermənilərinin Azərbaycana inteqrasiyası məsələsi bu baxımdan mühüm əhəmiyyət daşımaqdadır. Bakı bölgənin erməni nümayəndələrini danışıqlara dəvət edib, ancaq pozitiv cavab almayıb.

Belə nəticəyə gəlirik ki, bölgənin erməni əhalisi ya separatizmi dəstəkləyir, ya da onun təsirindən çıxa bilmir. Hər bir halda nəticə eynidir. Hazırda Paşinyanın dilə gətirdikləri isə Qarabağdakı erməni separatizminin saxlanmasına yönələn cəhddən başqa bir şey deyil. Əlbəttə, bu, uğursuz, ən əsası isə son dərəcə təhlükəli cəhddir.

***Ə.CAHANGİROĞLU,***
***“Xalq qəzeti”***

# BMT Baş katibi: Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyini yüksək qiymətləndirirəm

## *Ölkəmizin sədrliyi bu hərəkatı nüfuzlu beynəlxalq təşkilata çevirmişdir*

**(əvvəli 1-ci səhifədə)**

A.Quterreş əlavə edib ki, dünya münaqişələrdən, iqlim problemlərindən, qeyri-sabit iqtisadiyyatdan və bəşəriyyət üçün təhlükə yaradan digər problemlərdən əziyyət çəkir: “Qoşulmama Hərəkatının fəaliyyəti isə kataklizmlərə qarşı mübarizəyə töhfə verir”.

Yeri gəlmişkən, dövlət başçımız, Qoşulmama Hərəkatının COVID –19 -a qarşı mübarizə üzrə təmas qrupunun bu il martın 2-də keçirilən Zirvə görüşündəki çıxışında demişdi ki, bu hərəkatın təməl sənədlərində əks olunduğu kimi, biz Fransa hökumətini Yeni Kaledoniya xalqının və Fransanın dənizaşırı icma və ərazilərindəki digər xalqların hüquqlarına hörmət etməyə çağırırıq. Fransanın Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır. Biz, həmçinin Fransanı Afrika, Cənub-Şərqi Asiya və digər ərazilərdə Qoşulmama Hərəkatının üzvü olan ölkələrə qarşı müstəmləkə keçmişinə, qanlı müstəmləkə cinayətlərinə, eləcə də soyqırımı aktlarına görə üzr istəməyə və məsuliyyətini etiraf etməyə çağırırıq.

Fikrimizcə, dövlət başçımızın həmin çıxışında cənab Quttereşin xatırlatdığı həm təbii, həm də bilavasitə insanların törətdiyi problemlərin aradan qaldırılmasına çağırışlar var idi. Çox təəssüf ki, həm BMT rəhbərliyinin, həm Qoşulmama Hərəkatı sədrliyinin çağırışlarına baxmayaraq, ədalətsizliklər hələ də davam edir. Məsələn, işğalçı Ermənistanla Azərbaycan arasındakı artıq tarixin arxivinə göndərilmiş münaqişənin həll edilməsi üçün yaradılmış Minsk qrupuna XXI əsrdə müstəmləkəçilik siyasətini davam etdirən ölkənin həmsədrliyindən hansı ədaləti gözləmək olar?

Hamının gözü qabağındadır ki, Fransa həmin fəaliyyəti zamanı nəinki hansısa ədalət prinsipinə, hətta normal əxlaq çərçivəsinə də sığmayan mövqe nümayiş etdirmişdir. Üstəlik, 44 günlük İkinci Qarabağ müharibəsi dövründə rəsmi Paris, sözün həqiqi mənasında, işğalçını dəstəklədi, beynəlxalq hüququn təməl prinsiplərini ayaq altına atdı, Azərbaycana və Türk dünyasına düşmən münasibətini gizlətmədi.

Azərbaycan isə bəşəri dəyərləri üstün tutaraq, həm öz tarixi torpaqlarını düşmən əsarətindən azad etdi, həm yüz minlərlə insanın hüquqlarının bərpasına nail oldu, həm də BMT Təhlükəsizlik Şurasının otuz ilə yaxın icra edilməyən qətnamələrinin icrasını reallaşdırdı.

Dövlət başçımız Qoşulmama Hərəkatına üzv ölkələrin nazirlərinin dünən keçirilən tədbirində Ermənistanın Cənubi Qafqazda sülhün bərpasına qarşı törətdiyi maneələri də yada saldı. Qoşulmama Hərəkatının sədri təəssüflə xatırlatdı ki, Fransa Azərbaycanın Qarabağ bölgəsində erməni separatizmini dəstəkləyərək, geosiyasi rəqabət, xarici hərbi mövcudluq və “Orientalizm” müstəmləkəçilik siyasəti ilə Cənubi Qafqaz regionunda da eyni mənfur təcrübəni tətbiq etməyə çalışır”.

Bu da bir faktdır ki, Qoşulmama Hərəkatı Azərbaycanın sədrliyi dövründə özünün əvvəlki ampluasından çıxaraq, kifayət qədər fəal olan bir beynəlxalq quruma çevrilmişdir. İndi artıq beynəlxalq ictimaiyyət BMT-nin xüsusi sessiyasının çağırılması təşəbbüsü ilə çıxış edən, öz katibliyi, parlament və gənclər şəbəkəsi olan Qoşulmama Hərəkatı ilə hesablaşır.

Dövlət başçımızın bu qurumun sədri kimi etdiyi çıxışlar, xüsusilə, “peyvənd millətçiliyi”nin aradan qaldırılması təklifi müstəsna beynəlxalq əhəmiyyət kəsb edir. Hamı etiraf edir ki, Prezident İlham Əliyev artıq dünya ictimaiyyətini çox narahat edən, olduqca mühüm məsələləri gündəliyə gətirir. Dövlət başçımız xatırladır ki, son bir neçə onillikdə mövcud olan beynəlxalq təhlükəsizlik arxitekturası hazırda köklü dəyişikliklərlə üzləşir, beynəlxalq hüququn norma və prinsiplərinin aşınması bəşəriyyəti təhdid edir.

Prezident İlham Əliyevin fikrincə, dünya bu gün neokolonializm meylinin artdığını müşahidə edir. Tarixi müstəmləkəsizləşdirmə prosesi nəticəsində yaranmış Qoşulmama Hərəkatı isə bəşəriyyətin bu rüsvayçı səhifəsinin tamamilə aradan qaldırılması istiqamətində səylərini birləşdirməlidir.

QH sədri olan Azərbaycan lideri təklif edir ki, yeni hədəflərə çatmaqda geriləmənin qarşısını almaq və 2030-cu il gündəliyinin icrasına vaxtında nail olmaq üçün qlobal səylər gücləndirilməlidir. Başqa bir təklif isə tam siyasi məzmunludur: “Biz suverenliyə, milli sahibliyə, bərabərliyə və qarşılıqlı mənafeyə hörmət prinsiplərini rəhbər tutan Cənub–Cənub əməkdaşlığını daha da gücləndirməliyik. Həmin gündəlik Cənub ölkələrinin özləri tərəfindən öz milli ehtiyac və prioritetlərinə uyğun olaraq təşkil edilib. Bu, kənardan məcburi qaydada qoyulmuş bir gündəlik deyil”.

Dövlət başçımızın dünənki çıxışının əsas istiqamətlərindən biri də 44 günlük İkinci Qarabağ müharibəsindən sonra ermənilərin və onların havadarlarının sərgilədiyi əxlaq, daha doğrusu, əxlaqsızlıq barədədir. “Ermənistanın Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımağa məcbur olmasına baxmayaraq, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində hələ də Ermənistan silahlı qüvvələrinin qalıqları mövcuddur”, – deyən dövlət başçısı vurğulayıb ki, əgər Ermənistan həqiqətən də regionda çoxdan gözlənilən sülhdə maraqlıdırsa, onda onun silahlı qüvvələri Azərbaycanın Qarabağ bölgəsindən tamamilə çıxmalıdır. Bölgədəki erməni hərbi və yarımhərbi elementləri tərksilah edilməlidir.

Sonda xüsusilə qeyd edək ki, cənab Antoniu Quterreşin Azərbaycanın Qoşulmama Hərəkatına rəhbərlik dövründə həyata keçirdiyi layihələrə verdiyi yüksək qiymətin anonsunu biz xeyli əvvəl eşitmişdik. Belə ki, 120 dövlətin yekdil qərarı ilə Azərbaycanın bu hərəkata sədrliyinin müddəti daha bir il uzadılmışdı. Ancaq cənab Prezidentin dediyi kimi, biz kiməsə nümunə göstərilmək və ya kiminsə yüksək qiymətini almaq üçün fəaliyyət göstərmirik. Biz ənənəvi olaraq, öz ədalətli mövqeyimizi davam etdirir, haqq yolu ilə gedirik. Yolumuz açıq olsun!

***İttifaq MİRZƏBƏYLİ,***
***“Xalq qəzeti”***

# Dünyanın qəbul etdiyi dahi şəxsiyyət



**(Əvvəli "Xalq qəzeti"nin 2023-cü il 5 iyul nömrəsində)**

1994-cü ildə Prezident Heydər Əliyev BMT Baş Məclisinin sessiyasında ilk dəfə Azərbaycan reallıqları və Ermənistanın təcavüzünün ağır nəticələri barədə çıxış etdi. Beynəlxalq birliyi təcavüzkara qarşı durmağa çağırdı. Səfər başa çatdı və biz Bakıya qayıtdıq. Yalnız onda bildik ki, Heydər Əliyev səfərdə olarkən Prezident yanında Xüsusi İdarənin rəisi Şəmsi Rəhimov və Milli Məclis sədrinin müavini Afiyəddin Cəlilov vəhşicəsinə qətlə yetiriliblər... Prezidentin ABŞ səfərilə bağlı materialları efirə hazırlayırdıq. Montaj zamanı bir kadr diqqətimi çəkdi. Statik planda dövlət başçısının nəzərləri çox qayğılı bir formada uzaqlara dikilmişdi. Mən onda başa düşdüm ki, dəhşətli qətllər barədə prezident elə həmin andaca məlumat almış, lakin nümayəndə heyəti üzvlərindən heç kimə bunu sezdirməmişdi. O, sarsılmışdı. Lakin itkinin ağırlığına baxmayaraq, BMT Baş Məclisinin sessiyasında da məğrur görkəmlə, qətiyyətlə çıxış etdi. Bəli, Heydər Əliyev ən çətin və ağır məqamlarda soyuqqanlılığını qoruyub saxlayan lider idi.

## Sözün qüdrətinə inam

Prezidenti müşayiət etdiyim bütün xarici səfərlərdə ona göstərilən böyük jurnalist marağının şahidi olmuşam. Hər hansı ölkənin paytaxtında, elə aeroportdaca Azərbaycan liderini ən azı 25-30 jurnalist qarşılayırdı. Onların arasında hər zaman "Assoşieyted press", "Röyter", "Bi-Bi-Si", "Vaşinqton Post", "Nyu-York Tayms", "Qardian", "Fiqaro" və başqa nəhəng media qurumlarının nümayəndələri də olurdu. Heydər Əliyev heç vaxt jurnalistlərdən qaçmaz, ən sərt sualları belə cavablandırmaqdan yayınmazdı. Eksklüziv müsahibələr vermək üçün istirahət vaxtını "xərcləyirdi".

O, xarici səfərlər zamanı 14-16 saat işləyirdi. Diqqət çəkən bir məqam var idi. Zirvə toplantılarında iştirak edən jurnalistlər digər dövlətlərin rəhbərləri ilə müqayisədə Azərbaycan Prezidentinə daha çox suallar verirdilər. Yaxşı yadımdadır. 1995-ci ildə Almatıda MDB dövlət başçılarının zirvə toplantısı keçirilirdi. Sonda mətbuat konfransı təşkil olundu. Giriş sözü ilə konfransı Rusiyanın Baş naziri Viktor Çernomırdin açdı (Boris Yeltsin bir qədər əvvəl ziyafətdə iştirak etdiyi üçün mətbuat konfransına qatılmamışdı). Suallar verilməyə başlandı. Onlar əsasən Çernomırdin və Heydər Əliyevə ünvanlanırdı. Növbəti suala cavab verən Prezident həmkarlarını vəziyyətdən çıxarmaq üçün gülə-gülə dedi: "Viktor Stepanoviç, bəlkə digər prezidentlərin vaxtını almamaq üçün mən ayrı bir zala keçim?" Zalda alqış səsləri ucaldı. Bax, jurnalistlərin Heydər Əliyevə marağı belə güclü idi.

Eyni münasibəti türkdilli dövlətlərin Ankarada, İslam Konfransı Təşkilatının Kasablankada keçirilən zirvə toplantılarında da görmüşəm. Onu da müşahidə edirdim ki, digər dövlətlərin başçıları, tanınmış siyasət adamları bu və ya digər taleyüklü məsələlərlə bağlı məhz Azərbaycan liderinin mövqeyini öyrənməyə çalışırdılar. 1994-cü ilin sentyabrında Heydər Əliyevin Nyu-Yorka səfəri zamanı keçirilən görüşlərdən birində Bil Klinton dedi: "Siz, cənab Prezident Heydər Əliyev, keçmiş sovetlər birliyinin rəhbərlərindən biri olmusunuz. Deyə bilərsinizmi ki, mən ruslarla münasibətləri necə qurum?"

Heydər Əliyev hər kəsdən və hamıdan yaxşı bilirdi ki, yeni Azərbaycan mətbuatı müstəqil Azərbaycanın, demokratiyanın körpə balasıdır və hələ ilk kövrək addımlarını atır. O hər kəsdən və hamıdan yaxşı bilirdi ki, Azərbaycan mətbuatı əsrimizin özü kimi mürəkkəb və ziddiyyətli, lakin şərəfli bir yol keçir. Azərbaycan jurnalistikası himayəyə, dövlət qayğısına möhtacdır. Bu səbəbdən də qayğısını mətbuatdan əsirgəmirdi.

## Nadir taktiki gedişlər

Ulu öndər sözə və sözünə sahib lider idi. O, sözün gücünə, qüdrətinə inanır və başqalarını da buna inandırmağı bacarırdı. 1994-cü ilin 4 oktyabrını ömrüm boyu unuda bilmərəm. Həmin gün axşam televiziyanın "Xəbərlər" redaksiyasına belə məlumatlar daxil olurdu: "Gəncə Surət Hüseynovun tərəfdarlarının əlindədir. Onlar ətraf rayonları da tuturlar. XTPD-çilər 8-ci kilometrdəki qərargahlarından şəhərə hücuma hazırlaşırlar".

Çəkiliş qrupumuz Prezident iqamətgahında idi. Şirkətin sədri vəziyyətin ağırlığı ilə bağlı məni məlumatlandırdı və zəruri tapşırıqlar verdi. Bildirdi ki, Prezident televiziya ilə xalqa müraciət edəcək. Az sonra dövlət başçısının müstəqil Azərbaycan dövləti və dövlətçiliyini xilas edən tarixi müraciəti efirə verildi. Yüz minlərlə adam – cavan, qoca, qadın, uşaq gecəyarısı Prezident Sarayının qarşısına toplaşdı. Təhlükə sovuşduruldu. Bununla da ümummilli lider onun ən böyük arxasının xalq olduğunu bir daha sübut etdi. Azərbaycanın tarixində ilk dəfə idi ki, xalq küçə və meydanlara iqtidarı devirmək üçün yox, Prezidenti müdafiə etmək üçün axışdı. Əgər hər hansı qüvvənin etibarına elə çətin məqamda şübhə ola bilərdisə, xalqın öz Prezidentinin yenilməzliyinə inam və sədaqəti şəksiz idi. Elə məhz buna görə də ümummilli lider "XTPD-nin qərargahını havadan bombardman etmək" kimi təklifləri də daxil olmaqla bütün avantüraları rədd etdi. O, xalqına arxalanaraq dövlət çevrilişinə cəhd edən qüvvələri sözünün gücü ilə yerində oturtdu.

Qarşıdurmada əks tədbirlər taktikasını və strategiyasını ancaq Heydər Əliyev dühası elə qura bilərdi ki, faciənin qarşısı alınsın, Azərbaycan dövlətçiliyi xilas edilsin. Bunun məhz belə olduğu dəfələrlə sübuta yetdi. 1995-ci il martın 11-də XTPD-nin komandiri Rusiya televiziyasının "Vesti" proqramına müsahibə verərək deyirdi: "Kopenhagendə rəsmi səfərdə olan Heydər Əliyev Bakıya qayıda bilməyəcək, qayıtsa da, Pakistana uça bilməyəcək". Bu, o demək idi ki, dövlət çevrilişinin dəqiq vaxtı müəyyənləşdirilib və silah gücünə bu çevriliş reallaşdırılacaq. Belə bir ağır məqamda Türkiyə prezidenti Süleyman Dəmirəl və baş nazir Tansu Çillər Kopenhagendə səfərdə olan Prezident Heydər Əliyevə Azərbaycandakı vəziyyətlə bağlı məluat verirlər. Hətta Süleyman Dəmirəl təklif edir ki, Prezident Ankaraya uçsun. Təbii ki, cəsarətli və sarsılmaz iradəyə malik lider bu təklifi qəbul etmir. Ən çətin məqamlarda soyuqqanlılığını qoruyan dövlət başçısı qəfil gediş edir və Bakıya dönüş vaxtını bir neçə saat irəli çəkir. Azərbaycan paytaxtında əsən şiddətli küləyin öz səmtini dəyişdirməsi də dövlət başçısının təyyarəsinin havada vurulmasına imkan vermir. Bax, bu, Heydər Əliyevin taktiki gedişlərinin tükənmədiyinin sübutu, strategiyasının qələbəsi idi. O, Bakıya qayıtdı və vəziyyəti şəxsi nəzarəti altına aldı. Hadisələrin sonrakı inkişafı isə hamıya bəllidir...

## Sadəlikdən boylanan böyüklük

...İş otağımdakı xidməti telefon zəng çaldı. Dövlət başçısının köməkçisi Tariyel Ağayev bildirdi ki, Prezident mənimlə danışacaq. Təxminən bir dəqiqədən sonra dəstəkdən onun xarizmatik səsi gəldi: "İzvestiya" qəzetində çıxan materialı oxumusan?" – deyə soruşdu. "Xeyr, cənab Prezident", – deyə astaca cavab verdim. "Bəs, nə işlə məşğulsan? Oxu, mənimlə əlaqə saxla" deyərək dəstəyi asdı. Telefon əlimdə donub qaldım...

Bir qədər sonra AZTV sədrinin birbaşa telefonundan zəng gəldi: "Hazır ol, Prezident çağırır, gedirik". Bir gün əvvəl "Xəbərlər"də Azərbaycan dövlətçiliyinin müdafiəsi ilə bağlı gedən bir süjetdə yol verilən nöqsan mənə bəlli idi. Lakin günahkar mən deyildim. Səhvin müəllifi Prezident Aparatının yüksək vəzifəli bir şəxsi idi. Prezidentin bizi həmin məsələ ilə əlaqədar çağırdığının fərqinə vardım. Dövlət başçısının kabinetinə daxil olanda mənə veriləcək sualı necə cavablandıracağım barədə düşünmək halında belə deyildim. Lakin içəridə gedən qısa söhbətdən mənə aydın oldu ki, dövlət başçısı həmin nöqsanın haradan gəldiyini yaxşı bilir. O, Azərbaycanın milli maraqlarının, dövlətin və dövlətçiliyinin qorunmasında informasiyanın rolu barədə fikirlərini qısa formada bildirəndən sonra mənə "Sən get", – dedi. Bir daha əmin oldum ki, Prezident Heydər Əliyev əsas informasiya məkanının mətbəxini bütün incəliklərinə qədər bilir.

Oljas Süleymenovun bu fikirlərini xatırlayıram: "Vaxt gələcək, Şumer dövründən tutmuş zəmanəmizədək türklərin Bilqamıs ("Müdrik qəhrəman"), Bilgə xaqan ("Müdrik xaqan"), İltəriş ("Torpaqları birləşdirən"), Atatürk... kimi dahi adlara söykənən tarixi yazılacaq. Bizim zəmanəmiz Ustad titullu layiqli adlarla təmsil ediləcəkdir. Heydər Əlirza oğlu Əliyev belə Ustadların ən birincilərindəndir".

SSRİ-nin təcrübəsi göstərirdi ki, Siyasi Büronun və Mərkəzi Komitənin Baş katibinin "vurduğu" şəxs bir daha ayağa qalxa bilmir. Lakin böyük şəxsiyyət olan Heydər Əliyev bunun əksini sübut edə bildi. O nəinki ayağa qalxa bildi, həm də müstəqil Azərbaycan Respublikasına 10 il rəhbərlik etməklə ölkəsini də ayağa qaldırdı. Azərbaycanın müstəqilliyinə dönməz xarakter verərək onu etibarlı əllərə əmanət etdi.

***Səyyad AĞBABALI,***
***yazıçı-publisist***

# Xalqın ümid qapısı

## *Ulu öndər 16 yaşlı soydaşımızı erməni zindanından necə xilas etmişdi?*

**1 mart 1992-ci il. Gürcüstan, Batumi. Cənubi Qafqazın bu ölkəsi ilə Türkiyəni birləşdirən "Sarp" keçid qapısında rus sərhədçiləri 16 yaşlı azərbaycanlı yeniyetmə oğlanı saxlayırlar. Bir az sorğu-sualdan sonra üzərində heç bir sənədi olmayan gənci Batumidəki müvəqqəti təcridxana müəssisələrindən birinə gətirirlər.**



(16 yaşlı Vüqar Naxçıvanda)

Dövlət sərhədini təkbaşına, həm də şəxsiyyətini təsdiq edəcək heç bir sənədi olmadan keçməyə cəhd edən yeniyetmənin verilən suallara cavabı isə sadəcə belə olur: "Türkiyəyə gəzməyə gedirdim". Bu cavab isə əməliyyatçıları qane etmir. Üstündəki azacıq pulu da əlindən aldıqdan sonra onu 5 gün saxlayırlar. Təbii ki, hər gün saysız-hesabsız suallardavam edir. Orta məktəbə də doğru-dürüst getməyən Vüqarın burada yeganə köməyinə çatan, zəif də olsa, rus dilini bilməsi olur. Sonra onu Azərbaycana qaytarmaq adı ilə əvvəl Tbilisiyə gətirirlər. Sonra isə... qərəzkarlıqla sərhəddə erməni hərbçilərinə təhvil verirlər.

Oğlan əvvəlcə Ermənistan tərəfinə təhvil verildiyini anlamır. "Kalaşnikov"un qundağı ilə arxadan vurulan möhkəm zərbə ilə artıq o dəhşətli əsirlik günləri başlayır. Dəqiqəsi yox, saniyəsi ilə ölümünü gözlədiyi həmin günlər bu yeniyetmənin sağlamlığında, psixologiyasında dərin izlər qoyur. Necə deyərlər, hər gün ölüb-dirilir, amma ümidini itirmir. Hər günü bir ilə bərabər bu məşəqqətli, ağır günlərin sonunda – 28 mart 1992-ci ildə onu əsirlikdən Azərbaycan rəhbərliyi deyil, o vaxt ağır blokada şəraitində Naxçıvan Muxtar Respublikasına rəhbərlik edən ümummilli lider Heydər Əliyev xilas edir.



(Soldan: Vüqar Şükürlü, Səbuhi Həsənov)

**Bu hadisənin üstündən uzun zaman keçib. İndi 47 yaşı olan həmin soydaşımızla – Vüqar Şükürlü ilə Gəncədə görüşəndə ona verdiyim ilk sual bu oldu:** "Vüqar, o yaşda və sənədsiz-icazəsiz Türkiyəyə nəyə gedirdin?". Cavab 31 il əvvəlki kimi oldu: "Gəzməyə". Sonra bildirdi:

– O zaman Mingəçevirdə yaşayırdıq. Məni ərköyün böyütmüşdülər. Bir də görürdün aglıma gəzmək düşdü, deyirdim gedirəm Bakıya və ya Gəncəyə. Gedib bir-iki gün gəzib qayıdırdım evə. Türkiyəyə gedəcəyimi isə heç kimə deməmişdim, fikirləşmişdim ki, bunu evdəkilərə desəm, razı olmayacaqlar. Odur ki, beşon manat yol xərcini düzəldib sakitcə aradan çıxdım. Nəticəsi isə çox ağır oldu.

...Ötən əsrin 90-cı illərində Naxçıvan çox çətin günlərini yaşayırdı. Muxtar respublikanın sərhəd yaşayış məntəqələri mütəmadi olaraq erməni quldurlarının hücumuna məruz qalır, mavi qazın kəsilməsi, elektrik enerjisinin fasilələrlə verilməsi həyatı iflic vəziyyətinə gətirib çıxarmışdı. Mağazalarda yaranan çörək növbələri, ərzaq, yanacaq qıtlığı və üstəgəl Azərbaycan rəhbərliyinin Naxçıvana ögey münasibəti mövcud vəziyyəti daha da ağırlaşdırmışdı. Yeganə ümid yeri xalqımızın ümummilli lideri Heydər Əliyev idi.

1992-ci il mart ayının əvvəllərində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevə Dövlət Müdafiə Komitəsinin əks-kəşfiyyat şöbəsinin rəisi tərəfindən məxfi bir məlumat məruzə olunur. Məruzədə "Ümid" körpüsünün yaxınlığında gecə saatlarında əllərində böyük dağıdıcı gücə malik trotil və qurğunu işə salmaq üçün digər vasitələrin də olduğu iki naməlum şəxsin saxlanıldığı bildirilir. Ali Məclisin Sədri dərhal hərbi istintaq qrupuna əməliyyatın başlanılması üçün tapşırıq verir. Aydın olur ki, saxlanılaraq gətirilən hərbçilərdən biri rus, digəri isə erməni zabitidir. Aparılan sorğu-sualdan sonra həyata keçiriləcək plan da deşifrə olur: Naxçıvanla Türkiyə arasında tikilməkdə olan "Ümid" körpüsü partladılmalı imiş!

Bu hadisənin üstündən bir neçə gün keçdikdən sonra, martın 28-də ulu öndər Heydər Əliyev əməliyyat qrupunun rəhbərinə həmin rus hərbçisinin İrəvanda girovluqda saxlanılan 16 yaşlı yeniyetmə bir azərbaycanlı ilə günorta üstü dəyişdirilməsi ilə bağlı tapşırıq verir. Dərhal hazırlıq görülür və qrup yola düşür. Tezliklə, ulu öndərin daha bir xilaskarlıq əməli ilə azərbaycanlı yeniyetmə erməni əsarətindən xilas edilir.

**Vüqar o günləri belə xatırlayır:**

– Erməni əsirliyində 22 gün qaldım. Mart ayı olsa da, havalar soyuq keçirdi. Məni təkadamlıq kamerada saxlayırdılar. Kamera o qədər darısqal idi ki, yerdə ayaqlarım üstə ancaq otururdum, bəzən isə ayaqüstə qalmağa məcbur idim. Üst geyimlərimi də əlimdən almışdılar. Üzərimdə yalnız mayka və şalvar var idi. Hər gün çölə çıxarır, mən anlayım deyə Azərbaycan dilində söyərək var gücləri ilə döyürdülər. Hətta biri yorulduqdan sonra digəri döyməyə başlayırdı. Sonra isə taqətsiz halda sürüyüb içəri atır, üzərimə də vedrə ilə soyuq su tökürdülər.

Bir gün məni maşına mindirib harasa apardılar. Maşından endikdən sonra məni irəliyə ötürüb arxamca gəlməyə başladılar.. Bir az da getmişdim ki, gördüm qarşıdan gələn əsgərlərin biri ucadan dedi ki, qorxma bizik, Azərbaycana gəlirsən. Naxçıvanda olduğumu məni gətirən bu əsgərlərdən öyrəndim. Anladım ki, burada saxlanılan əsirlərdən biri ilə dəyişiblər. Həmin gün məni hərbi hospitaldan gələn həkimlər müayinə etdilər, vəziyyətimlə maraqlandılar, isti geyim və yemək verdilər.

Növbəti gün isə tanımadığım bir hərbçi ilə ulu öndər Heydər Əliyevin qəbulunda olduq. Bu böyük insan mənimlə səmimi, doğma övladı kimi söhbət etdi, ailəm haqqında soruşdu. Başıma gələnləri danışdım. Məni gətirən zabitə tapşırıq verdi ki, tibbi müayinədən keçirilsin, istirahət etsin, tezliklə evlərinə göndəriləcək.

O zaman ulu öndərin yeniyetmə bir azərbaycanlını erməni zindanında məhv olmaqdan xilas etməsi ölkəmizdə güclü bir əks-səda yaratmış, dastana çevrilmişdi. Ölkəmizin yaxınlaşmaqda olan fəlakətdən xilas edilməsi ilə bağlı bütün ümidlər də bax belə əməllərin timsalında Naxçıvana yönəlmişdi. Çox keçmədi ki, ümummilli lider Heydər Əliyev Azərbaycanı da məhv olmaqdan xilas etdi. Xilaskarlıq ulu öndərin tanrı tərəfindən verilmiş missiyası idi.

***Səbuhi HƏSƏNOV,***

**Naxçıvan–Gəncə–Naxçıvan**



# Ümummilli liderin 100 illik yubileyinə həsr olunmuş tədbir

**Dünən Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşü çərçivəsində Ulu öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş tədbir keçirilib.**

QH Əlaqələndirmə Bürosunun nazirlər görüşünə qatılan nümayəndə heyətlərinin rəhbərlərinin iştirakı ilə keçirilən tədbirdə xarici işlər naziri Ceyhun Bayramov cıxış edərək Ulu öndərin dövlətçiliyimizin əsasının qoyulması və qorunması istiqamətində çoxşaxəli və fədakar fəaliyyətindən geniş bəhs edib.

Türkiyənin xarici işlər naziri Hakan Fidan Türkiyə və Azərbaycan qardaşlığını "Bir millət, iki dövlət" kəlamı ilə təsvir edən dahi şəxsiyyətin Azərbaycan dövlətçiliyinin qorunması və möhkəmləndirilməsində müstəsna xidmətlərini xatırladıb.

Keçmiş Yuqoslaviya Sosialist Federativ Respublikasının sonuncu xarici işlər naziri, Qoşulmama Hərəkatının əsasının qoyulduğu Bandunq Konfransında şəxsən iştirak etmiş Budimir Lonçar xüsusi qonaq qismində Əlaqələndirmə Bürosunun nazirlər görüşünə dəvətə görə minnətdarlıq bildirib. Ümummilli lider Heydər Əliyevin Azərbaycanın iqtisadi və sosial inkişafı, onun region və dünya ölkələri ilə münasibətlərinin möhkəmləndirilməsi, habelə Azərbaycan Respublikasının beynəlxalq arenada nüfuzunun artırılmasında müstəsna rolu qeyd edilib.

Daha sonra iştirakçılar Ulu öndərin anadan olmasının 100 illiyinə həsr olunmuş videoçarxı izləyiblər.

***Q.QASIMOV, "Xalq qəzeti"***

# Peşəkar idman və tibb

**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş "Peşəkar idman və tibb" kitabının təqdimatı keçirilib.**

Kitabın müəllifləri olimpiya çempionu, Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının prorektoru Fərid Mansurov və Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunun şöbə müdiri, "Xarı Bülbül" Şuşa Voleybol klubunun prezidenti Fatma Hacıyevadır.




MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə çıxış edərək Azərbaycan tibbinin inkişafından və tibb elminin strukturunda idman təbabətinin yerindən bəhs edib. Kitabın müəllifləri - Fərid Mansurov, Fatma Hacıyeva idmanın tarixindən, cəmiyyətdəki mahiyyətindən, onun inkişafında tibbin rolundan danışıblar.

MOK-un Ədalətli Oyunlar Komissiyasının sədri Xəzər İsayev, Azərbaycan Respublikası Dövlət Elmi Tibb Kitabxanasının direktoru Yeganə Pirəliyeva, taekvondo üzrə Avropa və dünya çempionatlarının mükafatçısı Fəridə Əzizova və başqaları idmançıların sağlamlıq məsələlərinin, onlara göstərilən tibbi yardımın xüsusiyyətlərinin araşdırıldığı kitab haqda fikir bildiriblər.

# Azərbaycan – Qoşulmama Hərəkatı: İlham Əliyev liderliyi və beynəlxalq ədalət

## Ölkəmizin quruma sədrliyi hansı qlobal nəticələr doğurdu?



(əvvəli 1-ci səhifədə)

### Bəşəri sınaq

Yarımbaşlığı belə adlandırmağımız, heç də təsadüf deyil. Azərbaycanın QH-yə sədrliyi COVID-19 pandemiyası ilə üst-üstə düşdü. Bu durumda təşkilatın funksionallığını təmin etmək adi məsələ deyildi. Çünki koronavirus bəlası bəşəriyyətin indiyədək keçmədiyi yol idi. Həmin yolu necə getmək, bədbinlikləri və çarəsizlikləri yenərək, insanlıq üçün faydalı nəticələr əldə etmək, həqiqətən, böyük əzmkarlıq tələb edirdi.

Mövcud situasiyada ölkəmiz sədrlik gündəliyini yeni reallığa çevik və effektiv şəkildə uyğunlaşdırmağı bacardı. Prezident İlham Əliyevin təşəbbüsü ilə QH pandemiya ilə mübarizədə qlobal lider rolunu oynadı. Bu missiya dünya ictimaiyyətinin bəşəri təhdidlə mübarizədə səfərbərliyini təmin etdi. Mövcud istiqamətdəki ilk addım isə 2020-ci ilin mayında atıldı. Həmin il Hərəkat liderləri səviyyəsində COVID-19 ilə mübarizəyə həsr edilmiş onlayn sammit düzənlədi. Dövlətimizin başçısı mötəbər toplantıda BMT Baş Assambleyasının pandemiya ilə mübarizə ilə bağlı xüsusi sessiyasının keçirilməsini irəli sürdü. 150-dən çox ölkə tərəfindən dəstəklənmiş bu təşəbbüs 2020-ci ilin dekabrında baş tutdu. Xüsusi sessiyada dünyanın yetmişdən çox dövlət və hökumət başçısı çıxış etdi. Toplantı COVID-19 ilə mübarizəyə həsr olunmuş ən qlobal tədbir kimi yadda qaldı.

### Peyvənd millətçiliyinə qarşı mübarizə

Məsələ burasındadır ki, COVID-19 pandemiyası bəşəriyyət üçün ilk olduğundan, ona reaksiyalar müxtəlif idi. Belə təəssürat yaranırdı ki, hər bir dövlət ancaq özünü düşünür. Sanki dünyanın sonudur...

Əslində, pandemiya reallığı özünü mütərəqqi sayan, demokratizmi, humanist dəyərləri və prinsipləri təlqin və təbliğ etdiyini hayqıran bir çox dövlətlərin saxta mahiyyətini ortaya qoydu. Ümumən, təəssürat yarandı ki, insanlığın həmin vaxtadək keçdiyi yol, əldə etdiyi həyati normalar, çətinlik qarşısında məhv olma perspektivinə məhkumdur. Bu mənfi tendensiya özünü məhz peyvənd millətçiliyi zəminində göstərdi.

Azərbaycanın təşəbbüsü ilə Qoşulmama Hərəkatı tərəfindən BMT İnsan Hüquqları Şurasında, qurumun Baş Assambleyasında bütün ölkələrin peyvəndlərə bərabər yanaşması metodologiyası irəli sürüldü. Bu yanaşma peyvəndlər üçün məqbul qiyməti, vaxtında və universal əlçatanlığı hədəf seçdi. Mövcud amil BMT-nin sənədlərində də nəzərə alındı.

### Azərbaycanın töhfəsi

Ölkəmiz COVID-19 pandemiyasının tüğyan etdiyi mərhələdə qlobal səhiyyə böhranının aradan qaldırılmasına da öz dəstəyini göstərdi. Təsəvvür edin, özü də pandemiya ilə mübarizədə aparan, üstəlik Vətən müharibəsi kimi ağır sınaqdan çıxmış respublikamız, digər dövlətlərin ehtiyaclarını qarşılamağı düşündü. Azərbaycan, əksəriyyəti Qoşulmama Hərəkatının üzvləri olmaqla, 80-dən çox ölkəyə müxtəlif səpkili yardımlar göstərdi. Yəni, böyüklük etdik, QH-yə sədrliyin mənəvi haqqını verdik.

Həmin müddətdə Ümumdünya Səhiyyə Təşkilatına da yardım göstərən Azərbaycan quruma 10 milyon ABŞ dolları dəyərində könüllü maliyyə töhfəsi ayırdı. Bu, respublikamızın yardım alan ölkədən, fəal donora çevrilməsinin təsdiqi idi.

### Dünya beşdən böyükdür ...təşkilatlanma

Azərbaycan QH sədrliyi dövründə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın BMT tribunasından səsləndirdiyi "dünya beşdən böyükdür" fikrini əməli fəaliyyət müstəvisinə daşıdı. BMT "beşliyinə" qarşı Qoşulmama Hərəkatını alternativ kimi meydana çıxarmağa müvəffəq oldu. Prezident İlham Əliyev ölkəmizin 2019-cu ildə Hərəkatın sammitinə uğurla evsahibliyi etdiyi tədbirdə bildirdi ki, Azərbaycan öz sədrliyi dövründə beynəlxalq hüququ və ədaləti müdafiə edəcək, fəaliyyətini tarixi "Bandunq prinsipləri" üzərində quracaq. Dövlətimizin başçısı həmişəki kimi, sözünü tutdu və onun sədrliyi dövründə ölkəmiz beynəlxalq müstəvidə Hərəkat üzvlərinin ədalətli mövqeyini müdafiə etməklə də tarixə düşdü.

Azərbaycan digər təsisatlarla dialoqun qurulması və inkişafı, ümumən əməkdaşlıq coğrafiyasının genişləndirilməsinə yönələn sistemli və ardıcıl fəaliyyətə üstünlük verdi. Bu təşəbbüs ən az inkişaf etmiş, dənizə çıxışı olmayan kiçik ada ölkələrinin üzləşdikləri təhdidlərə xüsusi diqqətin ayrıldığı dialoq platformasının formalaşması baxımından əhəmiyyətli idi. Dünya həmin platforma üçün əməli töhfə nümunəsini Qoşulmama Hərəkatının 2023-cü ilin martında Bakıda keçirilmiş sammiti zamanı gördü. Azərbaycanın lideri sözügedən kateqoriyadan olan dövlətlərə və Afrika ölkələrinə pandemiyadan sonrakı bərpa məqsədilə Qlobal Çağırışlar elan etdi, hər iki Çağırışa 1 milyon ABŞ dolları vəsait ayırdı.

2021-ci ildə Belqradda Qoşulmama Hərəkatının 60 illiyinə həsr edilmiş Yüksək Səviyyəli Toplantı keçirildi. Prezident İlham Əliyev həmin tədbirdəki çıxışında Hərəkata üzv dövlətlərin təşkilatlanma ideyasını irəli sürməklə diqqət çəkdi. Nəticə etibarilə, qurumun parlament və gənclər şəbəkələrinin yaradılması işlərinə başlanıldı. 2022-ci ildə Şuşa razılaşması əsasında daimi katibliyi Bakıda yerləşməklə, Hərəkatın Gənclər Təşkilatı təsis olundu. Burada daha bir əlamətdar məqam Şuşanın adının QH-nin tarixinə düşməsidir.

Onu da diqqətə çatdıraq ki, 2021-ci ildə Prezident İlham Əliyev Belqradda Qoşulmama Hərəkatının 60 illiyinə həsr olunmuş Yüksək Səviyyəli Toplantıdakı çıxışında Serbiyada postpandemiya dövrünün müzakirəsi məsələlərindən söz açmış, bu məqsədlə QH-yə üzv ölkələrin yüksək səviyyəli görüşünün keçirilməsi təklif etmişdi. Həmin görüş ölkəmizdə təşkil olundu. QH-nin COVID-19-a cavab üzrə Təmas Qrupunun növbəti sammiti kimi rəsmiləşmiş tədbirdə başlıca mövzu pandemiyadan sonrakı dünya düzəni idi.

Bu sammiti Hərəkatın, belə demək mümkünsə, dünyaya açılımında müstəsna hadisə kimi dəyərləndirmək mümkündür. Belə rəyə gəlmək üçün tədbirdəki müzakirə mövzularına diqqət yetirək: beynəlxalq sülh və təhlükəsizlik, beynəlxalq hüququn işləməməsi, ədalətin bərqərar olmasının vacibliyi, Şərq-Qərb ziddiyyətləri, "soyuq müharibə" mentaliteti. Sammit, eyni zamanda, Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün səylərin gücləndirilməsi, ərzaq təhlükəsizliyi, su qıtlığı, iqlim dəyişikliyi kimi mühüm əhəmiyyət daşıyan məsələlərə də diqqət ayrılması baxımından yadda qaldı.

### Neokolonializmlə mübarizə

Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının sədri kimi vurğuladığı məsələlərdən biri də neokolonializmlə mübarizədir. Nəzərə alaq ki, Hərəkat dekolonizasiya mühitinin məhsulu kimi meydana çıxmış qurumdur. Yəni, QH-yə üzv dövlətlərin bir çoxu vaxtilə müstəmləkə siyasətindən əziyyət çəkiblər. Deməli, qurumun yeni müstəmləkəçilik meyillərinə qarşı barışmaz mövqe tutması şərtdir. Dövlətimizin başçısı da məhz buna görə bu ilin martındakı sammitdə məsələyə diqqət yetirdi. Prezident Fransanı Afrikada, Cənub-Şərqi Asiyada və digər ərazilərdə Qoşulmama Hərəkatının üzvü olan ölkələrə qarşı müstəmləkə keçmişinə, qanlı müstəmləkə cinayətlərinə, eləcə də soyqırımı aktlarına görə üzr istəməyə və məsuliyyətini etiraf etməyə çağırdı.

Azərbaycanın QH müstəvisində qoyduğu liderlik təməli o qədər möhkəmdir ki, vaxt gələcək, müstəmləkəçilik siyasətini həyata keçirmiş, Fransanın timsalında Afrika xalqlarına qarşı bəşəri cinayətlər, soyqırımları gerçəkləşdirmiş dövlətlər üzr istəməyə, günahlarına görə məsuliyyət daşımağa məcbur olacaqlar. Qurumun sürətlə dəyişən dünyada öz mövqeyini və yerini müəyyənləşdirən cəsarətli addımlar atması bu istiqamətdəki etibarlı təminatdır.

Əlbəttə, multirealizm nümunəsi olan Hərəkatın məqsədlərinə çatması heç də asan deyil. Nəzərə alaq ki, fərqli etnik, dini, mədəni köklərə, siyasi quruluşlara malik və 120 dövlətdən ibarət qurumun mürəkkəb birləşdirici təsisat kimi effektiv təsir mexanizmlərinə sahibliyi adi məsələ sayılmamalıdır. Ancaq Prezident İlham Əliyevin sədrliyi ilə oturuşmaqda olan struktur əldə etdiyi çevik keyfiyyətləri ilə nikbinlik doğurmaqdadır.

### Qoşulmama Hərəkatının faydaları

Azərbaycanın Qoşulmama Hərəkatına üzvlüyünün, daha sonra isə sədrliyinin ölkəmiz üçün müstəsna siyasi dividendləri var. Bu anlamda bir neçə məqamın üzərində dayanmaq mümkündür. Birincisi, ölkəmiz Hərəkatın timsalında özünün haqq səsini dünyaya bəyan edən, kifayət qədər ciddi platforma qazandı və ondan yetərincə faydalanmağı bacardı. Bu baxımdan 2021-ci ildə Azərbaycanın 155 ölkənin səsini əldə edərək, BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə seçilməsini diqqətə çatdırmaq mümkündür. Prosesin reallaşmasında QH ölkələrinin dəstəyi xüsusi vurğulanmalıdır.

İkincisi, QH ölkələrinin Azərbaycanın ədalətli mövqeyinə dəstəyi barədə də ayrıca söz açmağa ehtiyac var. Xüsusi dəstək 2020-ci ilin Vətən müharibəsi dövründə özünü göstərdi. Belə ki, savaş günlərində BMT Təhlükəsizlik Şurasında Azərbaycana qarşı irəli sürülmüş bəyanatın qarşısını yeddi QH ölkəsi böyük inamla aldı. Buna bənzər hadisə 2022-ci ildə də yaşandı. Yəni, QH ölkələrinin nümayiş etdirdikləri prinsipiallıq nəticəsində, beynəlxalq hüququn normaları fərqli interpretasiyaya və yozumlara məruz qalmadı, nəticədə Azərbaycanın ədalətli mövqeyi əməli dəstək qazandı. Bu amil Hərəkat üzvlərinin həm də etibarlı tərəfdaş obrazını canlandırdı.

Üçüncü məqamı vurğulayaq. Torpaqlarımızın işğaldan azad olunmasından sonra ölkəmizin yeni çağırışlarla – dağıntılarla, mina partlayışları ilə, ərazilərin bərpası məsələləri ilə, itkin düşmüş şəxslər problemləri ilə üzləşdi. Bu zaman da Azərbaycan QH-yə üzv dövlətlərin timsalında etibarlı tərəfdaşlar tapdı. Prezident İlham Əliyev Hərəkata üzv ölkələrin bir hissəsinin mina və partlamamış hərbi sursatlarla ən çox çirklənmiş ölkələr sırasında olduğunu nəzərə alaraq, Minaların Təsirinə Məruz Qalmış Ölkələrin Həmfikirlər Qrupunun yaradılması təklifi ilə çıxış etdi. Dövlət başçımızın bu təşəbbüsü də geniş dəstək qazandı.

Sonda onu da vurğulayaq ki, diqqətə çatdırdıqlarımız Azərbaycanın Qoşulmama Hərəkatındakı təmsilçiliyinin və quruma sədrliyinin dünya miqyaslı hadisə olduğunu söyləməyə əsas verən tarixi faktlardır. Elə bir faktlar ki, onların müstəqil dövlətçiliyimiz üçün əhəmiyyətinə üzərindən illər keçdikdən sonra daha düzgün qiymət vermək mümkün olacaq. Heç şübhəsiz, bu qiymətin məğzini güclü və qüdrətli Azərbaycan amili, cənab İlham Əliyevin şəxsində böyük lider obrazı təşkil edəcəkdir.

**Ə.RÜSTƏMOV,**
***"Xalq qəzeti"***

# Nazirlər İsveçdə Quranın yandırılmasını qətiyyətlə pisləyiblər



**İyulun 5-də Bakı Konqres Mərkəzində Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşü keçirilib.**

Tədbirdə çıxış edən Sudanın xarici işlər naziri Əli Əl-Sadiq Əli, Suriyanın xarici işlər naziri Feysəl Mekdad, İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahiyan, Qətərin xarici işlər üzrə dövlət naziri Sultan bin Saad Al-Mureyxi, Pakistanın xarici işlər naziri Məhdum Şah Mahmud Qureşi və digərləri Qoşulmama Hərəkatının əsasında "Banduq prinsipləri"nin dayandığını diqqətə çatdırıb. Bu prinsiplərin ölkələrin ərazi bütövlüyünü, sülhü, münaqişələrin sülh yolu ilə həllini, bərabərliyi təşviq etdiyini vurğulayıblar.

Nazirlər Qurban bayramının ilk günündə İsveçdə Qurani-Kərimin yandırılmasını qətiyyətlə pisləyiblər. Qeyd olunub ki, bu cür kriminal hərəkətlərə icazə verilməməli və kəskin şəkildə qınanmalıdır. Bu kimi islamofobiya hallarının təzahürlərinə qarşı daha fəal mübarizə aparmağın vacibliyi vurğulanıb.

Tədbirdə, həmçinin Qoşulmama Hərəkatının əhəmiyyəti və təşkilatın malik olduğu imkanlar qeyd edilib. Eyni zamanda, Qoşulmama Hərəkatının bir çox problemlərin həllində mühüm rol oynadığı bildirilib.

Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşü işini sabah davam etdirəcək.

# Fransanın yeni müstəmləkəçilik siyasəti qəbuledilməzdir

**Jan-Viktor KASTOR,**
**Fransa Milli Assambleyasının Fransız Qvianasından olan deputatı**



– Azərbaycana ilk dəfədir səfər edirəm. Burada ilk günlərim olmasına baxmayaraq, əminliklə deyə bilərəm ki, Bakı şəhəri Parislə müqayisədə çox təmiz, modern və gözəl şəhərdir. Qoşulmama Hərəkatının nazirlər görüşü Azərbaycanda çox gözəl təşkil olunub. Azərbaycan Prezidenti İlham Əliyev çıxışında Fransanın müstəmləkə siyasəti ilə bağlı danışdı, bu ölkənin müstəmləkələri ilə bağlı fikirlər söylədi. Bütün bunlar həqiqəti əks etdirir və biz də bunu təsdiqləyirik. Bizim ölkəmiz də Azərbaycan, Braziliya, Venesuela kimi neft və qaz ehtiyatına malikdir. Bütün bunlara baxmayaraq, Fransada olan qanunlara görə ölkəmiz təbii sərvətlərindən istifadə edə bilmir, əksinə, fransızlar onlardan yararlanır.

Torpaq bizimdir, lakin ölkəmizlə bağlı qərarlar Parisdə qəbul olunur. Fransanın Qvianada rəsmi nümayəndəsi var və bütün qərarlar onun tərəfindən verilir. Biz ölkəmizdə kollec, məktəb, bağça tikməyimiz üçün də Parisdən rəsmi olaraq icazə almalıyıq. Onların icazəsi olmadan təssüf ki, heç nə edə bilmirik.

Hər hansı bir qərara etiraz bildirilərkən Fransa Qvianarın qarşısını müxtəlif yollarla kəsir. Onlar bizi əsasən iqtisadi cəhətdən çökdürürlər. 2017-2022-ci illərdə Fransanın bu amansız siyasətinə görə Fransız Qvianasında yoxsul təbəqə 30 faizdən 54 faizədək artıb. İllər keçdikcə Fransa bizi hər bir sahədə daha da zəiflədir. Fransada son seçkilərdə Emannuel Makronun prezident seçilməsindən sonra hər kəs bilirdi ki, bu ölkə tənəzzülə doğru gedir. Makronun islahatları müsbət effekt vermədi. Bu gün Fransaya getsəniz görərsiniz ki, tələbələr, kasıb ailələr aşağı büdcəli yemək almaq üçün növbələr yaradır, uzun sıralar əmələ gətirirlər. Səhiyyə, təhsil və digər sahələrdə hər şey mənfiyə doğru gedir. Hazırda insanlar Parisdə üsyan edirlər. Fransa hazırda vaxtilə yürütdüyü müstəmləkə siyasətinin cəzasını çəkir. Bu gün orada baş verən hadisələr Fransa üçün "əkdiyini biçmə zamanı" olduğunu göstərir.

***

**Ella TOKORAQİ,**
**Tahiti nümayəndəsi**



Azərbaycan Prezidenti İlham Əliyevin iclasda çıxışı, səsləndirdiyi fikirlər səmimi idi. Fransa Prezidenti Emmanuel Makronda bu səmimiyyət yoxdur.

Hər şeydən öncə Azərbaycana dəvəti üçün təşəkkür edirəm. Buraya ilk gəlişimdir və çox gözəl qarşılandıq. Prezident İlham Əliyevin çıxışı zamanı Fransanın müstəmləkə siyasəti və bunun acı reallıqlarını mən bu gün öz ölkəmdə yaşayıram. 2 iyul 1966-cı ildə ilk dəfə Fransa Tahitidə ilk nüvə silahını sınaqdan keçirib. Bugünə qədər 193 sınaq həyata keçirilib. Təsəvvür edin bu sınaqlar ölkəmdə hansı problemlərə yol açıb. Bugün xəstə doğulan uşaqların hesabını itirmişik. Xalqımız xərçəng xəstəliyinin müxtəlif növləri ilə üz-üzədir. Fransanın müstəmləkəçilik siyasəti bu fəlakətlərə gətirib çıxarır.

***

**Xanım Maqalie TİNQAL,**
**Yeni Kaledoniyanın Sosialist və milli KANAK azadlığı cəbhəsinin BMT-dəki nümayəndəsi**



Yeni Kaledoniya xalqı adından Azərbaycan Prezidenti İlham Əliyevə bu gün səhərki bəyanatına görə təşəkkür etmək istərdim. Bu, çox güclü və çox doğru bəyanat idi.

Fransa çox ikiüzlüdür. Azərbaycan Prezidentinə bizim vəziyyətimizlə bağlı bəyanatına görə təşəkkür edirəm. Biz bu gün Yeni Kaledoniyada çox böyük problemlərlə üzləşirik. Yeni Kaledoniyanın müstəqilliyi ilə bağlı 2021-ci ilin 12 dekabrında keçirilmiş referendum pandemiya dövründə təsadüf etdi. Ona görə də biz bunun təxirə salınmasını istədik. Lakin Fransa referendumu saxladı, nəticədə Yeni Kaledoniya əhalisinin 57 faizi referendumda iştirak edə bilmədi. Fransanın bu referendumu saxlaması ikiüzlülükdür. Biz öz hüquqlarımız uğrunda mübarizə aparacağıq. Ona görə də bu məsələni Beynəlxalq Ədalət Məhkəməsində qaldıracağıq.

# Münasibətlərimiz strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib

**Gürcüstanda səfərdə olan Milli Məclisin deputatı, Azərbaycan-Gürcüstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Arzu Nağıyev və deputat Rauf Əliyev iyulun 5-də bu ölkə parlamentinin sədr müavini, Gürcüstan-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Arçil Talakvadze ilə görüşüblər.**

Arçil Talakvadze Gürcüstanın ərazi bütövlüyünü və Avropaya inteqrasiyasını dəstəklədiyinə görə Azərbaycan dövlətinə minnətdarlıq edib. Arzu Nağıyev deyib ki, Azərbaycan yaxın qonşu və dost Gürcüstanla əməkdaşlığın inkişafına xüsusi diqqət yetirir.

Bildirilib ki, Azərbaycan Prezidenti İlham Əliyev ilə Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin qarşılıqlı səfərləri və bu səfərlər zamanı imzalanmış sənədlər əlaqələrimizin daha da inkişafına xidmət edib. Bunun nəticəsində münasibətlərimiz strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

# Qarabağ və Şərqi Zəngəzurda məskunlaşmaya hərtərəfli dəstək



**Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar nəticəsində əldə edilən uğurlar insanların rifahının daha da yaxşılaşmasına, paytaxtın və bölgələrin simasının müasirləşməsinə, infrastrukturun yenilənməsinə müsbət təsir göstərir. Təbii ki, belə bir şəraitdə işğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi, bərpası da diqqət mərkəzində saxlanılır.**

Bununla bağlı dövlət tərəfindən zəruri addımlar atılır, investisiyalar müəyyənləşdirilir. Qarabağ və Şərqi Zəngəzurun bərpası və infrastrukturun yaradılması üçün dövlət büdcəsindən ayrılan vəsait ilbəil artırılır. Bu məqsəd üçün ötən illə müqayisədə cari il 13 faiz daha çox, yəni 3 milyard manat nəzərdə tutulması məsələnin prioritetliyindən xəbər verir.

Vətən müharibəsi başa çatandan dərhal sonra işğaldan azad edilən ərazilərdə bərpa layihələrinin icrasına başlanılıb. Həmin yaşayış sahələrində fiziki infrastrukturun böyük hissəsi artıq qurulub. Qarabağ və Şərqi Zəngəzur elektrik enerjisi ilə tam təmin edilib, bu iqtisadi rayonlar ölkənin vahid enerji şəbəkəsinə qoşulub.

Bundan başqa, region üçün mühüm önəm daşıyan Tərtər–Çaylı–Suqovuşan–Talış, Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yollarının (Zəfər yolu) və Laçın şəhərinə daxil olmadan yeni alternativ magistralın tikintisi artıq başa çatdırılıb. Digər yol infrastrukturunun qurulmasının 2026-cı ilin sonunadək başa çatdırılması planlaşdırılıb. Btün bunlarla bərabər, işğaldan azad olunan ərazilərin su ilə təminatı məqsədilə dövlət proqramında su anbarlarının, suvarma və paylayıcı kanalların, nasos stansiyalarının və digər su təsərrüfatı obyektlərinin mərhələli şəkildə təmiri, bərpası və yenilərinin tikintisinin 2026-cı ilin sonunadək yekunlaşdırılması nəzərdə tutulub.

Ötən müddətdə Böyük Qayıdış proqramı çərçivəsində keçmiş məcburi köçkünlərin məskunlaşdıqları yaşayış sahələrinin infrastruktur təminatının yaxşılaşdırılması və layiqli həyat şəraitinin yaradılması da diqqət mərkəzində saxlanılıb, elektrik, su, qaz, istilik təchizatı və kanalizasiya xidmətlərinin qurulması istiqamətində sistemli tədbirlər həyata keçirilib. Ərazilərdə zəruri rabitə infrastrukturu qurulmaqla mobil rabitə, radio-televiziya yayımı, xüsusi radiorabitə, internet, poçt və s. təşkil edilib. Xüsusilə də, həmin ərazilərdə kənd təsərrüfatı sahələrinin inkişafına xüsusi önəm verilib. Bu isə keçmiş məcburi köçkünlərin məşğulluğunun reallaşdırılması baxımından mühüm əhəmiyyətə malikdir. Bu məqamda onu da qeyd edək ki, erməni faşizminə qarşı aparılan müharibə parlaq qələbə ilə başa çatandan indiyədək düşmənin xarabalığa çevirdiyi ərazilərdə gerçəkləşdirilən bərpa və infrastruktur layihələrinin genişmiqyaslı xarakteri Azərbaycan dövlətinin iqtisadi qüdrətini aydın göstərir.

Qarabağ və Şərqi Zəngəzurda məskunlaşma prosesinin daha da sürətləndirilməsi məqsədilə hökumət bir sıra addımlar atıb. Məsələn, Nazirlər Kabinetinin 2002-ci il 22 avqust tarixli qərarına əsasən, işğaldan azad olunan ərazilərdə məskunlaşaraq işləyənlər və işəgötürənlər üçün stimullaşdırıcı mexanizmlər və eləcə də güzəştlərin tətbiqi nəzərdə tutulub. Həmin şəxslərə aylıq vəzifə maaşlarına əlavələr hesablanmaqla yanaşı, 600 manat birdəfəlik müavinət verilməsi, həmçinin hər il 5 gün əlavə məzuniyyət götürmək hüququna malik olmaları nəzərdə tutulub.

Artıq vurğulanan birdəfəlik müavinətlər verilir. Belə ki, peşə, orta ixtisas və ali təhsil müəssisəsini bitirən və son 5 il ərzində azı 2 il əmək stajı olan, eyni zamanda, işğaldan azad edilən ərazilərdə əmək müqaviləsi əsasında işləyən hər bir işçi həmin müavinəti ala bilir.

Yeni dəyişikliklərə əsasən, ödənilən sosial sığorta haqları dövlət büdcəsindən onlara geri qaytarılacaq, işçilərin isə fərdi hesablarında pensiya kapitalı toplanması, beləliklə, sosial sığorta stajları davam edəcək.

Erməni faşizmindən təmizlənən yaşayış sahələrində məskunlaşma prosesinin daha da sürətləndirilməsi məqsədi daşıyan digər bir yeniliyi də xatırladaq. Belə ki, "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Prezidentinin 10 dekabr 2021-ci il tarixli sərəncamına əsasən, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında iqtisadi resursların və əmək resurslarının səmərəli idarə olunması, onların emal sənayesinin və xidmət infrastrukturunun yaradılmasına yönəldilməsi məqsədilə vergi güzəştlərinin, sosial sığorta və digər güzəştlərin tətbiqi qərara alınıb.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

## Ekspert rəyi

**Emin BAĞIROV,**
**ETN Riyaziyyat və Mexanika İnstitutunun böyük elmi işçisi, mexanika üzrə fəlsəfə doktoru**



Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları müasir texnoloji təcrübəyə əsaslanan inzibati idarəçilik əsasında bərpa edilir. Bununla bağlı işğaldan təmizlənən yaşayış sahələrində Prezidentin xüsusi nümayəndəlik institutu tərəfindən üç ərazidə artıq rəqəmsallaşma, texnoloji inkişaf və idarəçilik modelləri uğurla həyata keçirilir.

Prezident İlham Əliyev ayrı-ayrı çıxışlarında işğal zamanı Ermənistanın Azərbaycan ərazilərində vandal əməllər törətməsini, yaşayış məntəqələrini, maddi-mədəni abidələri yer üzündən silməsini, həmçinin ermənilərin qanunsuz olaraq məskunlaşdıqları kəndlərin 30 il ərzində dağıdılmış vəziyyətdə saxlanılmasını vurğulayaraq, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında tikinti, abadlıq layihələrinin əsasən, ilk növbədə, o torpaqlarda məskunlaşmanın ləyaqətli icrasına yönəldildiyini bildirib. "Zəngilan hava limanı mühüm əhəmiyyətə malikdir, çünki yüklərin daşınması daha asan olacaq. Ola bilsin ki, bir gün Zəngilan hava limanının beynəlxalq uçuş əlaqələri olacaq. Niyə də olmasın? Bura Azərbaycanın ən gözəl yerlərindən biridir, çox gözəl təbiəti, təbii bulaqları, çayları, ağacları var. Biz bütün lazımi infrastrukturu yaradanda bura cənnətin bir parçası olacaq. Eyni zamanda, bura Ermənistan sərhədindən uzaqda deyil. Ona görə də sirr deyil ki, bu hava limanı, həmçinin təhlükəsizlik baxımından əhəmiyyət kəsb edəcək" – deyə, ölkə rəhbəri sözlərinə əlavə edib.

Zəngilan hava limanı hazırda Zəngəzur nəqliyyat dəhlizi üzərində yerləşən mühüm nəqliyyat mərkəzinə çevrilir. Bu rayonda dəmir yolunun tikintisi davam etdirilir, yaxın vaxtlarda Ermənistan sərhədinə çatacağı gözlənilir. Füzulidəki hava limanından da artıq həm yerli, həm də xarici qonaqlar tərəfindən fəal şəkildə istifadə olunur. Bununla bərabər, Laçında salınan hava limanının isə xüsusi əhəmiyyətə malik olacağı, bunun dağlıq relyefə malik olan Laçın və Kəlbəcərə gediş-gəlişi asanlaşdıracağı bildirilir.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yenidən qurulmasına ilk günlərdən həssaslıqla yanaşılır və bu, münasibət hazırda da davam etdirilir. Məsələn, 2023-cü ildə qarşıya qoyulan əsas vəzifələrdən başlıcası düşməndən təmizlənən ərazilərin bərpası, Böyük Qayıdışın təmin edilməsidir. Ölkəmizin maliyyə imkanlarının ildən-ilə artması Qarabağın dirçəldilməsinə, o torpaqlarda iqtisadi fəaliyyətin canlandırılmasına maliyyə xərclərinin daha da artırılmasına təminat verir.

Onu da xatırladım ki, Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması ilə bağlı xərclər "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də və 2022-2026-cı illər üçün nəzərdə tutulan Sosial İqtisadi İnkişaf Strategiyasında qeyd edilən vəzifələr çərçivəsində maliyyələşdirilir.

Bütün bunlarla bərabər, Qarabağda fəaliyyət göstərən rezidentlərdən 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətində mənfəət (gəlir), əmlak, torpaq və sadələşdirilmiş vergi tutulmaması qərara alınıb. Bununla yanaşı, işğalçıdan təmizlənən ərazinin rezidentləri tərəfindən istehsal fəaliyyəti sahələri üzrə xammal və materialların idxalının 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətində ƏDV-dən azad edilməsi və bir sıra digər güzəştlər nəzərdə tutulub.




## Səmərəli idarəetmə SOCAR-da yüksəlişə təkan verib

**SOCAR-ın İctimaiyyətlə əlaqələr və kommunikasiya xidmətinin yaydığı məlumata görə, şirkətin ümumi dövriyyəsi 2021-ci ilin müvafiq dövri ilə müqayisədə 53,8 faiz artaraq 119,23 milyard manata yüksəlib.**

Hesabat dövründə SOCAR-ın gəlirlərinin artmasına müəssisələrin daha səmərəli idarəedilməsi və inteqrasiyalı fəaliyyəti, rəqəmsal enerji texnologiyalarının yaratdığı əlavə dəyər, həmçinin dünya bazarında neft, qaz və neft-kimya məhsullarının qiymətlərinin yüksəlməsi səbəb olub.

Qlobal enerji bazarlarında müşahidə edilən kəskin rəqabət mühitinə və neft-kimya sənayesində gəlir marjalarının azalmasına baxmayaraq, inteqrasiyalı fəaliyyət nəticəsində yaradılan güclü sinerji ilə STAR neft emalı zavodunda istehsal potensialından istifadə əmsalı 113 faizə yüksəlib, Petkim müəssisəsinin ümumi dövriyyəsi isə 70,3 faiz artıb. Bununla yanaşı, "SOCAR Karbamid" zavodunun ümumi istehsal həcmi və ixrac gəlirləri müvafiq olaraq 51,2 faiz və 75,9 faiz yüksəlib. Emal və neft kimya müəssisələrinin vahid mərkəzdən idarəedilməsi əməliyyat effektivliyinin, nəticədə gəlirlərin yüksəlməsinə təsir göstərib.

***"Xalq qəzeti"***

# Avtomobil nəqliyyatı ilə daşımalar çoxalıb

### *Yüklərin 55,6 faizi bu sahənin payına düşür*

**2023-cü ilin yanvar-may aylarında Azərbaycanda avtomobil nəqliyyatı ilə 50,5 milyon ton yük daşınıb. Bu da ölkə üzrə ümumi yük daşımalarının 55,6 faizini təşkil edib.**



Dövlət Statistika Komitəsinin məlumatına görə, avtonəqliyyatla yük daşımaları əvvəlki ilin yanvar-may ayları ilə müqayisədə 5 faiz artıb. İlin ilk 5 ayında özəl sektorda avtonəqliyyatla yük daşımaları 5,3 faiz artıb. Bütövlükdə isə, hesabat dövründə bütün yük daşımaların 76,5 faizi özəl sektorun payına düşüb.

Yanvar-may aylarında avtomobil nəqliyyatı ilə 647,4 milyon nəfər sərnişin daşınıb ki, bu da ötən ilin analoji dövrünün göstəricisindən 19,8 faiz çoxdur. Qeyd olunan dövrdə avtobusla 95,6 faiz, taksi və digər özəl daşıyıcılarla isə 4,6 faiz sərnişin daşınıb. Bundan əlavə, ilin ilk 5 ayında Bakı metropoliteninin xidmətlərindən 91,8 milyon nəfər istifadə edib. Bu sahədə 12,4 faiz artım qeydə alınıb.

Bütövlükdə isə, 2023-cü ilin yanvar-may aylarında Azərbaycanda bütün nəqliyyat növləri ilə 90,9 milyon ton yük və 742,8 milyon nəfər sərnişin daşınıb. Bu da 2022-ci ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 6,8 faiz və 19 faiz çoxdur.

***"Xalq qəzeti"***

**2023-cü ilin yanvar-may ayları ərzində Azərbaycanın ümumi ixracı 16,1 milyard dollar, qeyri-neft sektoru üzrə ixrac isə 1,5 milyard dollar təşkil edib. Bu və digər məsələlər barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin təqdim etdiyi "İxrac icmalı"nın iyun sayında ətraflı məlumat verilib.**

# İxracatda qeyri-neft məhsullarının çəkisi artır

### *5 ayda bu sektor xaricə 1,5 milyardlıq mal göndərib*



Azərbaycanda ümumi iqtisadi artımın əsas hissəsi ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanmış neft strategiyasının uğurlu nəticələri hesabına təmin olunsa da, son illər qeyri-neft sektoru üzrə də xüsusi fəallıq nəzərə çarpır. Bu da Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin məntiqi nəticəsidir. Müqayisə üçün qeyd edək ki, 2010-cu ildə ölkəmizin qeyri-neft sektorunda 18,4 milyon manatlıq məhsul istehsal olunduğu halda, 2022-ci ildə bu göstərici 69,8 milyard manat təşkil edib.

Bu sahədə artım cari ilin ötən dövründə də müşahidə olunub. Ölkənin qeyri-neft sahələrinin inkişaf etdirilməsinin uğurlu nəticələri isə ixracda da özünü qabarıq şəkildə büruzə verir. "İxrac icmalı"nın məlumatına əsasən, 2023-cü ilin yanvar-may aylarında qeyri-neft sektoru üzrə ixrac əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 22,1 faiz artıb. Hesabat dövrü ərzində yeyinti məhsulları üzrə ixrac 334,4 milyon dollara bərabər olub. Qeyri-neft ixracının strukturunda spirtli və spirtsiz içkilərin payı 5,9 dəfə, şəkər 43,8 faiz, meyvə-tərəvəz isə 10,4 faiz artıb.

Cari ilin yanvar-may ayları ərzində ölkənin aqrar və aqrar-sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri 16,9 faiz artaraq 349,1 milyon dollar təşkil edib. Yeri gəlmişkən, qeyri-neft-qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər ötən ilin müvafiq dövrü ilə müqayisədə 55,8 faiz artaraq 92,2 milyon dollara çatıb. Qeyd edək ki, 2023-cü ilin yanvar-may ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında elektrik enerjisi (313,9 milyon dollar) birinci olub. Bu siyahıda pomidor (tomat) (91,5 milyon dollar) ikinci, ilkin formalı polipropilen (57,2 milyon dollar) isə üçüncü yerdə qərarlaşıb.

"İxrac icmalı" sözügedən dövrdə Azərbaycanın ən çox qeyri-neft məhsulları ixrac etdiyi ölkələrin siyahısını da açıqlayıb. Belə ki, yanvar-may ayları ərzində ölkəmizdən qardaş Türkiyəyə 464,6 milyon dollar, Rusiyaya 404 milyon dollar, Gürcüstana 161,2 milyon dollar, İsveçrəyə 53 milyon dollar, Qazaxıstana isə 47,7 milyon dollar dəyərində qeyri-neft sektoruna aid mallar ixrac olunub.

Nəşrin məlumatında may ayının qeyri-neft ixracı üzrə göstəricilər barədə də ayrıca məlumat verilir. Bildirilir ki, bu ilin mayında Azərbaycandan dünya bazarlarına 278,2 milyon dollarlıq qeyri-neft məhsulları ixrac olunub. Bunun da 98,2 milyon dolları yeyinti məhsullarının, 180 milyon dolları isə qeyri-yeyinti məhsullarının payına düşüb.

Hesabat ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya (118,8 milyon ABŞ dolları) birinciliyə yüksəlib. Bu göstərici üzrə ilk üçlüyü isə Türkiyə (59,2 milyon ABŞ dolları) və Gürcüstan (18,6 milyon ABŞ dolları) tamamlayıb.

Son illər Azərbaycanın kənd təsərrüfatı sektorunda yaradılmış məhsul bolluğu daxili bazarın tələbatını ödəməklə yanaşı, ölkənin ixrac potensialının artmasına da mühüm töhfələr verir. Bu baxımdan əsas bitkiçilik məhsullarından sayılan pomidor və kartofu xüsusi qeyd etmək olar. Elə cari ilin may ayında ölkəmizdən ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında adıçəkilən məhsulların üstünlük təşkil etməsi də bunu təsdiqləyir. Xatırladaq ki, hesabat dövründə Azərbaycandan 37,3 milyon dollarlıq pomidor (tomat) və 19,9 milyon dollarlıq kartof ixrac edilib. May ayında qeyri-neft sektoruna aid malların siyahısında daş kömür qatranının yüksək temperaturlu qovulmanın təmizlənməmiş digər yüngül yağları və məhsulları (17,1 milyon dollar) üçüncü yerdə qərarlaşıb.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin təqdim etdiyi aylıq icmalda, həmçinin qeyri-neft sektoru üzrə cari ilin yanvar-may aylarında həyata keçirilmiş ixracla bağlı həm qeyri-dövlət, həm də dövlətə məxsus ixracatçı subyektlərin reytinqi təqdim olunub. Hesabat dövrü üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində "MKT İstehsalat Kommersiya" MMC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, "Baku Steel Company" QSC, "Best Logistik" MMC, "STP Global Cable" MMC, Şirinov Elvin Valeh oğlu, "My Fruit" MMC, "Lexus-Bakı" MMC, "P-Aqro" MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC ilk onluqda qərarlaşıb.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısında isə birinci yer "Azərenerji" ASC-yə məxsus olub. Siyahıda sonrakı yerləri ARDNŞ-in "Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi, "Socar Polymer" MMC, "Azəralüminium" MMC, "AzerGold" QSC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan Hava Yolları" QSC, "Azərbaycan Dəmir Yolları" QSC, "Azəripək" MMC, "ASK Tütün" MMC tutublar.

"İxrac icmalı"nın məlumatında Azərbaycanın 2023-cü ilin yanvar-may aylarında peyk telekommunikasiya xidmətləri sahəsindəki uğurları ilə bağlı yığcam məlumat da yer alıb. Qeyd olunub ki, hesabat dövründə Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos) tərəfindən dünyanın 42 ölkəsinə 7,8 milyon ABŞ dolları dəyərində peyk telekommunikasiya xidmətləri ixrac edilib. "Azərkosmos"un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 77 faizini təşkil edib. May ayında isə "Azərkosmos" dünyanın 40 ölkəsinə 1,6 milyon ABŞ dolları dəyərində xidmət ixrac edib.

Cari ilin yanvar-may ayları ərzində peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində 2,2 milyon ABŞ dolları ilə Birləşmiş Krallıq, 1,7 milyon ABŞ dolları ilə Lüksemburq, 689,8 min ABŞ dolları ilə Birləşmiş Ərəb Əmirlikləri, 430,8 min ABŞ dolları ilə Almaniya və 363 min ABŞ dolları ilə Pakistan qərarlaşıb.

Nəşrin məlumatına görə, bu ilin 5 ayında banklara məxsus ödəniş xidməti şəbəkəsində digər qeyri-rezident maliyyə institutlarının emissiya etdiyi ödəniş kartları ilə 851,3 milyon manat, may ayında isə 173,4 milyon manat dəyərində əməliyyat aparılıb.

Göründüyü kimi, son illər ölkəmizdə qəbul olunmuş məqsədli dövlət proqramları, əlverişli biznes mühiti, eləcə də uğurlu şaxələndirmə siyasəti qeyri-neft sektorunun inkişafını sürətləndirir. Bu da öz növbəsində ixracın strukturunda qeyri-neft mallarının payının getdikcə artmasına imkan yaradır.

***Mirbağır YAQUBZADƏ,***
***"Xalq qəzeti"***

# Qarabağda çalışmaq istəyənlərin 70 faizi yerli sahibkardır

**Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən (KOBİA) verilən məlumatına əsasən, bugünədək işğaldan azad edilmiş ərazilərdə biznes qurmaq və investisiya yatırmaq istəyən sahibkarlardan KOBİA-ya 1500-ə yaxın müraciət daxil olub ki, onlardan 70 faizi yerli biznes subyektlərinin müraciətləridir.**



Agentlikdən eyni zamanda qeyd edilib ki, KOB-ların maliyyə imkanlarının yaxşılaşdırılmasına dəstək məqsədilə onların təhsil, elm, tədqiqat və dəstək istiqamətlərində layihələrinin maliyyələşdirilməsi mexanizmi çərçivəsində indiyədək 39 KOB subyektinə 750 min manatdan çox qrant vəsaiti verilib.

***"Xalq qəzeti"***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 214** **Bakı şəhəri, 25 iyun 2023-cü il**

***“Müayinənin və texniki xidmətin həyata keçirilməsinə monitorinqin keçirilməsi qaydası”nın təsdiq edilməsi haqqında***

“Qaz təchizatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 25 fevral tarixli 486-VIQD nömrəli Qanununun tətbiqi və “Qaz təchizatı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 aprel tarixli 1658 nömrəli Fərmanının 2.2.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Müayinənin və texniki xidmətin həyata keçirilməsinə monitorinqin keçirilməsi qaydası” təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 215** **Bakı şəhəri, 25 iyun 2023-cü il**

***“Qaz paylayıcısı tərəfindən qaz qurğularında, qaz xətlərində və tüstü bacalarında, habelə havalandırma və havadəyişmə xətlərində müayinənin keçirilməsi qaydası”nın təsdiq edilməsi haqqında***

“Qaz təchizatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 25 fevral tarixli 486-VIQD nömrəli Qanununun tətbiqi və “Qaz təchizatı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 aprel tarixli 1658 nömrəli Fərmanının 2.2.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** “Qaz paylayıcısı tərəfindən qaz qurğularında, qaz xətlərində və tüstü bacalarında, habelə havalandırma və havadəyişmə xətlərində müayinənin keçirilməsi qaydası” təsdiq edilsin (əlavə olunur).

**2** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 216** **Bakı şəhəri, 25 iyun 2023-cü il**

***“Müayinə və texniki xidmət məlumatları üzrə reyestrin aparılması və ondan istifadə qaydası”nın təsdiq edilməsi haqqında***

“Qaz təchizatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 25 fevral tarixli 486-VIQD nömrəli Qanununun tətbiqi və “Qaz təchizatı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 aprel tarixli 1658 nömrəli Fərmanının 2.2.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Müayinə və texniki xidmət məlumatları üzrə reyestrin aparılması və ondan istifadə qaydası” təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 217** **Bakı şəhəri, 25 iyun 2023-cü il**

***“İxtisaslaşmış podratçılara verilən ixtisas attestatının forması, onun verilməsi, qüvvədəolma müddətinin dayandırılması və ya ləğv edilməsi, eləcə də ixtisaslaşmış podratçıların reyestrinin aparılması və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi qaydası”nın təsdiq edilməsi haqqında***

“Qaz təchizatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 25 fevral tarixli 486-VIQD nömrəli Qanununun tətbiqi və “Qaz təchizatı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 aprel tarixli 1658 nömrəli Fərmanının 2.2.4-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “İxtisaslaşmış podratçılara verilən ixtisas attestatının forması, onun verilməsi, qüvvədəolma müddətinin dayandırılması və ya ləğv edilməsi, eləcə də ixtisaslaşmış podratçıların reyestrinin aparılması və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi qaydası” təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 218** **Bakı şəhəri, 25 iyun 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 80 nömrəli Qərarı ilə təsdiq edilmiş “Qazdan istifadə Qaydaları”nda dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 80 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 5, maddə 452; 2012, № 2, maddə 184; 2013, № 6, maddə 744; 2014, № 1, maddə 69; 2016, № 4, maddə 834; 2017, № 6, maddə 1228, № 10, maddə 1876; 2018, № 6, maddə 1379, № 8, maddə 1817, № 11, maddə 2461; 2022, № 2, maddələr 168, 188, № 4, maddə 373, № 8, maddə 966) ilə təsdiq edilmiş “Qazdan istifadə Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1.2-ci bənd üzrə:

1.1. ikinci abzasda “hüquqi şəxs” sözləri “Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin “Azəriqaz” İstehsalat Birliyi və Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Qaz İstismar Xidməti” sözləri ilə əvəz edilsin;

1.2. dördüncü abzasdan “istilik enerjisinin alınması və məişət ehtiyacları üçün” sözləri çıxarılsın;

1.3. beşinci abzasdan “əhalinin” sözü və “qazın yanacaq kimi istehlakı prosesində” sözləri çıxarılsın;

1.4. altıncı abzasda “, istilik enerjisinin alınması və məişət ehtiyacları üçün qazın yanacaq və müxtəlif növ məhsulların istehsalı ilə əlaqədar xammal kimi istehlakı prosesində” sözləri “və ya qeyri-məişət ehtiyacları üçün” sözləri ilə əvəz edilsin;

1.5. on ikinci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda on üçüncü-on yeddinci abzaslar əlavə edilsin:

“müayinə – istehlakçının qaz qurğularının və qaz xətlərinin, tüstü bacalarının, habelə havalandırma və havadəyişmə xətlərinin işçi vəziyyətdə olmasının və texniki təhlükəsizlik tələblərinə riayət olunması vəziyyətinin müəyyən edilməsi, o cümlədən nöqsan və (və ya) pozuntuların aşkar edilməsi məqsədilə həyata keçirilən fəaliyyət;

texniki xidmət – istehlakçının qaz qurğularının və balans mənsubiyyəti sərhədində yerləşən qaz xətlərinin (bundan sonra – qaz qurğularının və qaz xətlərinin), tüstü bacalarının, habelə havalan-dırma və havadəyişmə xətlərinin təhlükəsiz və etibarlı istismarının təmin olunması məqsədilə müayinə aktı üzrə aşkar edilmiş nöqsan və (və ya) pozuntuların aradan qaldırılması məqsədilə həyata keçirilən təmir və digər əlaqədar xidmət işləri;

tüstü bacası – yanma məhsullarının (tüstü qazlarının) qaz qurğularından sorularaq atmosferə atılmasını təmin edən boru;

məişət abonenti – yaşayış evlərində və mənzillərdə, o cümlədən Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 91-ci maddəsində nəzərdə tutulan xüsusi təyinatlı yaşayış sahələrində məişət ehtiyacları üçün qazdan istifadə edən fiziki şəxs;

ixtisaslaşmış podratçı – işçiləri “Qaz təchizatı haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ixtisas attestatı alan, texniki xidməti həyata keçirən hüquqi şəxs və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs.”;

1.6. aşağıdakı məzmunda 1.7-ci bənd əlavə edilsin:

“1.7. Tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulması və ya əlavə qaz həcmi alması qaydası Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.”.

**2.** 2-ci hissə üzrə:

2.1. adından “qazpaylayıcı şəbəkəyə qoşulması, istismara qəbulu və” sözləri çıxarılsın;

2.2. 2.1-2.5-ci bəndlər ləğv edilsin;

2.3. 2.7-ci və 2.8-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

“2.7. Qaz paylayıcısı tərəfindən “Qaz təchizatı haqqında” Azərbaycan Respublikası Qanununun 6-2-ci maddəsinə uyğun olaraq ildə 1 (bir) dəfə (hər il noyabrın 1-dək) müayinə həyata keçirilir. Müayinə zamanı aşkar edilmiş nöqsan və (və ya) pozuntuların aradan qaldırılması məqsədilə “Qaz təchizatı haqqında” Azərbaycan Respublikası Qanununun 6-3-cü maddəsinə uyğun olaraq texniki xidmət həyata keçirilir.

2.8. Qaz paylayıcısının işçiləri tərəfindən istehlakçıya 5 (beş) iş günü əvvəl sifarişli poçt göndərişi və ya istehlakçının əvvəlcədən razılığı ilə elektron poçt və ya digər elektron kommunikasiya vasitələri ilə bildiriş təqdim edildikdə (göndərildikdə), istehlakçı qaz paylayı-cısının işçilərinin xidməti vəsiqələrini təqdim etdikləri təqdirdə müayinə keçirilməsi üçün onun mülkiyyətində və ya istifadəsində olan tikinti obyektinə daxil olmasına maneə törətməməli və müayinənin keçirilməsinə şərait yaratmalıdırlar.”;

2.4. 2.10-cu bənddə “sənaye qaz qurğularına” sözləri “qaz qurğularının müayinəsi və ona nəzarət” sözləri ilə, “texniki baxış” sözləri “həyata” sözü ilə əvəz edilsin;

2.5. 2.11-ci bənd aşağıdakı redaksiyada verilsin:

“2.11. Qaz paylayıcısının işçiləri müayinənin nəticəsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi formada 2 (iki) nüsxədə müayinə aktını istehlakçının (və ya onun səlahiyyətli nümayəndəsinin, yaxud yetkinlik yaşına çatmış ailə üzvlərindən birinin) iştirakı ilə tərtib etməli və aktın 1 (bir) nüsxəsini istehlakçıya (və ya onun səlahiyyətli nümayəndəsinə, yaxud eyni ünvanda yaşayan yetkinlik yaşına çatmış ailə üzvlərindən birinə) təqdim etməlidir. İstehlakçı tərəfindən qaz qurğuları, qaz xətləri və tüstü bacalarında, habelə havalandırma və havadəyişmə xətlərində nöqsan və (və ya) pozuntular aşkar edildikdə istehlakçının müraciəti əsasında təkrar müayinə qaz paylayıcısı tərəfindən 3 (üç) iş günündən gec olmayaraq aparılmalıdır. İstehlakçı təkrar müayinə üçün il ərzində 1 (bir) dəfədən çox müraciət edərsə növbəti müayinə ödənişli keçirilir. Ödənişin məbləği qaz paylayıcısı ilə istehlakçı arasında bağlanmış müqavilə ilə müəyyən edilir. Müayinə nəticəsində texniki xidmətin göstərilməsi zərurəti yarandıqda, “Qaz təchizatı haqqında” Azərbaycan Respublikası Qanununun 6-3-cü maddəsi ilə müəyyən edilmiş tədbirlər görülməlidir.”;

2.6. 2.11-2-ci bənddə “sayğacdan kənar paylayıcı şəbəkəyə qanunsuz qoşulma (qaz paylayıcısının razılığı olmadan paylayıcı şəbəkəyə qoşulma)” sözləri “qaz paylayıcısının razılığı olmadan qazpaylayıcı şəbəkəyə sayğacdan kənar qoşulma (bundan sonra – qanunsuz qoşulma)” sözləri ilə əvəz edilsin.

**3.** 3-cü hissə üzrə:

3.1. 3.1.7-ci yarımbənddə “qaldırmalıdır” sözü “qaldırmalı” sözü ilə əvəz olunsun, həmin yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 3.1.8-3.1.11-ci yarımbəndlər əlavə edilsin:

“3.1.8. “Qaz təchizatı haqqında” Azərbaycan Respublikası Qanununun 6-2-ci maddəsinə uyğun olaraq müayinəni həyata keçirməli;

3.1.9. qazpaylayıcı şəbəkəyə texniki xidməti həyata keçirməli;

3.1.10. bu Qaydaların 2.11-1-ci və 2.11-2-ci bəndlərinin tələbləri nəzərə alınmaqla istehlakçıların qaz sayğaclarının işlək və toxunulmaz vəziyyətdə olmasını müəyyən etmək məqsədilə yaşayış sahələrinin daxilində quraşdırılmış qaz sayğaclarına 6 (altı) ayda 1 (bir) dəfə, digər qaz sayğaclarına isə 3 (üç) ayda 1 (bir) dəfə onlara baxış keçirməli, nəticəsini aktla rəsmiləşdirməli və aktın 1 (bir) nüsxəsini istehlakçıya təqdim etməlidir;

3.1.11. qazpaylayıcı şəbəkəyə qanunsuz qoşulma hallarının qarşısının alınması məqsədilə qaz paylayıcısı tərəfindən müəyyən edilən, lakin bu Qaydaların 3.1.10-cu yarımbəndində nəzərdə tutulan qaydada və müddətlərdə şəbəkəyə baxış keçirməli və nəticəsini aktla rəsmiləşdirməlidir.”;

3.2. 3.2.3-cü, 3.2.11-ci və 3.4.6-cı yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

“3.2.3. qaz paylayıcısının işçiləri tərəfindən tərtib edilmiş müayinə aktında qeyd olunmuş nöqsan və (və ya) pozuntuların aradan qaldırılması üçün “Qaz təchizatı haqqında” Azərbaycan Respublikası Qanununun 6-2-ci və 6-3-cü maddələrinin tələblərini yerinə yetirməli;

3.2.11. qaz paylayıcısının işçilərinin müayinə keçirilməsi üçün onun mülkiyyətində və ya istifadəsində olan tikinti obyektinə maneəsiz daxil olmasına və ya müayinənin keçirilməsinə şərait yaratmalı;

3.4.6. “Qaz təchizatı haqqında” Azərbaycan Respublikası Qanununun 6-3-cü maddəsinə uyğun olaraq tüstü bacalarına, habelə havalandırma və havadəyişmə xətlərinə həyata keçirilməli olan texniki xidmətin keçirilməsini təmin etmədən qazdan istifadə etmək;”;

3.3. 3.5-ci bənddə “Yaşayış binasında mənzillərin hissəsi olmayan və binada birdən artıq mənzilə xidmət etmək üçün nəzərdə tutulmuş obyektlərə (çoxmənzilli binanın ümumi əmlakı) münasibətdə mənzil mülkiyyətçiləri (bina mənzil mülkiyyətçiləri tərəfindən bilavasitə idarə edildikdə), mənzil mülkiyyətçiləri müştərək cəmiyyəti və ya ixtisaslaşmış istehlak kooperativi, idarəedici təşkilat” sözləri “Yaşayış binalarının mənzil mülkiyyətçiləri (bina mənzil mülkiyyətçiləri tərəfindən bilavasitə idarə edildikdə), mənzil mülkiyyətçiləri müştərək cəmiyyəti, ixtisaslaşmış istehlak kooperativi, binanı idarə edən hüquqi şəxs və fərdi sahibkar (idarəedici təşkilat), habelə digər qazlaşdırılmış tikinti obyektlərinin (yaşayış evləri istisna olmaqla) mülkiyyətçiləri (istifadəçiləri)” sözləri ilə əvəz edilsin;

3.4. 3.5.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

“3.5.3. binanın tüstü bacalarına, habelə havalandırma və havadəyişmə xətlərinə ildə 1 (bir) dəfə (hər il iyulun 1-dək) texniki xidmətin həyata keçirilməsini təmin etməli və ixtisaslaşmış podratçı və ya məişət abonenti olmayan istehlakçının müvafiq ixtisaslı işçi heyəti tərəfindən “Qaz təchizatı haqqında” Azərbaycan Respublikası Qanununun 6-3-cü maddəsinin 6-cı hissəsinə uyğun olaraq texniki xidmətin nəticəsi barədə akt tərtib edilməli və həmin aktın 1 (bir) nüsxəsini müayinə və texniki xidmət məlumatları üzrə reyestrə daxil edilməsi üçün qaz paylayıcısına təqdim etməli;”;

3.5. 3.5.4-cü yarımbənd ləğv edilsin.

**4.** 4.2-ci bənddə “Məişət qaz qurğularının istifadəsi üçün qaz sayğacı qaz paylayıcısının vəsaiti hesabına, sənaye qaz qurğularının istifadəsi” sözləri “Məişət qaz qurğularını istifadə edən məişət abonentləri üçün qaz sayğacı qaz paylayıcısının vəsaiti hesabına, digər istehlakçılar” sözləri ilə əvəz edilsin.

**5.** 5.2-ci bəndin birinci abzası aşağıdakı redaksiyada verilsin:

“Bu Qaydaların 5.4-cü, 6.5-ci, 6.5-2-ci və 6.5-3-cü bəndlərində nəzərdə tutulmuş hallar istisna olmaqla, qaz paylayıcısı istehlakçıya verdiyi qazın dəyərini qaz sayğacının göstəricilərinə əsasən hər ay üzrə hesablamalı və növbəti ayın 10-dək istehlakçıya bu barədə məlumat (hesab) təqdim etməlidir (göndərməlidir). “Smart-kart” tipli qaz sayğacı olan istehlakçıya istifadə etdiyi qazın dəyəri haqqında hesabın qaz paylayıcısı tərəfindən təqdim edilməsi (göndərilməsi) tələb olunmur. İstehlakçının istehlak etdiyi qazın dəyəri tam ödənildikdən sonra qaz paylayıcısı tərəfindən yol verilmiş səhvə görə düzgün hesablanmamış qazın dəyərinin istehlakçı tərəfindən ödənilməsi tələb edilə bilməz.”.

**6.** 6-cı hissə üzrə:

6.1. 6.1-ci bənddə “dayandıra bilər” sözləri “dayandırır” sözü ilə əvəz edilsin;

6.2. 6.1.5-1-ci, 6.1.5-2-ci yarımbəndlər və 6.5-ci bənd aşağıdakı redaksiyada verilsin:

“6.1.5-1. istehlakçı qaz paylayıcısının işçilərini müayinə keçirilməsi üçün onun mülkiyyətində və ya istifadəsində olan tikinti obyektinə daxil olmasına maneə törətdikdə və ya müayinənin keçirilməsinə şərait yaratmadıqda;

6.1.5-2. istehlakçı qaz paylayıcısının işçiləri tərəfindən tərtib edilmiş müayinə aktında qeyd olunmuş nöqsan və (və ya) pozuntuların aradan qaldırılması üçün “Qaz təchizatı haqqında” Azərbaycan Respublikası Qanununun 6-2-ci və 6-3-cü maddələrinin tələblərini yerinə yetirmədikdə;

6.5. Qanunsuz qoşulma halları aşkar edildikdə, qaz paylayıcısı qanunsuz xətti dərhal qazpaylayıcı şəbəkədən ayırmaqla qazın verilməsini dayandırmalıdır. Sayğaca müdaxilə, habelə qanunsuz qoşulma halları aşkar edildikdə qaz paylayıcısı bu barədə akt tərtib etməli və həmin aktın 1 (bir) nüsxəsini barəsində akt tərtib edilmiş şəxsə (və ya onun səlahiyyətli nümayəndəsinə, yaxud yetkinlik yaşına çatmış ailə üzvlərindən birinə), 1 (bir) nüsxəsini isə inzibati xəta haqqında iş üzrə icraata başlanılması məsələsinə baxılması üçün EN-ə, cinayət tərkibinin əlamətləri olduqda isə cinayət təqibi orqanına təqdim etməlidir. İstehlakçının qazın talanmasında təqsirli olması həmin orqanların və ya məhkəmənin qərarı ilə müəyyən edildikdə qaz paylayıcısı vurulmuş zərərin ödənilməsini istehlakçıdan tələb etməlidir.”;

6.3. aşağıdakı məzmunda 6.5-1-6.5-4-cü bəndlər əlavə edilsin:

“6.5-1. İstehlakçı tərəfindən qazın talanması məqsədilə sayğaca müdaxilə, habelə qanunsuz qoşulma nəticəsində qaz paylayıcısına vurulmuş zərərin hesablanması zamanı aşağıdakı şərtlər nəzərə alınır:

6.5-1.1. sayğaca müdaxilə, habelə qanunsuz qoşulma nəticəsində qazdan istifadə edildiyi müddət və həmin müddətin əhatə olunduğu ilin mövsümü;

6.5-1.2. əvvəlki dövrün orta gündəlik qaz sərfi;

6.5-1.3. istehlakçının istifadə etdiyi qaz qurğusunun xüsusiyyətləri (növü, maksimal saatlıq qaz sərfi) və qaz sayğacının markası.

6.5-2. İstehlakçı tərəfindən qazın talanması məqsədilə qaz sayğacına müdaxilə edildikdə (plomb qoparıldıqda, baxış şüşəsi sındırıldıqda, gövdəsi zədələndikdə və sayğaca vizual baxış nəticəsində qüsurun müəyyən edilməsi mümkün olan digər hallarda), qaz paylayıcısı tərəfindən pozuntu aradan qaldırılmalı və bu Qaydaların 3.1.10-cu yarımbəndinə uyğun olaraq qaz sayğacına keçirilmiş sonuncu baxış tarixindən sayğaca müdaxilə halları aşkar edildiyi tarixədək, lakin 3 (üç) aydan çox olmayan müddətdə istifadə edilmiş qazın dəyəri hər bir hal üzrə bu Qaydaların 6.5-1-ci bəndi ilə müəyyən edilmiş şərtlərin, habelə məişət abonentlərinə münasibətdə sutkanın on iki saatı, digər istehlakçılara münasibətdə isə onların işləmə saatı nəzərə alınmaqla hesablanır.

6.5-3. İstehlakçı tərəfindən qanunsuz qoşulma hallarında qaz paylayıcısı tərəfindən pozuntu aradan qaldırılmalı və qazpaylayıcı şəbəkəyə keçirilmiş sonuncu baxış tarixindən qanunsuz qoşulma halları aşkar edildiyi tarixədək, lakin on iki aydan çox olmayan müddətdə istifadə edilmiş qazın dəyəri hər bir hal üzrə bu Qaydaların 6.5-1-ci bəndi ilə müəyyən edilmiş şərtlərin, habelə məişət abonentlərinə münasibətdə sutkanın on iki saatı, digər istehlakçılara münasibətdə isə onların işləmə saatı nəzərə alınmaqla hesablanır.

6.5-4. Qaz paylayıcısının işçisi bu Qaydaların 6.5-ci bəndinə uyğun olaraq tərtib etdiyi akta vurulmuş zərərin bu Qaydaların 6.5-2-ci və 6.5-3-cü bəndlərinə uyğun olaraq hesablanmış məbləği barədə ilkin məlumatı əlavə edir. Akt qaz paylayıcısının işçisi və istehlakçı (və ya onun səlahiyyətli nümayəndəsi, yaxud yetkinlik yaşına çatmış ailə üzvlərindən biri) tərəfindən imzalanmalıdır. İstehlakçı (və ya onun səlahiyyətli nümayəndəsi, yaxud yetkinlik yaşına çatmış ailə üzvlərindən biri) aktı imzalamaqdan imtina etdikdə, bu barədə aktda müvafiq qeyd aparılır və yol verilmiş pozuntu texniki vasitələrlə (foto və ya videoçəkiliş aparılmaqla) qeydə alınır. İstehlakçı (və ya onun səlahiyyətli nümayəndəsi, yaxud yetkinlik yaşına çatmış ailə üzvlərindən biri) izahat və aktın məzmunu barəsində öz mülahizələrini təqdim etmək, habelə aktı imzalamaqdan imtina etməsinin səbəblərini göstərmək hüququna malikdir, bu izahatlar və mülahizələr akta əlavə olunur.”;

6.4. 6.6-cı bənddə “müvafiq qaydada” sözləri “qaz paylayıcısı tərəfindən istehlakçının iştirakı ilə aktla” sözləri ilə, “iş günü” sözləri “gün” sözü ilə və “bərpa edilməlidir” sözləri “bərpa edilməli və aktın 1 (bir) nüsxəsi istehlakçıya təqdim edilməlidir” sözləri ilə əvəz edilsin.

**7.** Qaydalara 2 nömrəli əlavə - “Qaz paylayıcısı ilə məişət qaz qurğusu istifadəçisi arasında qazın alqı-satqısı Müqaviləsi” üzrə:

7.1. 2.1.2-ci yarımbənddə “texniki baxış” sözləri “müayinə” sözü ilə əvəz edilsin;

7.2. 2.1.7-ci, 2.2.6.5-1-ci, 2.2.6.5-2-ci, 2.4.4-cü yarımbəndlər və 3.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

“2.1.7. “Qazdan istifadə Qaydaları”nın 5.4-cü, 6.5-ci, 6.5-2-ci və 6.5-3-cü bəndlərində nəzərdə tutulmuş hallar istisna olmaqla, istehlakçıya verdiyi qazın dəyərini sayğacın göstəricilərinə əsasən hər ay üzrə hesablamaq, növbəti ayın 10-dək istehlakçıya bu barədə məlumat (hesab) təqdim etmək (göndərmək);

2.2.6.5-1. istehlakçı qaz paylayıcısının işçilərini müayinə keçirilməsi üçün onun mülkiyyətində və ya istifadəsində olan tikinti obyektinə daxil olmasına maneə törətdikdə və ya müayinənin keçirilməsinə şərait yaratmadıqda;

2.2.6.5-2. istehlakçı qaz paylayıcısının işçiləri tərəfindən tərtib edilmiş müayinə aktında qeyd olunmuş nöqsan və (və ya) pozuntuların aradan qaldırılması üçün “Qaz təchizatı haqqında” Azərbaycan Respublikası Qanununun 6-2-ci və 6-3-cü maddələrinin tələblərini yerinə yetirmədikdə;

2.4.4. müayinə və texniki xidmət keçirilməsi məqsədilə mülkiyyətində və ya istifadəsində olan tikinti obyektinə daxil olmaq üçün qaz paylayıcısı işçilərindən xidməti vəsiqələrini tələb etmək;

3.3. “Qazdan istifadə Qaydaları”nın 5.4-cü, 6.5-ci, 6.5-2-ci və 6.5-3-cü bəndlərində nəzərdə tutulmuş hallar istisna olmaqla, qaz paylayıcısı istehlakçıya verdiyi qazın dəyərini qaz sayğacının göstəricilərinə əsasən hər ay üzrə hesablamalı və növbəti ayın 10-dək istehlakçıya bu barədə məlumat (hesab) təqdim etməlidir (göndərməlidir). “Smart-kart” tipli qaz sayğacı olan istehlakçıya istifadə etdiyi qazın dəyəri haqqında hesabın qaz paylayıcısı tərəfindən təqdim edilməsi (göndərilməsi) tələb olunmur. İstehlakçının istehlak etdiyi qazın dəyəri tam ödənildikdən sonra qaz paylayıcısı tərəfindən yol verilmiş səhvə görə düzgün hesablanmamış qazın dəyərinin istehlakçı tərəfindən ödənilməsi tələb edilə bilməz.”.

**8.** Qaydalara 3 nömrəli əlavə - “Qaz paylayıcısı ilə sənaye qaz qurğusu istifadəçisi arasında qazın alqı-satqısı Müqaviləsi” üzrə:

8.1. 2.1.3-cü yarımbənddə “texniki baxış” sözləri “müayinə” sözü ilə əvəz edilsin;

8.2. 2.1.9-cu yarımbənd aşağıdakı redaksiyada verilsin:

“2.1.9. “Qazdan istifadə Qaydaları”nın 5.4-cü, 6.5-ci, 6.5-2-ci və 6.5-3-cü bəndlərində nəzərdə tutulmuş hallar istisna olmaqla, istehlakçıya verdiyi qazın dəyərini sayğacın göstəricilərinə əsasən hər ay üzrə hesablamaq və növbəti ayın 10-dək istehlakçıya bu barədə məlumat (hesab) təqdim etmək (göndərmək);”;

8.3. 2.2.7.5-1-ci, 2.2.7.5-2-ci, 2.4.5-ci yarımbəndlər və 3.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

“2.2.7.5-1. istehlakçı qaz paylayıcısının işçilərini müayinə keçirilməsi üçün onun mülkiyyətində və ya istifadəsində olan tikinti obyektinə daxil olmasına maneə törətdikdə və ya müayinənin keçirilməsinə şərait yaratmadıqda;

2.2.7.5-2. istehlakçı qaz paylayıcısının işçiləri tərəfindən tərtib edilmiş müayinə aktında qeyd olunmuş nöqsan və (və ya) pozuntuların aradan qaldırılması üçün “Qaz təchizatı haqqında” Azərbaycan Respublikası Qanununun 6-2-ci və 6-3-cü maddələrinin tələblərini yerinə yetirmədikdə;

2.4.5. müayinə və texniki xidmət keçirilməsi məqsədilə mülkiyyətində və ya istifadəsində olan tikinti obyektinə daxil olmaq üçün qaz paylayıcısı işçilərindən xidməti vəsiqələrini tələb etmək;

3.3. “Qazdan istifadə Qaydaları”nın 5.4-cü, 6.5-ci, 6.5-2-ci və 6.5-3-cü bəndlərində nəzərdə tutulmuş hallar istisna olmaqla, qaz paylayıcısı istehlakçıya verdiyi qazın dəyərini qaz sayğacının göstəricilərinə əsasən hər ay üzrə hesablamalı və növbəti ayın 10-dək istehlakçıya bu barədə məlumat (hesab) təqdim etməlidir (göndərməlidir). “Smart-kart” tipli qaz sayğacı olan istehlakçıya istifadə etdiyi qazın dəyəri haqqında hesabın qaz paylayıcısı tərəfindən təqdim edilməsi (göndərilməsi) tələb olunmur. İstehlakçının istehlak etdiyi qazın dəyəri tam ödənildikdən sonra qaz paylayıcısı tərəfindən yol verilmiş səhvə görə düzgün hesablanmamış qazın dəyərinin istehlakçı tərəfindən ödənilməsi tələb edilə bilməz.”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Qərbi Azərbaycan: Zəngəzur xəyanəti



(Əvvəli qəzetimizin 21 iyun tarixli sayında)

Tarixə nəzər saldıqda görürük ki, XVIII əsrdə Zəngəzur mahalının ərazisinin böyük hissəsi Qarabağ xanlığının, bir hissəsi isə Naxçıvan və İrəvan xanlıqlarının tərkibində, Çar Rusiyası dövründə isə Gəncə (Yelizavetpol) quberniyasının tərkibində olmuşdur.

Mudros müqaviləsi əsasında Osmanlı qoşunları Azərbaycanı tərk etdikdən sonra ingilislər Zəngəzur qəzası da daxil olmaqla Şuşa, Cavanşir, Cəbrayıl qəzaları əsasında yaradılan Qarabağ general-qubernatorluğunu 1918–1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin ərazisi kimi tanımışdır. Amma faktik olaraq o vaxt Osmanlı dövlətinə xəyanət etmiş general, quldurbaşı Andranik Zəngəzuru müsəlman türk və kürdlərdən təmizləmiş, orada daşnak qubernatorluğu elan etmişdir.

Yeri gəlmişkən deyək ki, Antanta agenti olan, eyni zamanda, bolşeviklərlə gizli əlaqə saxlayan bu satqın və qəddar general Laçında Sultan bəyə biabırçı vəziyyətdə məğlub olandan sonra Qafqazdan getmiş, 1922-də ABŞ-a sığınmışdı. Əli on minlərlə soydaşımızın qanına batmış bu başkəsən, hərbi cani 1927-ci ildə ölmüş, Kaliforniya ştatının Fresno şəhərində basdırılmışdır. Daşnak tör-töküntüləri onun cəsədini 1 il sonra Parisə köçürmüşlər, 2000-ci ildə isə erməni millətçilərinin bədnam milli qəhrəmanının lənətə gəlmiş sür-sümüyü Yerevana gətirilmişdir.

Zəngəzur isə 1920-ci il 28 apreldə Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra respublikamızın tərkib hissəsi kimi rayonlaşmaya qədər ayrıca inzibati bölgə – qəza olmuşdu.

Daha qədim tarixə getsək, görərik ki, Zəngəzur Cavidan, Cavanşir, Babək dövründə xürrəmilər hərəkatının, ərəblərə qarşı savaşların əsas mərkəzi, 30 ildən artıq sürən qanlı döyüşlərin məkanını olmuşdur. Xilafət zamanı ərəblər Cənubi Azərbaycandan Naxçıvan-Biçənək–Gorus–Laçın–Bərdə istiqamətində hərəkət edərək o vaxt Alban, Arran adlanan Şimali Azərbaycanı zəbt etmişlər.

O zaman Qafqaz Albaniyasının tərkibində olmuş Sünik knyazlığı da əsasən Zəngəzurun Qarakilsə (Sisyan) və Gorus bölgələrini əhatə etmişdir.1065-ci ildə Səlcuq-türk imperiyasının hökmdarı Alp Aslan Qafan şəhərini tutaraq Sünik knyazlığının mövcudluğuna son qoymuşdur 150 il davam edən səlcuqlu hökmranlığı Zəngəzur ərazisində türk-islam nüfuzunu daha da genişləndirmiş, bu yerlərdə çox sayda türksoylu tayfalar məskunlaşmışdır.

1236-cı ildə monqol-tatarlar, 1395-ci ildə Əmir Teymur Qarabağ və Zəngəzuru çox böyük itkilər hesabına tutmuşlar. Teymur bu yerləri xarabazara çevirmiş 10 min ailəni



Əfqanıstana köçürmüşdür. Təkcə 4 min ailə Qəndəhar yaxınlığında məskən salmışdır. Yerli əhali bu köçürülənləri öz adları ilə "ağvan" çağırırmışlar, sonralar isə bu ad fonetik dəyişimə uğrayaraq "əfqan"a çevrilmişdir.

Zəngəzur Qaraqoyunluların (1410–68), Ağqoyunluların (1468–1502), 1503-cü ildən isə Səfəvi qızılbaşlarının hakimiyyəti altına düşmüşdür. I Şah Abbasın (1571–1629) Naxçıvan və Zəngəzur uğrunda apardığı qanlı savaşlar zamanı onun yerli müsəlman əhalisinə qarşı düşmən münasibətinin nəticəsiolan köç fərmanına əsasən, hər iki vilayətin əhalisi öz yerlərini tərk etmişlər.

Sonrakı dövrdə Zəngəzur Osmanlı və İran xanədanları arasında bir neçə əsr savaş meydanına çevrilmiş, bir əsrə yaxın Naxçıvan bəylərbəyliyinə tabe olmuşdur. 748-ci ildə Qarabağ xanlığını yaradıb, ilbəil güclənən Pənahəli xan 1750-ci ildə iti zəkası, hərbi qüvvələrinin üstünlüyü sayəsində Zəngəzur ellərini–Bərgüşad, Tatev, Qarakilsə, Qafan, Mığrını Naxçıvan bəylərbəyliyindən qoparıb öz xanlığına qatmış və bu ərazilər Qaraçorlu mahalı adlandırılmışdır.

Rusiya Azərbaycanı ilhaq edəndən sonra da Zəngəzur Qarabağın tərkibində qalmışdır. Qafqaz və Zaqafqaziya diyarının idarəsinin dəyişdirilməsi haqqında 1867-ci il 9 dekabr tarixli çar fərmanı əsasında Yelizavetpol (Gəncə) quberniyası yaradılmış, Zəngəzur, Şuşa, Nuxa Yelizavetpol və Ordubad qəzasının bir hissəsi onun tərkibinə daxil edilmişdir. 1873-cü ildə Yelizavetpol quberniyası tərkibində Ərəş, Cəbrayıl və Cavanşir qəzaları təşkil olunmuşdur. Sonralar Cəbrayıl qəzasına Azərbaycana qarşı işğalçılıq müharibəsində iştirak etmiş rus zabiti P.M.Karyaginin adı verilmişdir.

1918-ci il iyunun 16-da Azərbaycan Milli Şurası və Hökuməti Gəncəyə köçmüşdür. İyunun 17- də Gəncədə Fətəli xan Xoyskinin sədrliyi ilə 2-ci hökumət kabinəsi təşkil edilmişdir. Gəncə şəhəri 1918-ci il iyunun 17-dən sentyabrın 17-dək AXC-nin paytaxtı olmuşdur.

1915-ci ildə Zəngəzur və İrəvan quberniyasının ərazisində 382 şiə, 9 sünni məscidi fəaliyyət göstərmişdir. İrəvan quberniyasında məscidlərin artma dinamikası 1904-cü ildə 201, 1911-ci ildə 342, 1915-ci ildə 382 olub. Bu rəqəmlər bölgədə müsəlman əhalisinin sürətlə artmasından və bu ərazidə soydaşlarımızın mütləq çoxluq təşkil etməsindən xəbər verir. Lakin sovet hakimiyyətinin ilk illərində bolşevik şineli geymiş daşnakların xalqımıza qarşı düşmən münasibətini gizli surətdə davam etdirməsi və sovet Rusiyasının xəyanətkar himayəsi, eləcə də Azərbaycan kommunistlərinin milli maraqları susqunluqla satması nəticəsində Qərbi Azərbaycanda Ermənistan adlı dövlətin qurulması ilə yanaşı, AXC-nin ərazisi olmuş Zəngəzur da ermənilərə bağışlandı.

Azərbaycan Prezidenti İlham Əliyev Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdəki nitqində bu tarixi xəyanətkarlıqla bağlı demişdir : "O vaxt xalqımıza qarşı ədalətsizlik də edilmişdir, çünki Azərbaycanın əzəli torpağı olan Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana vermişdilər. Bu böyük ədalətsizlik idi. Çünki Zəngəzur tarixi, əzəli Azərbaycan torpağıdır. Zəngəzurun ovaxtkı əhalisinin mütləq əksəriyyəti azərbaycanlılar idi. Zəngəzurun bütün yaşayış məntəqələrinin adları Azərbaycan adları idi. Ona görə bu qərarın qəbul edilməsində Azərbaycan xalqına qarşı ədalətsizlik və qərəz əsas rol oynamışdır. Eyni zamanda, bu qərarla Azərbaycan coğrafi baxımdan iki yerə bölünürdü. Eyni zamanda böyük türk dünyası iki yerə bölünürdü. Bu ədalətsizlikdir, bu sağalmayan yaradır. Ancaq mən tam əminəm ki, vaxt gələcək və biz azərbaycanlılar bütün tarixi torpaqlarımıza qayıdacağıq".

Azərbaycan Prezidenti İlham Əliyevin söylədiyi bu dahi fikirlər artıq çin olmağa başlamışdır. Zəngəzura qayıdış və Zəngəzur dəhlizinin açılması artıq Azərbaycanın deyil, regionda marağı olan dövlətlərin diqqət və marağındadır. Azərbaycan həm də Avropanın əsas enerji təchizatçılarından biridir. Ona görə də Avropa İttifaqı və Birləşmiş Ştatlar tezliklə sülh müqaviləsinin bağlanmasında, regionda sabitlik olmasında maraqlıdır.

Bildiyimiz kimi, Zəngəzur dəhlizinin bərpası həm də Şərqlə Qərb arasında Azərbaycandan keçən Orta Dəhlizin ikinci xəttinin açılması deməkdir. Hazırkı geosiyasi şərtlər daxilində, Rusiyanın və İranın sanksiya altında olması Şimaldan və Cənubdan keçən yolların istifadəsi üçün maneələr yaradır. Ona görə də Azərbaycandan keçən orta dəhlizin əhəmiyyəti daha da artır. Gələcəkdə bu yol ilə daşınacaq yüklərin artma ehtimalı çox böyükdür. Bu proses artıq başlayıb. Yəni Zəngəzur dəhlizinin açılması orta dəhlizə əlavə nəfəs verəcəkdir. Zəngəzur dəhlizinin açılması Qərbin Çin, Yaponiya və Koreya ilə əlaqələrinin inkişafına daha böyük töhfə verəcəkdir.

Biz inanırıq ki, yaxım gələcəkdə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevın parlaq zəkası, uzaqgörənliyi və qətiyyəti ilə Qərbi azərbaycanlılar öz doğma torpaqlarına qayıdacaqlar. Zəngəzur dəhlizinin açılması ilə Türk dövlətləri daha da yaxınlaşacaq, qloballaşan dünyaya öz layiqli töhfəsini verəcəkdir. Artıq zəngəzurlular bu inamla öz doğma torpaqlarına qayıdacaqları günü səbirsizliklə gözləyirlər.

*İsmayıl ƏLİYEV,*
*Bakı Dövlət Universitetinin kafedra müdiri, professor*

**Ermənistandan qovulmuş azərbaycanlıları təmsil edən Qərbi Azərbaycan İcması Avropa Şurası Parlament Assambleyasının bu yaxınlarda qəbul etdiyi anti-Azərbaycan qətnaməni kəskin şəkildə qınayıb. Bu barədə İcmanın yaydığı məlumatda bildirilir:**

# AŞPA-nın qərəzli qətnaməsinə kəskin cavab



– AŞPA-nın anti-Azərbaycan məzmunlu qətnaməsi insan hüquqlarının mahiyyətinə birbaşa zidd olan qərəzli və naşı yanaşmasını bir daha nümayiş etdirir. AŞPA-nın bir tərəfdən humanizmdən dəm vurması, digər tərəfdən isə heç bir əsas olmadan Azərbaycanın Qarabağ bölgəsindən etnik ermənilərin emiqrasiyasına dair xəyali ssenari iddiası irəli sürməsi başdan-başa böhtan olmaqla dərin hiddət doğurur.

Ermənistanın Göyçə, Zəngəzur, Dərələyəz və digər bölgələrindən zorla qovduğu etnik azərbaycanlılardan fərqli olaraq, ermənilər Azərbaycanın Qarabağ bölgəsində yaşamaqdadırlar. İnsan haqlarının müdafiəsi ilə məşğul olan AŞPA-nın Ermənistanın bütün azərbaycanlıları öz ərazisindən qovaraq, mono-etnik məkana çevrilməsi ilə rahat şəkildə razılaşması dərin narahatlıq doğurur.

Ermənistandan qovulmuş azərbaycanlıların geri qayıtmaq hüququ üçün dəstək istəyən saysız-hesabsız müraciətlərinə göz yuman AŞPA indi etnik ermənilərin hüquqlarını mövcud olmayan təhlükələrdən müdafiə etmək niyyətindədir. Əslində, AŞPA bu qətnamə ilə Ermənistanın Azərbaycana qarşı ərazi iddialarını müdafiə edir. Əgər AŞPA insan haqları məsələsində səmimi olsaydı, o, bizim geri qayıtmaq hüququmuzu müdafiə edərdi və Ermənistanın bir milyondan çox azərbaycanlıya qarşı bədnam etnik təmizləmə aparmasını və azərbaycanlıların öz vətənlərinə qayıtmasının qarşısını almasını ardıcıl olaraq pisləyərdi.

**Bəyanatda daha sonra bildirilir ki, Ermənistanın azərbaycanlılara qarşı sistemli şəkildə təbliğ etdiyi nifrəti nəzərə aldıqda, AŞPA-nın Azərbaycanda, guya, belə çıxışların olmasını iddia etməsi gülüncdür:**

– Ermənistanda etnik dözümsüzlüyün ən son nümunələri sırasında İrəvanda Azərbaycana və Türkiyəyə qarşı zorakı terrorçuluğu tərənnüm edən "Nemezis" abidəsinin ucaldılmasını qeyd etmək olar. Bundan başqa, cəmi iki ay əvvəl İrəvanda keçirilən beynəlxalq idman tədbirində Baş nazirin gözünün qarşısında Azərbaycanın bayrağının yandırılması bu ölkədə tüğyan edən etnik nifrəti göstərən növbəti bir aktdır.

AŞPA Azərbaycana sual doğuran məqsədləri olan missiya göndərməkdən danışmaq əvəzinə, azərbaycanlıların təhlükəsiz və ləyaqətlə qayıtmasını təmin etmək, onların hüquqlarının, əmlakının və mədəni irsinin qorunması üçün Ermənistana beynəlxalq missiyaların göndərilməsinə yardım etməlidir. AŞPA Ermənistanın qovduğu azərbaycanlıların hüquqları ilə bağlı müvafiq konvensiyalar çərçivəsində öhdəliklərinə əməl etməsinin monitorinqini ən ümdə vəzifə kimi qarşısına qoyumalıdır.

**Qərbi Azərbaycan İcmasının bəyanatı bu sözlərlə bitir:**

– AŞPA Monitorinq Komitəsinə bununla bağlı göndərdiyimiz məktub bu günə kimi cavabsız qalıb. Belə görünür ki, AŞPA zorakılıq edənləri mükafatlandırır, qanunun aliliyinə riayət edənləri isə cəzalandırır. Biz Assambleyanı insan haqlarına zidd, Azərbaycanofob mövqeyindən əl çəkməyə və Ermənistandan qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətlə qayıtması ilə bağlı çağırışlarımıza cavab verməyə çağırırıq.

*"Xalq qəzeti"*

# "Yaraşır libasın gül əndamına"

## *Aşıq Ələsgər yaradıcılığında qadın geyim mədəniyyəti*

(Əvvəli qəzetimizin 21 iyun tarixli sayında)

**II Yazı**

**Azərbaycanın mədəni sərvətlər xəzinəsinə misilsiz töhfələr bəxş etmiş, xalqımıza öz sazı və sözü ilə 80 ildən artıq ləyaqətlə xidmət göstərmiş Dədə Ələsgərin yaradıcılığını Qərbi Azərbaycanın qadın geyim mədəniyyəti nöqteyi-nəzərindən zəngin etnoqrafik mənbə hesab etmək olar.**

Aşıq Ələsgər "Mələk" müxəmməsində qadın geyimlərinin ən bəzəklisi və zəngini olan nimtənə haqqında da danışır. Nimtənə qızıl sapla toxunan zərbaftan hazırlanırdı. Zərbaft isə qızıl və ya güləbətinlə qarışıq hazırlanan qiymətli parça idi. Qadın üst paltarı olan nimtənə gündəlik geyim kimi yun və pambıq parçadan, boğçalıq, toy-düyün paltarı kimi məxmər darayı, tirmə və başqa parçalardan hazırlanırdı. Nimtənənin ətəyinə, qollarının ağzına, yaxa və yan kəsiklərinə qızıl-gümüş düymələr bəndlənir, müxtəlif tikmələrlə bəzədilirdi.

Tipoloji cəhətdən çəpkənlə eynilik təşkil edən nimtənə haqqında məlumata Nizami Gəncəvinin "Sirlər xəzinəsi" əsərində də təsadüf edilir. Həmin əsərdə şair yazır: "Onların donu (nimtənəsi) başdan dizə qədərdir" Buradan aydın olur ki, nimtənə haqqında yazılı məlumatlar XII əsrə qədər gedib çıxır.

Aşıq Ələsgər "Qırmızı" qoşmasında təriflədiyi qız-gəlinin geyindikləri qadın üst geyimlərindən olan çəpkəni belə təsvir edir: "Qüdrətdən çəkilib qaməti-şahbaz, mərnus dizlik geyib, çəpgəni ətlaz". Çəpkən qadın üst geyim növü olub, köynəyin üstündən geyilir və astarlı tikilir,



bəzən isə yüngül sırınır və bədənə kip biçilirdi.

Çəpkən iqtisadi durumdan asılı olaraq ipək parçalardan məsələn, məxmər, tirmə, zərxara, tafta, qumaş, atlas və s-dən, həmçinin pambıq, yun və adi parçalardan hazırlanırdı. Çəpkənin yaxasının hər iki tərəfində cərgə ilə qızıl və gümüş pullar tikilirdi. Aşıq Ələsgər bu barədə "Görürsənmi oğrun baxan gözəli" qoşmasında deyir: "Yaxası qızıldan düymələnibdi".

Azərbaycan qadın üst geyimlərindən biri "küləcə" olmuşdur. Aşıq Ələsgər "Şahpəri" müxəmməsində küləcə qadın üst geyimini belə tərənnüm edilir: "Əynində xas güləcə (küləcə"...). Küləcənin yaxa kəsiyi oval formada biçilir, yaxası boyhaboy açıq olur və qolları düzdəmə tikilərək ensiz bilərziklə tamamlanırdı. Küləcə qurşaq yerində xırda düymə və ya çarpaz vasitəsilə tamamlanırdı. Bəzək elementləri ilə olduqca zəngin olan küləcənin yaxası, bel ətəkləri, qollarının ağzı, güləbətin, muncuqlu pilək, məlilə tikmə, zəncirə, bafta, piləkli doldurma və s. ilə işlənirdi. Onu da qeyd edək ki, küləcə Gəncəbasar, Borçalı, Naxçıvan, Şirvan, İrəvanda qadınların bayramlıq geyim növü olmuşdur.

Aşığın yaradıcılığında Azərbaycan qadınlarının baş geyimlərindən olan kəlağayı, şal, rübənd adlarına təsadüf olunur. Aşıq "Giləyə" müxəmməsində deyir: "Başında herat kəlağay, bənzər göllər sonasına". Bu örtük gözəllik, ismət, ləyaqət, ehtiram, sədaqət rəmzi olmaqla yanaşı, Azərbaycanda qədimdən məlumdur. Kəlağayı Azərbaycanın Təbriz, Gəncə, Şamaxı, Şəki və Naxçıvan şəhərlərində yüksək keyfiyyətlə hazırlanırdı, həmçinin Azərbaycana satınalınma yolu ilə Herat şəhərindən də kəlağayı alınıb gətirilirdi.

Aşıq "Mələk" müxəmməsində Mələyin başına örtdüyü şalı da nəzərdən qaçırmır:"...başındakı şalı gözəl" Aid olduğu dövrdə baş şalı kustar üsulla yerli karxanalarda toxunmaqla yanaşı, qadınların özləri də ağ yun ipdən kvadratşəkilli dördbucaq formada toxuyur və qıraqlarında toxunan ipdən saçaqlar qoyurdular. Bu baş şalı, Göyçə mahalı ilə yanaşı, Qazax və Naxçıvan bölgəsində də toxunurdu. Azərbaycan qadınlarının baş geyimlərindən biri də rübənd olmuşdur.

Aşıq "Dolanır" qoşmasında deyir: "Məni qoca gördü, ürbəndin açdı". Rübənd üzü kənar adamlardan gizlətmək üçün bir vasitə idi. Lakin, qız-gəlinlər yaşlı adamlardan çəkinmədiklərinə görə onların yanında üzlərindən rübəndlərini açırlar. Qərbi Azərbaycanla yanaşı, Naxçıvanda da yayılmış baş geyimləri içərisində rübəndlər xüsusi yer tuturdu.

XIX yüzillikdə qadın geyimlərinin bir qismini də ayaq geyimləri təşkil edir.Aşığın "Baxın" müxəmməsində qadınların geyindiyi "sarğı başmaq" haqqında belə deyir: "...Ayağına sarğı başmaq..". Sarğı başmağı keçmişdə atın sağrı gönündən hazırlayırdılar. Heyvanın quyruq tərəfindəki sağ və sol yanlarına, eləcə də həmin yanların dərisinə sarğı deyilir. Sarğı dərisindən keyfiyyətli ayaqqabı hazırlanırdı. Sarğı başmağa Qərbi Azərbaycan qadınları ilə yanaşı, Qarabağ və Ordubadda da daha çox üstünlük verilirdi.

İncə zövqə malik olan Azərbaycan qadınları, adətən, geyim tərzlərini tamamlamaq üçün bellərinə kəmər bağlayardılar. Azərbaycanda kişi və qadın bel kəmər və toqqalarının "ətəkli", "təkbənd", "gülbelbağı", "saltoqqa", "çilik toqqa", "gümüş kəmər", "zərli kəmər", "sikkə" kəmər və s. növləri olmuşdur. Aşıq Ələsgər yaradıcılığında qadınların bellərinə bağladıqları gümüş kəmərlərdən bəhs olunur. Aşıq "Ay yağa məni" təcnisində deyir: "İncə beldə gümüş kəmər, inci dürr".

Göründüyü kimi, Azərbaycanın bütün bölgələrində olduğu kimi, Göyçə mahalında da qadınlar belinə gümüş kəmər bağlayır və qiymətli daş-qaşla bəzədilirdi. Qadınların kəmərləri içərisində yayılma arealına görə üstün yeri "sallama" (ətəkli) kəmərlər tuturdu. Bu kəmərin ətəyinə kəmərdən aşağıya doğru 10-15-20 qəpiklik qulplu gümüş pullar gümüş zəncirlər vasitəsi ilə aypara formasında





bir-birinə bənd edilirdi. Bir qayda olaraq kəməri qızlar deyil, gəlinlər gəzdirirdi və gəlin köçən qızların toy-nişan paltar dəstlərinin içərisinə gümüş və bəzən də qızıl kəmər qoyardılar.

Nəticə etibarı ilə demək olar ki, XIX–XX əsrin əvvəllərində Azərbaycanın ayrı-ayrı tarixi etnoqrafik bölgələrində olduğu kimi Qərbi Azərbaycan da qadınların geyimlərində lokal-məhəlli xüsusiyyətlər, bölgəyə məxsus detallar müəyyən dərəcədə özünü göstərsə də, tipoloji cəhətdən ümumazərbaycan səciyyəsi daşıyırdı.

*Aytəkin QƏHRƏMANOVA,*
*AMEA Naxçıvan Bölməsi, tarix üzrə fəlsəfə doktoru*

# AZPROMO nümayəndə heyətinin Naxçıvan görüşləri



**Azərbaycan Respublikası İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) nümayəndə heyəti Naxçıvanda səfərdədir.**

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəflinin AZPROMO nümayəndələri ilə görüşü zamanı "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın əhəmiyyəti diqqət mərkəzində olub. Səlahiyyətli nümayəndə bu istiqamətdə artıq alt tədbirlər planının formalaşdırılmağa başlanıldığını qeyd edib.

Bildirilib ki, yaxın gələcəkdə Naxçıvan iqtisadiyyatında yeni dəyərlər yaradılacaq. Görüş zamanı Naxçıvanda istehsal olunan məhsulların ixrac potensialından, "Orqanik Naxçıvan" brendi altında məhsulların istehsalı, emalı, tədarükü və ixracı istiqamətində görüləcək işlər müzakirə olunub.

Nümayəndə heyətinin Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyevlə görüşündə yerli ixrac potensiallı məhsullarının keyfiyyətinə əminlik ifadə olunub. AZPROMO-nun dəstəyi ilə bu məhsulların təbliği istiqamətində işlərin görülməsinin vacibliyi vurğulanıb.

Naxçıvan Biznes Mərkəzində muxtar respublikada fəaliyyət göstərən, ixrac potensiallı məhsul istehsal edən sahibkarlar və investorlarla görüşdə isə muxtar respublikada AZPROMO-nun nümayəndəliyinin yaradılmasının vacibliyi vurğulanıb. Qeyd edilib ki, Naxçıvanda istehsal olunan məhsulların ölkə bazarlarında satışının təmin edilməsi üçün logistika subsidiyalarının ayrılması nəzərdə tutulur.

Sonda sahibkarlar və investorlarla mövzu ətrafında müzakirələr aparılıb, onların təklifləri dinlənilib.

***"Xalq qəzeti"***

LƏYAQƏT VƏ RƏZALƏT

# İdmanda meydan güclülərindir

## Ermənilər isə sivil rəqabəti milli düşmənçiliyə çevirirlər



**Güc və birliyin rəmzi olan idman sağlam düşüncəli insanların mübarizəsi üçün geniş imkanlar açır. İdman prinsiplərindən ən əsası isə ədalətli mübarizədir ki, bu qələbədən az önəm daşımır. Bunu beynəlxalq arenalarda Azərbaycan təmsilçiləri dəfələrlə nümayiş etdirmişlər. İdmançılarımız hətta torpaqlarımızı uzun müddət işğal altında saxlayan, xalqımıza qarşı soyqırımları törədən, zaman-zaman bizi müharibəyə sürükləyən erməni rəqiblərinə qarşı mübarizədə də ədalətli davranırlar.**

Bugünlərdə Gürcüstanın Batumi şəhərində keçirilən "Batumi Open" beynəlxalq karate turnirində komandamız yenidən erməni təxribatı ilə üz-üzə qaldı. Azərbaycan təmsilçisi Alika Semixovanın aşkar üstünlüklə (2:0) əldə etdiyi qələbəni həzm edə bilməyən erməni rəqibi idmançımıza yaxınlaşaraq onun üzünə zərbə endirdi. Bu, Yaponiyadan gələn Dünya Şotokan Karate Federasiyasının prezidenti Hitoşi Kasuya Senseyin gözləri önündə baş verdi. İdmançımız erməni təxribatına uymayaraq yenə pley-off ənənələrinə sadiq qaldı, idmanın nəcib məqsədlərini və prinsiplərini hər şeydən üstün tutdu. Bu ləyaqətli davranış həmin kadrları izləyən milyonlarla izləyicidə erməni idmançıya qarşı ikrah, həmvətənimizə qarşı isə rəğbət doğurdu.

İyulun 5-də "Batumi Open" beynəlxalq karate turnirindən Vətənə qayıdan təmsilçilərimizi Heydər Əliyev Beynəlxalq Aeroportunda idman ictimaiyyətinin nümayəndələri, yaxınları və dostları ikiqat qaliblər kimi qarşıladılar. Komandamızın turnirdə ölkəmizi layiqincə təmsil etməsi, həm də yarışlarda idman prinsiplərini, xalqımızın milli kimliyini, əxlaqi keyfiyyətlərini hər şeydən üstün tutması alqışlandı.



**Alika Semixova jurnalistlərə açıqlamasında erməni rəqibin təxribatına baxmayaraq Azərbaycan xanımı və idmançısı kimi öz mədəniyyətini göstərdiyini bildirdi. O, ardıcıl 3 qələbədən sonra finalda erməni rəqibi ilə üzləşməsinin ona heç bir çətinlik yaratmadığını dedi:**

– Komandamız yarışa həm fiziki, həm də psixoloji cəhətdən yüksək səviyyədə hazırlaşmışdı. Erməni oyunçunu aşkar üstünlüklə məğlub etdikdən sonra o, gözlənilmədən idman qaydalarına uyğun olmayan vəhşilik etdi. Meydanda gücünü göstərə bilməyən idmançının belə ucuz təxribata əl atması, onun acizliyini göstərir.

**Azərbaycan komandasının digər üzvü, karateçi Zəki Cəfərzadə də idman prinsiplərini yalnız öz gücünə əmin olmayanların pozduqlarını söylədi:**

– Biz yarışa yaxşı hazırlaşmışdıq. Əsas hədəf meydanda qələbə qazanıb Azərbaycan bayrağını yüksəltmək, Dövlət Himnimizi səsləndirmək idi. Onu da bilirdik ki, erməni idmançılar yarışda iştirak edəcəklər. Yarış boyu çalışdıq ki, onlarla heç bir problem yaranmasın. Erməni oyunçularının bayrağımızın üzərinə düşməncəsinə Ermənistanın bayrağını qoymaları diqqətimi çəkdi. İradımı bildirdim. Bir azərbaycanlı vətəndaş kimi bayrağımıza qarşı edilən hörmətsizliyi cavabsız qoya bilməzdim.

**Azərbaycan Karate Do Federasiyasının prezidenti Arif Məmmədov 10 ölkənin iştirakı ilə keçirilən yarışda Ermənistanın geniş heyətlə təmsil olunduğunu bildirdi:** "İdmançılarımızı təlimatlandırmışdıq ki, ermənilər təxribat törətməyə çalışsalar da, onlara əhəmiyyət vermək lazım deyil. Erməni idmançıları komandamıza qarşı qeyri-etik davrandılar. İdmançılarımız nəinki onların təxribatına uymadılar, qalib ölkəni, müzəffər xalqı layiqincə təmsil etmək üçün potensiallarından maksimum istifadə etdilər".

**Millinin baş məşqçisi İbrahim Heydərov komandamızın turnirdə yüksək səviyyədə çıxış edərək ümumi hesabda birinci olduğunu dedi:** "Bu nəticəni qazanmaq üçün bir sıra təlim-məşq toplanışlarında iştirak etmişdik. Komandamızda güclü idmançılar yer almışdı. Buna görə yığmamızdan yüksək nəticə gösləyirdik".

Baş məşqçi Batumidə keçirilən turnirin idmançılar üçün bir növ yoxlama xarakteri daşıdığını da vurğuladı: "Qarşıda idmançılarımızı ciddi sınaq gözləyir. Dünya çempionatında qələbə əldə etmək üçün bütün gücümüzü sərf etməliyik. "Batumi Open"də idmançılarımızı bir daha yoxladıq".

Əzmkar mübarizəsi ilə həmişə fərqlənən Azərbaycan komandası beynəlxalq yarışlarda daha böyük uğurlar əldə etmək üçün gücünü artırdıqca, idmançılarımızın qüvvəsi qarşısında duruş gətirə bilməyən erməni idmançı və azarkeşlərinin düşmən təxribatları çoxalır. Bu ilin aprelində Ermənistanın paytaxtı İrəvanda ağır atletika üzrə Avropa çempionatının açılış mərasimində Azərbaycan Bayrağının rəsmi şəxs tərəfindən nümayişkəranə şəkildə yandırılması, bunun Ermənistan ictimaiyyəti tərəfindən alqışlanması, eyni zamanda həmin əməli törədən şəxsin qəhrəman kimi qələmə verilməsi Ermənistanda xalqımıza qarşı aşkar nifrət mühitinin hökm sürdüyünü sübut edir.

Xatırlayırıq ki, 44 günlük Vətən müharibəsi dövründə döyüş meydanında davamlı məğlubiyyətlərə məruz qalan düşmən ən çirkin əməllərə əl ataraq dinc insanlara qarşı kütləvi terror əməlləri törətdi. Etnik nifrətin, rasizmin, ksenofobiyanın hökm sürdüyü bir ölkənin təmsilçilərindən sivil davranış, ədalətli mübarizə gözləmək olmaz. Bu gün bütün dünya qalib xalqımızın böyüklüyünü görür, ədalətin qorunmasında ölkəmizin nümunəsini təqdir edir. Azərbaycanı təmsil edən idmançılarımız da öz mübarizələrində xalqımıza xas olan bu ləyaqəti bir daha dünyaya nümayiş etdirirlər.

***Leyla QURBANOVA, "Xalq qəzeti"***

REGİON XƏBƏRLƏRİ

# Qərb bölgəsində nə var, nə yox?

**Şəhər və rayonlarda keçirilən tədbirlər–müxtəlif obyektlərin açılışları, təqdimatlar, toplantılar, görüşlər öz məzmununa, rəngarəngliyinə, maraq dairəsinə görə xeyli zənginləşib və istər-istəməz diqqəti cəlb edir.**



Bu baxımdan Azərbaycanın Qərb bölgəsi də istisna deyil. Gəncə, Goranboy, Göygöl, Şəmkir, Tovuz və bölgənin digər şəhər və rayonlarında həyata keçirilən ən müxtəlif tədbirlərin bir məqsədi var. Bu da insan faktorudur, əhalinin maddi-rifah halının yaxşılaşdırılması, gələcək nəslin sağlam və xoşbəxt böyüdülməsidir.

**Gəncə**

**Tacikistanın Xücənd şəhərində "Suqd-2023" IX Beynəlxalq Ticarət sərgisində Səudiyyə Ərəbistanı, Rusiya Federasiyası, Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, İran, Çin, Belarus və digər ölkələrlə yanaşı, Gəncə şəhərinin nümayəndə heyəti də iştirak edib.**

Sərginin açılış mərasimində sahibkarlar öz məhsullarını satışa çıxarıblar. Tədbir çərçivəsində Gəncə şəhərinin nümayəndə heyəti Suqd Azad İqtisadi Zonasında fəaliyyət göstərən mebel fabrikini ziyarət edib. Daha sonra sözügedən fabriklə "Zəfəroğlu mebel" şirkəti arasında əməkdaşlıq haqqında memorandum imzalanıb.

**Goranboy**

**Rayon icra hakimiyyəti başçısının demək olar ki, bütün səyyar qəbulları ya şəhid ailələrinin evlərində, ya da açıq havada kənd adamlarının iştirakı ilə keçirilir. Təcrübə göstərir ki, bu cür görüşlər daha çox səmərə verir.**



Bu dəfə də belə oldu. Yuxarı Ağcakənd qəsəbəsində açıq havada keçirilən səyyar qəbulda rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyevlə birlikdə xidmət sahələrinin rəhbərləri, bir qrup ictimai fəal da iştirak edirdi.

Sakinləri dinləyən rayon rəhbəri dedi ki, bu qəbullar ölkə Prezidenti İlham Əliyevin tapşırıqları əsasında keçirilir. Özü də məqsəd problemləri öyrənmək, bir çox məsələləri



bəzən elə yerindəcə həll etməkdən ibarətdir.

Yuxarı Ağcakənd sakinlərinin toxunduqları problemlərin, o cümlədən elektrik enerjisi, təbii qaz və rabitə məsələlərinin həlli ilə bağlı aidiyyəti xidmət sahələrinin rəhbərlərinə və məsul şəxslərə yerində müvafiq tapşırıq və tövsiyələr verildi.

**Göygöl**

**Xeyli müddətdir ki, Göygöl Rayon İcra Hakimiyyəti maraqlı bir layihəyə imza atıb. "Kadr potensialının gücləndirilməsi" adlanan layihə çərçivəsində hər dəfə bir təlim keçirilir. Burada aparat işçilərinin, kənd və qəsəbə icra nümayəndələrinin, bütövlükdə dövlət qulluqçularının davranış qaydalarından tutmuş, geyiminə-keciminə, dünyagörüşünə kimi müxtəlif biliklər verilir, söhbətlər, sual-cavablar, diskussiyalar aparılır.**

Növbəti təlim rayon icra hakimiyyətinin və Azərbaycan İnsan Resursları Assosiasiyasının birgə təşkilatçılığı ilə hüquq üzrə fəlsəfə doktoru, dosent, ədliyyə qulluqçusu, Avropa Şurasının "Korrupsiyaya qarşı mübarizə" üzrə yerli eksperti Nazənin Hüseynova tərəfindən keçirilib. İcra hakimiyyətinin və icra nümayəndəliklərinin əməkdaşları üçün "Korrupsiyaya qarşı mübarizə texnikaları" mövzusunda təşkil olunan bu ikigünlük təlim də böyük maraqla qarşılanmışdır.

***Hamlet QASIMOV, "Xalq qəzeti"nin bölgə müxbiri***

# Balakəndə aqrar sahə yüksəliş yolunda

**Balakən kənd təsərrüfatı rayonudur. Əhalinin 56,4 faizi aqrar sektorda çalışır və hər mövsümdə uğurlar əldə edilir.**

Cari ildə rayonun əkin sahələri 112,3 hektar artıb ki, bu da əvvəlki ilə nisbətən 1,1 faiz çoxdur. Kənd təsərrüfatından gələn gəlirlər isə ötən il 4,5 faiz yüksələrək 60,5 milyon manata çatıb.

Təsərrüfatlarda bu ilin məhsulu üçün 1806 hektar sahədə taxıl əkilib, onun 1086,7 hektarını buğda, 719,3 hektarını arpa təşkil edib. Taxıl sahələrinə normal aqrotexniki xidmət göstərilib. Məhsul istehsalının təşkili ilə bağlı zəruri tədbirlər görülüb, kombaynlar saz vəziyyətə gətirilib, biçinin optimal müddətdə aparılmasına nəzarət gücləndirilib. Artıq təsərrüfatlarda biçin uğurla davam etdirilir. Məhsuldarlıq göstəricisi isə 36,5 sentner təşkil edir.

Balakəndə 2023-cü ildə 7819 hektar sahədə qarğıdalı əkilib, bu da əvvəlki ilin səviyyəsindən 152 hektar çoxdur. Hazırda sahələrdə məhsuldarlığın artırılması üçün tədbirlər görülür. Fermerlərdən Qüdrət Məmmədov, Nüsrət Əsgərov, Azər Rəsulov, Musa Şeyxov daha çox qarğıdalı əkərək fərqləniblər. Sahələrin mövcüd vəziyyəti məhsuldarlığın əvvəlki ilin səviyyəsindən 5-8 sentner çox olacağını göstərir.



Rayon fermerlərinin bir hissəsi də baramaçılıqla məşğul olub. Cari ildə 800 qutu Çin toxumundan dirildilmiş ipəkqurdu kümçülərə paylanılıb və 28 tondan artıq barama istehsal edilərək "Azəripək " MMC-yə təhvil verilib. İstehsalçılara baramanın dəyərinin və subsidiyanın ödənilməsi üçün "Azəripək" MMC ilə birgə əlaqədar işlər görülür.

Cari il 2065 hektar sahədə tərəvəz əkilib ki, bu da əvvəlki ilin səviyyəsindən 28 hektar çoxdur. İstehsal olunan tərəvəz məhsulları ölkənin müxtəlif bazarlarında satılır.

Rayon əhalisinin çox hissəsinin məşğul olduğu sahələrdən biri də meyvəçilikdir. Burada ənənəvi bağçılıqla yanaşı, intensiv bağçılıq da inkişaf etdirilir. Cəmi 13237 hektar mövcud bağ sahələrindən 10544,1 hektarda fındıq, 764,5 hektarda xurma, 1928,4 hektarda isə digər meyvələr yetişdirilir. Son illərdə 222 hektar intensiv bağlar da salınıb ki, bu da bağçılıq təsərrüfatlarının müasir formada qurulmasına və məhsul istehsalının artırılmasına imkan verir. Rayonda "Balxurma" MMC və "Balmeyvə" MMC-nin fəaliyyət göstərməsi də meyvəçiliyin inkişafını sürətləndirir.

Balakəndə bitkiçiliklə yanaşı, heyvandarlıq da inkisaf etdirilir. Bunun nəticəsidir ki, rayonda mal-qaranın və davarların sayı ilbəil artır. Bu da ət və süd istehsalının yüksəlməsinə imkan verir. Rayonda mal-qaranın sayı 28619, davarların sayı isə 35753 başa çatıb. İl ərzində orta hesabla 4,8 min ton ət, 22,2 min ton süd, 83 ton yun istehsal olunub.

***İlqar HƏSƏNOV, "Xalq qəzeti"nin bölgə müxbiri***

# Neftçalada müasir su təchizatı şəbəkələri yaradılır

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təsdiqlədiyi regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq Neftçala şəhərində əhalinin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılması məqsədilə paylayıcı şəbəkələrin tikintisi davam etdirilir.**



Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi tərəfindən icra olunan layihə çərçivəsində şəhərdə içməli su şəbəkəsinin yenidən qurulması işləri yekunlaşmaq üzrədir. Rayonun Bankə qəsəbəsində də mərkəzləşdirilmiş içməli su şəbəkəsi yaradılır.

Qeyd edək ki, Neftçala şəhərinin və rayonun bir sıra kəndlərinin içməli su təchizatının yaxşılaşdırılması məqsədilə 2020-ci ildə Şirvan-Muğan qrup su kəmərindən Neftçala şəhərinə 40 kilometr uzunluğunda magistral su kəməri çəkilib, Salyan şəhəri yaxınlığında həcmi 7500 kubmetr olan su anbarı inşa edilib. 2020-ci ilin noyabr ayında həmin kəmərdən Neftçala şəhərinə suyun verilməsi təmin olunub. Şəhərin su təchizatında dayanıqlığın təmin olunması, həmçinin içməli sudan ciddi əziyyət çəkən digər yaşayış məntəqələrinin su təchizatının yaxşılaşdırılması məqsədilə Şirvan-Muğan qrup su kəmərindən Neftçala şəhərinə 38 kilometr uzunluğunda ikinci magistral su kəməri çəkilib və 2023-cü ilin may ayında istismara verilib.

Neftçala şəhərinə magistral su kəmərlərinin inşası ilə paralel şəhərdə paylayıcı şəbəkələrin yenidən qurulması işləri həyata keçirilir. Hazırda Neftçala şəhərində 144 kilometr içməli su şəbəkəsinin və 140 kilometr tullantı su şəbəkəsinin tikintisi intensiv qaydada davam etdirilir. Eyni zamanda, Bankə qəsəbəsində 39 kilometr mərkəzləşdirilmiş içməli su şəbəkəsinin yaradılması işləri yekunlaşmaq üzrədir.

Gələcəkdə isə Neftçala şəhərində 8,6 kilometr kanalizasiya kollektorunun və məhsuldarlığı sutkada 4 min kubmetr olan tullantı sutəmizləyici qurğusunun inşası nəzərdə tutulur. Bütövlükdə isə, Neftçala rayonunda son illər həyata keçirilən içməli su layihələrindən rayon mərkəzi və magistral su kəmərinin marşrutu boyu kəndlərdə yaşayan 80 mindən çox sakin faydalanacaq.

***"Xalq qəzeti"***

# Ağdamda sel fəsad törətməyib

**Son günlər ölkə ərazisində havaların yağıntılı keçməsi Qarabağ çaylarında da suyun səviyyəsini artırıb. Ağdam ərazisindən keçən Xaçınçay və Qarqarçaya da güclü sel gəlib. Baş verə biləcək təhlükəni qabaqlamaq üçün qoruyucu tədbirlər davam etdirilir.**

Xaçınçayın Ağdam ərazisindən keçən hissəsinə su onun üzərində yaradılmış anbardan gəlir. Tutumu 23 milyon kubmetr olan birinci sututar hazırda tam dolub. Qəza tullayıcısından çıxan su isə Ağdamın yaşayış məntəqələrindən keçərək Kür çayına axır. Güclü selin Qərvənd və yaxın yaşayış məntəqələrinə ziyan vurmaması üçün Ağdam Mexaniki Suvarma İdarəsinin texnikası və canlı qüvvəsi əraziyə cəlb olunub.



Hazırda Qarqar çayında 30–35 kubkilometr su var. Xaçınçayda isə bu göstərici 40–45 kubkilometrdir.

Sel suları rayonda indiyədək heç bir fəsad törətməyib. Su bolluğunu nəzərə alaraq elektrik enerjisinə qənaət etmək məqsədilə Xaçınçay boyunca 28, Qarqar çayı ətrafında isə 41 artezian quyusu dayandırılıb.

***"Xalq qəzeti"***

ŞƏHİDLƏRİMİZ

# Vətəni canından əziz bildi...

**Azərbaycan Ordusunun baş giziri Mehman Yusifov Ermənistanın işğalı altında olan torpaqlarımızın azad edilməsi uğrunda Vətən müharibəsində oktyabrın 5-də Cəbrayılda şəhidlik məqamına yüksəlib. O, bundan əvvəl Aprel və Tovuz döyüşlərinin iştirakçısı olub.**

"Qarabağ" ordenli şəhidimizin, Xüsusi Təyinatlı Qüvvələrin baş giziri Mehman Musa oğlu Yusifovun bioqrafiyasını vərəqləyirəm. 18 iyul 1979-cu ildə Tovuz rayonunun Bayramlı kəndində anadan olub. 1985–1996-cı illərdə Elşad Orucov adına Bayramlı kənd tam orta məktəbində təhsil alıb. 1998-ci ildə həqiqi hərbi



xidmətə çağırılıb və 2000-ci ildə tərxis olunub. İki il sonra XTQ üçün gizir hazırlayan kurslara daxil olub. Çətin təlimlər, məşqlər onu daha da möhkəmləndirib. Yenidən Azərbaycan Silahlı Qüvvələri sıralarına qayıdıb. Bu dəfə XTQ-də gizir kimi xidmətə başlayıb.

Hərbi qulluqda xidmətlərinə görə "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi", "Azərbaycan Silahlı Qüvvələrin 95 illiyi", "Azərbaycan Silahlı Qüvvələrin 100 illiyi", II və III dərəcəli "Qüsursuz xidmətə görə" medallarına layiq görülüb.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə, qəhrəmanlıq nümunəsinə, şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamları ilə baş gizir Yusifov Mehman Musa oğlu ölümündən sonra "Qarabağ" ordeni ilə, "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib. Şəhidin Məhəmməd, Süleyman və Fatimə adında üç övladı yadigar qalıb.

**Həyat yoldaşı Günellə söhbət edirəm. Gənc xanım xoşbəxt günlərini xatırlayıb deyir:**

– Mehman Aprel döyüşlərindən əvvəl də, sonra da xeyli müddət evə gəlmədi. Sonra isə Məhəmmədin otağında yatdı. Aptekdən özü ilə xeyli dava-dərman alıb gətirmişdi. Sən demə o, bilməyək deyə, xəlvətcə ayağından və qolundan aldığı yaraların sarığını dəyişirmiş. Biz narahat olanda dedi: "Yaxşı bilirsiniz ki, bu torpaq uğrunda necə igid oğullar qurban gedib, mən onlardan artıq deyiləm. Vətənin haqqı ödənilməlidir". Aprel döyüşlərində həlak olan dostlarına görə qisas hissi ilə yaşayırdı. Deyirdi ki, çox az qalıb, onların qisasını alacağıq.

...Mən Mehmanın nə vaxtsa şəhid olacağını ağlımdan belə keçirməmişdim. Elə bilirdim ki, o, ölümsüzdür, hara getsə, qayıdıb evinə gələcək. O, ailəsini, doğmalarını çox istəyirdi. Bacardığı qədər başqalarına da qayğı, diqqət göstərirdi.

2007-ci ildə ailə dostları Röyalın bacısı Günayda qan xəstəliyi aşkarlananda, ona ilk qan verən Mehman olub. Qanköçürmə İnstitutunda Günaya deyib ki, bacı, arxayın ol, nə qədər ki, mən sağam, sən də yaşayacaqsan. O gündən sonra hər həftə Günayın qan normasını ya özü alıb, ya da hərbçi yoldaşlarından əldə edib. Beləcə, Mehman Günayın qan qardaşı olub...



Sentyabr ayının 25- də Günelə telefonla səsli mesaj göndərib ki, paltarlarımı hazırla, təzə corablar al qoy. Yemək bişir, bir neçə gün evdə olmayacağam. Günel hər şeyi hazırlayıb. Səhərə yaxın telefonuna zəng gələn kimi Mehman qalxıb geyinib, yol çantasını götürdükdən sonra geri dönüb, yatmış uşaqları öpüb. Qapının ağzında əlini yoldaşının kürəyinə vurub: "Nəsə gözlənilməz bir xəbər olsa, hər şey hazır gələcək. Narahat olma," – deyib və evdən çıxıb. Günel həmin vaxt Mehmanın dediklərinin fərqinə varmaylb. Düşünüb ki, həmişəki kimi təlimə, ya da əməliyyata gedir. Mehman isə general Polad Həşimovun və digər igidlərimizin qisasını almağa gedib.

İki gündən sonra belə bir mesaj yazıb: "Günelim, bilirəm, çox əziyyət çəkirsən. Həm qadın, həm kişi kimi çalışır, amma bunu dilinə gətirmirsən... Fikir etmə. Əgər nəsə gözlənilməz bir şey baş versə, bil ki, sizi alçaldacaq heç bir hərəkətə yol verməmişəm. Sən də kimsənin yanında özünü sındırma. Uşaqları əxlaqlı, tərbiyəli böyüt..."

Bu məktubu yazanda Mehman Yusifov ön cəbhədə qızğın döyüşlərdə idi. Ətrafında həlak olan və yaralanan dostlarını görürdü. Eyni zamanda, qalibiyyət sevincini yaşayırdı. Özü də döyüşlərdə yaralandığından başı sarğılı gəzir, dostlarını döyüş meydanında qoyub, hospitala getmirdi...

Dəfn zamanı hərbçi yoldaşlarından biri danışıb ki, Mehmangil Cəbrayıl azad olunandan sonra ön cəbhədəki döyüşçülərə silah-sursat və ərzaq aparıblar. Qayıdanda 8 nəfər heyətlə düşmən pusqusuna düşüblər. Onlar son güllələrinə qədər yaxın mövqedən 300 nəfər düşmənə qarşı döyüşüblər. Düşmənin atdığı mərmi onların həyatına son qoyub. Mehman şəhid olanda başı sarıqlı imiş. O yaralı halda da döyüşdən çəkilməyib. Köməyə gələn hərbçilərimiz 300 nəfərlik erməni alayını yerlə - yeksan edib şəhidlərin qisasını alıblar.

... Mehmanın cənazəsi dostlarının, doğmalarının çiyinləri üstündə Tovuzun Bayramlı kəndinə aparıldı. Ondan qabaqda isə qəhrəman gizirin şəhidlik xəbərini eşidib ürəyi dayanan dostu Röyalın xəstə bacısı Gunayın tabutu gedirdi. Mehmanı şəhidlik zirvəsindəki son mənzilə dostluq sevgisinin hüznlü vəfa və qədirbilənliyin nadir fəda örnəyi müşayiət edirdi.

***Zərifə BƏŞİRQIZI, "Xalq qəzeti"***

SOSİAL SFERA

# Milli Observatoriyanın yaradılmasından 4 il ötür

**Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın yaradılmasının 4 illiyi münasibətlə keçirilən mətbuat konfransında qurumun idarə heyətinin sədri Elnur Səfərli bildirib ki, bu təsisat əmək, məşğulluq, sosial müdafiə sahələrində səmərəli idarəetmə qərarlarının qəbul edilməsi üçün təkmil monitorinq, təhlil, proqnozlaşdırma sisteminin yaradılması istiqamətində fəaliyyət göstərir.**

Qurumun fəaliyyətinin sorğu-monitorinq, təhlil-tədqiqat, qiymətləndirmə və təlim-inkişaf istiqamətləri üzrə təşkil olunduğu qeyd edilib. Observatoriya tərəfindən ötən dövrdə 12 mövzuda 9,7 mindən çox respondent arasında sorğular təşkil edildiyi bildirilib. Qeyd edilib ki, yuxarı sinif şagirdləri arasında peşə seçimi ilə bağlı sorğu keçirilib, şagirdlərin təhsil perspektivləri, peşə və ixtisas seçiminə təsir edən faktorlar, məqsədyönlü ixtisas seçimini təşviq edən amillər kimi vacib məsələlər öyrənilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təlim bazası qismində də iştirak edən Milli Observatoriyanın ötən müddət ərzində nazirlik aparatı və nazirliyə tabeli qurumların əməkdaşları üçün 61 mövzu üzrə təlimlər keçirdiyi, təlim və təlimçi reyestri formalaşdığı qeyd olunub.

***Z. HÜSEYNOVA, "Xalq qəzeti"***

# Məhkəmə sabiq deputatla bağlı qərar verdi

**Sabiq deputat Nazim Bəydəmirlinin barəsində həbs qətimkan tədbirinin seçilməsi barədə istintaq orqanının təqdimatına baxılıb.**

Nərmanov rayon Məhkəməsində hakim Vüsal Qurbanovun sədrliyi ilə keçirilən prosesdə istintaq orqanının təqdimatı təmin olunub.

Nazim Bəydəmirlinin barəsində 4 ay müddətinə həbs qətimkan tədbiri seçilib.

Qeyd edək ki, Nazim Bəydəmirli vətəndaşın müraciəti əsasında araşdırmaya cəlb edilib.

Vətəndaş polisə müraciət edərək Nazim Bəydəmirlinin onun barəsində rüsvayedici görüntülərin olduğunu qeyd edərək ondan 50 min manat tələb etdiyini bildirib. O, cari il iyunun 24-də Nazim Bəydəmirliyə 10 min manat versə də, o, qalan məbləği vermədiyinə görə şikyətçini ailəsi ilə şantaj edərək rüsvayedici görüntüləri yayacağını bildirib.

Nazim Bəyrəmirli Cinayət Məcəlləsinin 182.2.4-cü (xeyli miqdarda əmlak əldə etmək məqsədi ilə hədə-qorxu yolu ilə tələb etmə) maddəsi ilə ittiham elan edilib.


## B İ L D İ R İ Ş

"Azərenerji" ASC tərəfindən 2023-cü il aprelin 7-də elan edilmiş 6/10/35/110 kV-luq xətlərdə elektrik enerjisinin ötürülməsi, qəbul olunması, çevirilməsi və paylanılması üçün müxtəlif malların satın alınması məqsədilə dövlət satınalmalarının vahid internet portalı vasitəsilə keçirilən açıq tenderdə iddiaçılardan daxil olan təkliflərin qiymətləndirilməsi həyata keçirilmiş və tender komissiyasının qərarı ilə formal tələblərə cavab verən, ən aşağı qiymət təklif edən "Smart Energy Solutions" QSC tenderin qalibi müəyyən olunmuş və qalib gəlmiş təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## "Bakavtoservis" ASC səhmdarlarının nəzərinə!

23 avqust 2023-cü il saat 12.00-da səhmdarların növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** Cəmiyyətin 2022-ci il üzrə maliyyə-təsərrüfat fəaliyyəti haqqında icra orqanının hesabatı.

**2.** Cəmiyyətin nizamnaməsinin yeni redaksiyada qəbul edilməsi.

**3.** Cəmiyyətin direktorlar (müşahidə) şurasının üzvlərinin və sədrinin seçilməsi.

**4.** Cəmiyyətin icra orqanının seçilməsi.

**5.** Cəmiyyətin təftiş komissiyasının yaradılması.

Əlaqə telefonu- 070-262-00-82.

Ünvan- Bakı, Suraxanı rayonu, Zığ qəsəbəsi, Zığ-Suraxanı yolu 2-ci km 10.


## "Salyan-Taxıl" Açıq Səhmdar Cəmiyyətinin 2022-ci il dekabrın 31-nə balans hesabatı

*manatla*

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| **Aktivlər** | | |
| **Uzunmüddətli aktivlər** | | |
| Əsas vəsaitlər | 1,301,575.36 | 1,397,460.32 |
| Qeyri - maddi aktivlər | 0.00 | 0.00 |
| **Cəmi uzunmüddətli aktivlər** | **1,301,575.36** | **1,397,460.32** |
| **Qısamüddətli aktivlər** | | |
| Ehtiyatlar | 258.47 | 0.00 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 5,335.92 | 193.19 |
| Digər aktivlər | 3,491,659.97 | 3,391,857.05 |
| Kapitallaşdırma üçün aktivlər | 0.00 | 0.00 |
| Qısamüddətli debitor borcları | 1,800.00 | 0.00 |
| **Cəmi qısamüddətli aktivlər** | **3,499,054.36** | **3,392,050.24** |
| **Cəmi aktivlər** | **4,800,629.72** | **4,789,510.56** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 3,241,534.00 | 3,241,534.00 |
| Kapital ehtiyatları | 785,257.28 | 785,257.28 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 0.00 | 0.00 |
| **CƏMİ KAPİTAL** | **4,026,791.28** | **4,026,791.28** |
| **Qısamüddətli öhdəliklər** | | |
| Qısamüddətli borclar | 104,617.80 | 103,878.64 |
| Gələcək dövrün gəlirləri | 0.00 | 0.00 |
| Digər öhdəliklər | 669,220.64 | 658,840.64 |
| **Cəmi qısamüddətli öhdəliklər** | **773,838.44** | **762,719.28** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **4,800,629.72** | **4,789,510.56** |

### Mənfəət və zərər haqqında hesabat

| | | |
|---|---|---|
| Əsas əməliyyat gəlirləri | 55,830.49 | 8,525.43 |
| Əməliyyat xərcləri | 26,601.24 | 12,144.35 |
| **Ümumi mənfəət (zərər)** | **29,229.25** | **-3,618.92** |
| Ümumi idarəetmə xərcləri | 24,044.49 | 24,088.45 |
| Amortizasiya | 100,215.96 | 108,225.27 |
| Sair əməliyyat xərcləri | 4,771.72 | 3,821.39 |
| **Cəmi sair əməliyyat xərcləri** | **129,032.17** | **136,135.11** |
| **Əsas fəaliyyət üzrə mənfəət (zərər)** | **-99,802.92** | **-132,516.19** |
| Mənfəət hesabına kompensasiya edilən keçmiş illərin zərəri | 0.00 | 0.00 |
| Mənfəət vergisi | 0.00 | 0.00 |
| **Vergi tutulduqdan sonra mənfəət (zərər)** | **-99,802.92** | **-132,516.19** |
| Gəlirdən çıxılmayan xərclər | 0.00 | 0.00 |
| Sair düzəlişlər | 0.00 | 0.00 |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | **-99,802.92** | **-132,516.19** |

### Pul vəsaitlərinin hərəkəti haqqında hesabat

| | |
|---|---|
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti:** | |
| Mənfəət hesabına kompensasiya edilən keçmiş illərin zərəri | 0.00 |
| Hesabat dövründə xalis mənfəət | 0.00 |
| Digər düzəlişlər | 0.00 |
| Əlavə kapital | 785,257.28 |
| Amortizasiya xərcləri | 100,215.96 |
| **Əməliyyat aktiv və passivlərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətlərindən yaranan pul vəsaitlərinin hərəkəti** | |
| **Əməliyyat aktiv və passivlərində dəyişikliklər** | |
| Digər aktivlərdə artma və ya azalma | 99,802.92 |
| Ehtiyatlarda artma və ya azalma | 258.47 |
| Qısamüddətli debitor borclarda artma və ya azalma | 1,800.00 |
| Kapitallaşdırma üçün aktivlər | 0.00 |
| Qısamüddətli kreditor borclarda artma və ya azalma | 739.16 |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 3,092.02 |
| **Əməliyyat fəaliyyətində istifadə olunan xalis pul vəsaitləri** | |
| **İnvestisiya fəaliyyətində yaranan pul vəsaitlərinin hərəkəti:** | |
| Əsas vəsaitlərin alınması | 4,331.00 |
| Nizamnamə kapitalında artım | 0.00 |
| **İnvestisiya fəaliyyətində istifadə olunan xalis pul vəsaitləri** | |
| **Maliyyələşdirmə fəaliyyətində yaranan pul vəsaitlərinin hərəkəti:** | |
| Borc verilmiş digər vəsaitlərdə xalis artma | |
| Dividendlər və buna oxşar digər ödəmələr pul şəklində | |
| **Maliyyələşdirmə fəaliyyətində yaranan xalis pul vəsaitləri** | |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis artma, azalma** | **5,142.73** |
| **İlin əvvəlində pul vəsaitləri və onların ekvivalentləri** | **193.19** |
| **İlin sonunda pul vəsaitləri və onların ekvivalentləri** | **5,335.92** |

### Kapitalda dəyişikliklər haqqında hesabat

| | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət | Əlavə kapital | Kapitalın cəmi |
|---|---|---|---|---|
| **2020-ci il yanvarın 1-nə qalıq** | 3,241,534.00 | 0.00 | 785,257.28 | **4,026,791.28** |
| Nizamnamə kapitalında artma | 0.00 | 0.00 | 0.00 | **0.00** |
| Xalis mənfəət artımı | 0.00 | 0.00 | 0.00 | **0.00** |
| Sair düzəlişlər | 0.00 | 0.00 | 0.00 | **0.00** |
| Əlavə kapital | 0.00 | 0.00 | 0.00 | **0.00** |
| **2022-ci il dekabrın 31-nə qalıq** | **3,241,534.00** | **0.00** | **785,257.28** | **4,026,791.28** |

**MÜSTƏQİL AUDİTORUN RƏYİ**

Mən, SƏRBƏST AUDİTOR ŞƏRİFOV ƏRŞAD VÜSAL oğlu ilə (VÖEN:1201062092) Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən verilmiş 15 yanvar 2021-ci il tarixli, SA/460 saylı qeydiyyatlı icazəyə və "SALYAN-TAXIL" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ (VÖEN:7000208881) (bundan sonra "Cəmiyyət" adlanacaq) arasında bağlanmış 11 may 2023-cü il tarixli 55 nömrəli müqaviləyə əsasən 2022-ci il dekabrın 31-nə "Cəmiyyət"in balans hesabatı, mənfəət və zərər haqqında hesabat, pul vəsaitlərinin hərəkəti hesabatının və kapitalda dəyişikliklər haqqında hesabatın "Cəmiyyət" tərəfindən təqdim edilmiş sənədlər əsasında auditini apardım.

**Maliyyə hesabatları üzrə rəhbərliyin məsuliyyəti**

Rəhbərlik, Maliyyə Hesabatının Beynəlxalq Mühasibat Uçotu Standartları əsasında maliyyə hesabatlarının hazırlanmasına və ədalətli təqdimatına görə cavabdehdir. Rəhbərliyin məsul olduğu vəzifələrə aşağıdakılar daxildir:

- maliyyə hesabatlarının saxtalaşdırmadan və hər hansı mühüm təhriflərə yol vermədən hazırlanması və ədalətli təqdimatına uyğun daxili nəzarətin planlaşdırılması, tətbiqi və saxlanılması;
- müvafiq mühasibat uçotu siyasətlərinin seçilməsi və tətbiqi;
- **şəraitə müvafiq mühasibat qiymətləndirmələrinin aparılması.**

**Auditorun məsuliyyəti**

Mənim məsuliyyətim apardığım auditin nəticəsinə əsaslanaraq bu maliyyə hesabatlarına dair rəy bildirməkdən ibarətdir. Mən auditi audit standartlarına uyğun olaraq həyata keçirdim. Həmin standartlar tələb edir ki, mən etik tələbləri yerinə yetirməklə yoxlamanın aparılmasını elə planlaşdırıb həyata keçirim ki, maliyyə hesabatlarında əks etdirilən məlumatlarda **əhəmiyyətli səhvlərin olmamasına kifayət qədər əmin olum.**

Audit zamanı maliyyə hesabatlarında əks etdirilən məbləğlər və açıqlamalar üzrə sübutların təsdiq edilməsi üçün prosedurlar aparılır. Prosedurlar auditorun qərarından, o cümlədən maliyyə hesabatlarında səhv və saxtakarlıqla bağlı mühüm risklərin qiymətləndirilməsindən asılı olaraq seçilir. Həmin risk qiymətləndirmələrini aparаrkən, auditorun məqsədi təşkilatın daxili nəzarət sisteminin səmərəliliyi haqqında rəy vermək deyil, şəraitə müvafiq audit prosedurlarının planlaşdırılması üçün təşkilat tərəfindən maliyyə hesabatlarının hazırlanması və ədalətli təqdimatının daxili nəzarət sisteminə uyğunluğunu nəzərdən keçirməkdir.

Audit yoxlamasına həmçinin rəhbərlik tərəfindən tətbiq edilmiş mühasibat uçotu siyasətlərinin və aparılmış mühasibat hesablamalarının müvafiqliyinin, eləcə də ümumi maliyyə hesabatlarının təqdimatının qiymətləndirilməsi daxildir.

Məncə, apardığım audit nəticəsində rəy vermək üçün kifayət qədər əsas toplamışam.

**RƏY**

Mənim rəyimə görə, bu icmal maliyyə hesabatları 2022-ci il dekabrın 31-nə "SALYAN-TAXIL" AÇIQ SƏHMDAR CƏMİYYƏTNİN maliyyə vəziyyətini, həmin tarixdə bitən il üzrə fəaliyyət nəticələrini və pul vəsaitlərinin hərəkətini bütün əhəmiyyətli hallarda düzgün və Maliyyə Hesabatlarının Beynəlxalq Mühasibat Uçotu Standartlarına uyğun əks etdirir.

**SƏRBƏST AUDİTOR- Şərifov Ərşad Vüsal oğlu**
**19 may 2023-cü il.**

SON SƏHİFƏ
Xalqın qəzeti!
# Xalq qəzeti
№ 138 (30254) 6 iyul 2023-cü il, cümə axşamı
veb-sayt: www.xalqqazeti.az

İdman xəbərləri

## Ağırlıqqaldıranımız Avropa birinciliyində 3 medal qazanıb

**Moldovanın paytaxtı Kişineuda keçirilən 15 və 17 yaşlı yeniyetmələr arasında ağırlıqqaldırma üzrə Avropa birinciliyində idmançımız 3 medal qazanıb.**




Yığma komandamızın üzvü Amin Osmanov yaşı 17-dək olan oğlanlar arasında 55 kiloqram çəki dərəcəsində mübarizə aparıb. "Göyəzən" klubunun təmsilçisi olan atletimiz birdən qaldırma hərəkətində 99 kiloqram nəticə göstərib və bu hərəkətdə bütün rəqiblərini üstələyərək qızıl medala sahib olub. Təmsilçimiz təkanla qaldırma hərəkətində də 117 kiloqramı başı üzərinə qaldırıb və bu hərəkətdə ikinci yeri tutub.

Ümumilikdə 216 kq (99+117) nəticə göstərən A.Osmanov yekun sıralamada da gümüş medala layiq görülüb.

## Gimnastımız dünya kuboku yarışlarının qalibi olub

**Portuqaliyanın Santarem şəhərində batut gimnastikası və tamblinq üzrə dünya kuboku yarışlarında Azərbaycan yığma komandasının üzvü Mixail Malkin uğurla çıxış edib.**



Azərbaycan Gimnastika Federasiyasından "Xalq qəzeti"nə bildiriblər ki, yarışda iki idmançımız - Mixail Malkin və Adil Hacızadə finala vəsiqə qazanmağa müvəffəq olub.

Həlledici mərhələdə təcrübəli idmançımız, Avropa çempionu, dünya çempionatının gümüş mükafatçısı Mixail Malkin bütün rəqiblərini üstələyərək çempion tituluna yiyələnib. Adil Hacızadə isə medala çox yaxın olsa da, dördüncü pillədə qərarlaşıb.

Qeyd edək ki, gimnastlarımız bu yarışdan birbaşa Koimbra şəhərinə (Portuqaliya) gedərək, iyulun 7-8-də keçiriləcək daha bir dünya kuboku yarışlarında güclərini sınayacaqlar.

## "Qız qalası" dünya kubokunun loqosunda

**İyulun 30-da Bakıda start götürəcək şahmat üzrə dünya kubokunun loqosu təqdim olunub. Loqoda Bakının əsas rəmzlərindən biri olan "Qız qalası" və şahmatda top fiqurunun elementlərindən istifadə olunub. Top fiquru ilə qalanın cizgilərində memarlıq cəhətdən oxşarlıq yaradılıb.**

FIDE WORLD CUP
AZERBAIJAN 2023

Sayca 10-cu dəfə təşkil olunacaq dünya kubokunun open yarışında 206, qadınların mübarizəsində isə 103 şahmatçı iştirak edəcək.

Azərbaycanı dünya kubokunda Teymur Rəcəbov və Şəhriyar Məmmədyarovla yanaşı, Rauf Məmmədov, Qədir Hüseynov, Vasif Durarbəyli, Nicat Abasov, Eltac Səfərli, Abdulla Qədimbəyli, Misrətdin İskəndərov, Nicat Məmmədov, Aydın Süleymanlı, Məhəmməd Muradlı, Vüqar Əsədli qadın millimizin lideri Günay Məmmədzadə, Ülviyyə Fətəliyeva, Gülnar Məmmədova, Gövhər Beydullayeva və Xanım Balacayeva iştirak edəcək.

Dünya kubokunda kişilərin yarışında ilk üç yeri tutacaq şahmatçı İddiaçılar Turnirinə vəsiqə qazanacaq. Yarışın ümumi mükafat fondu 2,5 milyon ABŞ dollarıdır.

Xatırladaq ki, dünya kuboku səkkiz illik fasilədən sonra ikinci dəfə Bakıda təşkil olunacaq. İlk dəfə mötəbər yarış 2015-ci ildə paytaxtımızda keçirilib.

***Leyla SABİRQIZI, "Xalq qəzeti"***

Texnologiya yenilikləri




## "Google" "Bard"ın məxfiliyini yeniləyib

**"Google" şirkəti süni intellekt "Bard" üçün məxfilik siyasətini dəyişib. Son yeniləmələr göstərir ki, süni zəka ictimaiyyətə açıq olan istənilən məlumatdan istifadə edə biləcək.**

Məlumatda bildirilir ki, "Google" onlayn ictimaiyyətə açıqlanan məlumatlardan və ya digər ictimai resurslardan istifadə edərək, "Bard" və "Cloud" süni intellekt modellərini inkişaf etdirəcək.

Qeyd edək ki, bu qərar məşhur süni intellekt "ChatGPT" çatbotunun tərtibatçısı "OpenAI"nin Kaliforniyada cəzalandırılmasından sonra verilib. İddia olunur ki, müəllif və məxfilik hüquqları pozularaq süni zəka üçün icazəsiz sosial media, bloqlar, Vikipediya və digər şəxsi məlumatlardan istifadə edilir.

***Əfsanə ƏHƏDLİ, "Xalq qəzeti"***

## "İlkinliyin sönməyən işığı"

**ABŞ-ın Portlend şəhərindəki "Oreqon" Müasir İncəsənət Mərkəzində Azərbaycanın Əməkdar mədəniyyət işçisi, rəssam Sürəyya Muğanlının "İlkinliyin sönməyən işığı" adlı fərdi sərgisi keçirilib.**



Azərbaycanlı rəssamın unikal həyat hekayəsi və səmimiliyi amerikalı sənətsevərlərin diqqətini cəlb edib. Portlend ictimaiyyəti və ABŞ sənətçiləri sərgi haqqında müsbət rəylər veriblər. Ziyarətçilər arasında məşhur fotoqraf Kris Rauşenberq də olub. O, ötən ildən Sürəyya Muğanlının yaradıcılığına heyran qalıb, onun sənət əsərlərini öz gözləri ilə görməkdən şad olduğunu bildirib.

Sürəyya Muğanlı Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Kollecini bitirdikdən sonra Bakıda iki fərdi sərgisi açılıb: "2019-cu ildə Moskvada "Velvet Confessions" kollektiv sərgisində ilk dəfə işlərimi xarici auditoriyaya nümayiş etdirdim. Azərbaycan mədəniyyətini uzaq bir ölkədə ictimaiyyətə təqdim etməkdən çox xoşbəxtəm".

Əldə etdiyimiz məlumata görə, Çikaqodakı muzeylərdən birində də Sürəyya Muğanlının fərdi sərgisinin keçirilməsi təklif olunub. Bununla yanaşı, 2024-cü ildə İçərişəhərdəki "Ta(r)dino 6" İncəsənət Platforması məkanında rəssamın fərdi retrospektiv sərgisini açmağı planlaşdırılır.

Sürəyya Muğanlı Saatlı rayonundakı Tarix-diyarşünaslıq muzeyinə rəhbərlik edir. O, qeyri-adi qrafika əsərləri yaradır. Rəsmlərində Cənubi Qafqaz mifologiyasına istinadlar, Asiya və Cənubi Amerikanın dini inanclarından ilhamlanan əyani sitatlar var.

***L.AZAD, "Xalq qəzeti"***

BEYNƏLXALQ HƏYAT

## Saxlananların sayı 4 minə çatdı

**Fransada iğtişaşlar zamanı polis və jandarmlar 4 min nəfəri saxlayıb ki, onlardan 10 faizinin Fransa vətəndaşlığı olmayıb. Bunu Senatda keçirilən dinləmələrdə nazir Cerald Darmanin deyib.**



Fransada etirazlar iyunun 27-də axşam saatlarında Paris ətrafında 17 yaşlı yeniyetmənin polis tərəfindən öldürülməsindən sonra başlayıb. Nantrda başlayan aksiyalar bir gün sonra onlara Lill və Tuluza sakinləri də qoşulub. Daha sonra etirazlar iğtişaşlara və polislə toqquşmaya çevrilib.

Fransa cəmiyyətində polis zorakılığı, irqçilik və digər sosial problemlər beynəlxalq medianın mövzusuna çevrilib. Üstəlik, təkcə polis zorakılığı deyil, həm də hökumətin belə hadisələrə reaksiyası da ciddi müzakirə edilir.

## Moldova MDB-dən uzaqlaşır

**Moldova hökuməti dünən keçirilən iclasında MDB çərçivəsində imzalanan daha iki sazişdən imtina barədə qərar qəbul edib.**



Bu barədə Moldova Nazirlər Kabineti yerli mediaya məlumat verib.

Məlumata görə, Moldova hökuməti 2000-ci ildə imzalanan azad ticarət zonasında texniki baryerlər üzrə sazişdən imtina etmək istəyir. Bundan başqa, MDB-yə üzv ölkələr arasında istehlakçı hüquqlarının müdafiəsi sahəsində əməkdaşlığa yönələn əsas sazişə də xitam verilməsi nəzərdə tutulur.

Artıq may ayında Moldova MDB çərçivəsində iki sazişdən - təşkilata üzv ölkələrin xarici sərhədlərinin müdafiəsi sahəsində məlumat mübadiləsi, həmçinin məhsul tədarükü üzrə ümumi şərtlər barədə sazişlərdən çıxıb. Parlamentin sədri İqor Qrosu bir müddət əvvəl elan edib ki, Moldova MDB-nin parlamentlərarası assambleyası barədə sazişdən də çıxmağa hazırlaşır.

# Mədəniyyət xəbərləri

### Şəkidə "İpək yolu" festivalı

***Şəkidə növbəti musiqi bayramı – Şəki "İpək Yolu" XII Beynəlxalq Musiqi Festivalı başlanıb. Mədəniyyət Nazirliyi, Bəstəkarlar İttifaqı və Şəki Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə reallaşan festivalda Türkiyə, Çin, Özbəkistan və Qazaxıstandan gəlmiş rəqs və musiqi qrupları, ifaçılar, həmçinin Azərbaycanın tanınmış teatr və musiqi kollektivləri iştirak edirlər.***



Festivalın təntənəli açılış mərasimi "Marxal" kompleksinin Yay Teatrında keçirilib. Rəsmi hissədən sonra Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı solistlərinin ifasında Xalq artisti Firəngiz Əlizadənin vətənpərvərlik mövzusunda "İntizar" operası nümayiş olunub. Ertəsi gün Şəki Xan Sarayının qarşısında "Zəfər" muğam qrupunun konserti olub. Eyni zamanda "Yuxarı Karvansaray" mehmanxana-kompleksində musiqisevərlərə Çin Xalq Respublikasının Lianşan-İy Muxtar Vilayətinin ansamblının konserti təqdim olunub.

Voleybol yarışı və karate üzrə keçirilən açıq şəhər birinciliyi də festivala həsr olunub.

Şəki "İpək Yolu" XII Beynəlxalq Musiqi Festivalı iyulun 7-dək davam edəcək.

### Bakıda "Qonaq teatr"lar



***Azərbaycan Teatr Xadimləri İttifaqının (ATXİ) Mədəniyyət Nazirliyinin dəstəyi ilə reallaşdırdığı növbəti uğurlu aksiyalarından biri də "Qonaq teatr" layihəsidir. Əsas etibarilə bölgə teatrlarını paytaxt teatrsevərləri ilə görüşdürüb, onların yaradıcılığını geniş auditoriya önünə çıxaran layihə Azərbaycan peşəkar milli teatrının yaranmasının 150 illiyi münasibətilə ilin sonunadək davam edəcək.***

Hələlik cari teatr mövsümünün son qonaq kollektivi Sumqayıt Dövlət Dram Teatrı olub. Gənclər şəhərinin teatr təmsilçiləri repertuarlarındakı baxımlı nümunələrdən birini – Türkiyə yazıçısı Turqut Özakmanın eyniadlı əsəri əsasında hazırlanan "Ocaq" tamaşasını ATXİ-nin səhnəsində ("Aktyor evi") təqdim ediblər. Tamaşanın quruluşunu Xalq artisti Firudin Məhərrəmov verib.

### Tofiq Kazımov – 100

***Masallı rayonunda tanınmış Azərbaycan rejissoru Tofiq Kazımovun anadan olmasının 100 illiyi münasibətilə toplantı keçirilib.***



Tədbirdə Xalq artisti, Dövlət mükafatı laureatı Tofiq Kazımovun tükənməz yaradıcılıq enerjisi sayəsində Azərbaycan milli teatr prosesində yeni üslubun – lirik- psixoloji teatr məktəbinin yarandığı vurğulanıb. Tofiq Kazımovun Akademik Milli Dram Teatrında baş rejissor kimi səhnələşdirdiyi "Sən həmişə mənimləsən","Yalan", "Ölülər", "Sənsiz", "Hamlet" kimi dolğun tamaşaları Azərbaycan səhnəsini rövnəqləndirib.

***Ə.DOSTƏLİ, "Xalq qəzeti"***

## Dünya musiqi hərəkatı İçərişəhərdə

**Dünyanın 400-dən çox şəhərində fəaliyyət göstərən "Sofar Sounds" musiqi hərəkatının iyulun 7-də İçərişəhərdə növbəti açıq hava konserti olacaq.**




2016-cı ildən bəri Azərbaycanda keçirilən bu konsertlərin əsas məqsədi istedadlı gənc ifaçılara dəstək olaraq, onları dinləyicilərlə səmimi mühitdə görüşdürməkdir.

Qeyd edək ki, beynəlxalq səviyyədə baş tutan konsertlərdə bu günədək gənclər tərəfindən sevilən Ed Sheeran, Billie Eilish, Hozier, Türkiyənin məşhur simaları Mor və Ötesi qrupu, Kalben, Deniz Tekin, Ufuk Baydemir dinləyicilərin qarşısına çıxıb.

"Sofar Sounds Baku" sosial təşəbbüs olaraq həyata keçirilir və ölkəmizdə indiyədək tanınmış simalar – Rasim Müzəffərli, Şəhriyar İmanov, Cavan Zeynallı, Promete, Dihaj, Elvina, Vedad, Rapluvi The Half, Ahmedovsky Trio, DədəBaba, Darvish Band, AynaBand qrupu, Orxan Zeynallı, Ceyhun Səmədov kimi sevilən musiqiçilər, eləcə də istedadlı gənc ifaçılar burada çıxış edib.

***S. RZAYEVA, "Xalq qəzeti"***

Proqnoz



## İsti 38 dərəcəyə çatacaq

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən **iyulun 6-da Bakıda və Abşeron yarımadasında** əsasən yağmursuz keçəcək. Mülayim şimal-qərb küləyi əsəcək. Gecə 20-25°, gündüz 30-35° isti olacaq. Atmosfer təzyiqi 759 mm civə sütunu, nisbi rütubət gecə 65-75, gündüz 45-50 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 23-24° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 25-26° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz Balakən-Şəki zonasının bəzi yerlərində qısamüddətli yağış yağacağı gözlənilir. Şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 21-26°, gündüz 33-38°, dağlarda gecə 11-16°, gündüz 19-24° isti olacaq.

***Q. QASIMOV, "Xalq qəzeti"***

## ALLAH RƏHMƏT ELƏSİN

Ağcabədidən Rafil Hüseynov Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsi müdirinin müavini Fikrət Əzizova qardaşı

**RAMİZ ƏZİZOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4036
SİFARİŞ 1664
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır 00:00